# O «bəli» dedi



Kessi Bernallın bənzərsiz şəhidliyi

Littleton, Colorado

Misti Bernall

# «O bəli dedi» kitabı üçün təriflər

**Nyu-York Post qəzeti**
Ailə münaqişələrinin həlli üçün müdrik yol göstərən belə aydın və güclü təsirə malik kitab tapmaq çətindir... Bu kitabın «ruhlandırıcı» üsluba xas olan həddindən artıq romantik, moizə xarakterli kitablar ilə əlaqəsi yoxdur. Bu hər bir valideyn və yeniyetmə tərəfindən oxunmalı olan hərtərəfli real hekayədir.

**Denver Post qəzeti**
Valideyn təhlükəsi, yeniyetmələrin özlərini bir şəxs kimi axtarmaları və zülmətli günlərində ümid haqqında olan çox şəxsi hekayətdir.

**TIME jurnalı**
Biz gözləyirik ki, şəkli mərmər üzərində həkk olunmuş insanlar şəhid hesab olunsunlar; bel çantası daşıyaraq, öz çəki və məzun imtahanlarının qayğısını çəkən insanlar deyil. Kessinin hekayəsi pis dostlar, narkotiklər, cadu və yeniyetmə üsyankarlığının zülmətində azmış bir qızın sirrli əhvalatıdır.

**Christianity Today**
Hər bir valideynin ürəyini titrədən, lakin bununla yanaşı güclü ümid sıçrayışı gətirən hekayədir.

**Fr. Michael Scanlan, Franciscan University**
Heyranedicidir... Kessinin həyatı və ölümü cəsarət və iman nümunəsi təcəssüm etdirir. Qatillərini əhatə edən nifrət dolu mühitdən Kessinin özü çıxması xüsusilə təsirlidir.

# O «bəli» dedi



Misti Bernall

1999, 2002-ci il Müəlliflik hüququ Misti Bernalla məxsusdur. Bütün hüquqlar müdafiə olunur. Baxış zamanı qısa sitatlar istisna olmaqla, nəşr edənin yazılı icazəsi olmadan, istənilən halda, kitabın heç bir hissəsinin üzünü çıxarmaq, köçürmək və ya məlumat daşıyıcısı və baza bərpa sistemi də daxil olmaqla, elektron və ya mexaniki istifadə etmək və ya yenidən çap etmək qəti qadağandır.

Bütün fotoşəkillər Misti və Bred Bernalla məxsusdur.

Originally published in English under the title
*She Said Yes* by Misty Bernall.
© 1999 by Misty Bernall

© 2006 for the Azeri edition.
Translated by permission. All rights reserved.

# O «bəli» dedi

Mənim qızım Kessiyə, ürəyimə sevinc gətirən kiçik qıza və həyatı ilə bütün bir millətə toxunan mərd gənc qadına;

1999-cu il aprelin iyirmisi Kolumbin Orta məktəbində iki əqli problemləri olan sinif yoldaşlarının əllərində onunla birlikdə həlak olan on iki nəfərə: Stiven Kurnou, Kori Di-Poter, Kelli Fleming, Mətyu Keçter, Daniel Mauser, Daniel Rourbog, Devid Sanders, Reyçl Skott, Ayzeya Şulz, Con Tomlin, Loren Tounsend və Kayl Velaskez;

Həmin gün və hal-hazırda da zədəni addımbaşı hiss edən, fiziki və emosional yaradan əziyyət çəkən saysız-hesabsız şəxslərə;

Ən sonda da, indi daha çox qiymətləndirdiyim həyat yoldaşım Bred və oğlumuz Krisə.

# Nəşriyyatdan

Qızlarının və Kolumbin Orta məktəbində başqa on dörd nəfərin həyatına son qoyan atışmadan sonrakı həftələr ərzində, Bred və Misti Bernall Kessinin hekayəsini daha geniş dinləyici kütləsi ilə bölüşməkdə onlara kömək edə biləcəkləri ümidi ilə PLAU-ya üz tutdular. İşıq üzü görən, *O «bəli» dedi* kitabı, müəllifin öz xatirələrinə, məktublara, qızlarının ölümündən bəri meydana çıxan qeydlərə və sinif yoldaşları, dostları və digər tanışların geniş müsahibələrinə əsaslanırdı.

1999-cu il aprelin iyirmisində Kessinin ölümünün dəqiq təfsilatı da daxil olmaqla Kolumbində baş verən azğınlığın dəqiq xronologiyası açıqlanma imkanının olmamasına baxmayaraq, müəlliflərin kitabda çap edilən sözləri kitabxanadan sağ çıxanların çoxsaylı danışıqlarına əsaslanır və onların fərqli xatirələri nəzərə alınıb.

PLAU Nəşriyyat Evi



Kessi Rene Bernal, 6 noyabr 1981-ci il – 20 aprel 1999-cu il

«Səmimi qəlbdən, mən tamamilə Allah üçün yaşamaq istəyirəm.
Bu çətin və dəhşətlidir, amma buna dəyər.»

*Öldürüldüyü gündən əvvəlki gecədə Kessi tərəfindən yazılmış və növbəti günün səhəri məktəbdə dostu Amandaya ötürülmüş qeydindən.*

# ÖN SÖZ

**Madlen L'engldən**

Yeniyetmələrin daim tənbəllikdə, eqoistlikdə və başqalarının ehtiyaclarına laqeydlikdə günahlandırıldığı bir dünyada, Kessi kimiləri haqqında düşünmək şəfavericidir. Kessi də hamımız kimi özünəməxsusdur, amma öz gənclik sorğu-sualında o, adi bir qızdır: Mən kiməm? Allah məni sevirmi və mənim başıma gələnlərin qayğısını çəkirmi? Mənim etdiklərim dəyişiklik gətirirmi?

Bəli, Kessi, sənin qısa həyatın çox dəyişikliklər etdi. Sən anladın ki, biz hər gün seçim etməliyik və bizim etdiyimiz seçimlər bizim kimliyimizin hörgü daşlarıdır. Sənin Allaha imanını təsdiq etməyin sadəcə göydən düşmədi, yalnız həyatın boyu etdiyin hər bir seçimdən irəli gəldi.

«Sən Allaha inanırsanmı?»

«Bəli.»

Əgər Kessi artıq bu sualı özünə dəfələrlə verib, hər dəfə əminliklə özünə bəli cavabı verməsəydi, o sualı cavablandıra bilməzdi. «Bəli» sözü onun ürəyinin, düşüncəsinin və canının o qədər dərinliklərindən gəlirdi ki, hətta həyatını təhlükə altına qoysaydı da, bu sözü deyə bilərdi. Sonda, bu ona həyatı bahasına başa gəldi. Mənə elə gəlir ki, Kessi şəhid kimi damğalanmaq istəməzdi. Bu gün bir çox yeniyetmələr var ki, onları ürəklərinin dərinliklərində düzgün hesab etdiklərindən başqa tərəfə çəkməyə çalışan yoldaşlarının təsirinə belə baxmayaraq, ona verilən suala onun kimi cavab verərdilər.

Kessinin qeyri-adi şəhidliyinə baxmayaraq, onun həyatı və ölümü – və onun «Bəli» sözü – heç vaxt nə Kolumbin orta məktəbinin tələbələri tərəfindən, nə də həqiqətən, onun qısa həyatı haqqında oxuyan şəxslər tərəfindən unudulmayacaq.

Biz Allaha inanırıqmı? Bəli, Kessi. Çox sağ ol.

*Qoşen, Konnektikut*
*İyul, 1999*



# Çərşənbə axşamı

Bəzən ildırım açıq səmada çaxacaq;
Bəzən də dinc ailə başına
Dəhşətli bir hadisə gələcək
Nə qasırğa haqqında xəbərdarlıq edilmədən
Nə də zəlzələnin zəif təkanı hiss olunmadan
Həmin andan hər şey dəyişir.
Səma buludla örtülüb
Özünü ağlayaraq təmizləyə bilmir.
Lakin əsrarəngiz günəş batması da istisna
deyil.

**Corc Makdonald**

# 1. Çərşənbə axşamı

1999-cu il aprelin 20-si adi bir məktəb günü kimi başladı. Altıya on beş dəqiqə qalmış həyat yoldaşım Bred işə getdi və mən uşaqları oyatmaq üçün ayağa qalxdım. Yeniyetmələri yuxudan qaldırmaq həmişə kiçik bir döyüşə bənzəyir, amma həmin Çərşənbə Axşamı bu xüsusən çətin idi. Kessi ev tapşırığını çatdırmaq üçün çox gec yatmışdı və onun kitabları mətbəx stolu üzərində dağınıq vəziyyətdə idi. O pişik qutusundakı qumu da dəyişdirməli idi, və biz səhər yeməyinə tələsirdik ki, gecikməyək. Yadımdadır ki, mən ona məktəbə getməzdən əvvəl etməli olduğu şeylər haqqında öyüd-nəsihət verməməyə çalışdım. Səkkizə iyirmi dəqiqə işləmiş Kris sağollaşaraq məni öpdü və ya hər halda (bir az) yanağını uzatdı, hansı ki, son vaxtlar bu bir adət halını alıb (onun 15 yaşı var) çünki, gecikirdi və pilləkənlərlə aşağı düşüb evdən çıxdı. Kessi qapının ağzında dayandı ki, Dok Martindən olan yağışlı havada və günəşli gündə də, donları ilə də geyindiyi sevimli qara məxmər ayaqqabılarını geyinsin, sonra bel çantasını qapdı və qardaşının dalınca evdən çıxdı. O, evdən çıxanda həmişəki kimi mən məhəccərin üstündən əyildim və: «Sağ ol, Kess, səni sevirəm» dedim.«Mən də səni sevirəm» deyə qarşılığında mızıldandı. Sonra o, arxa bağın içindən, hasarın ətrafından və futbol meydançasının ortasından, cəmi 100 metr uzaqlıqda olan məktəbə getdi. Mən geyindim, özümə bir fincan qəhvə hazırladım, qapını kilidləyib işə getdim.

Nahar vaxtına yaxın mənə zəng gəldi, dostum Çarli məktəbdə olan atışma haqda nəsə eşidib-eşitmədiyimi soruşdu. Mən eşitmədiyimi dedim. Mən həyəcanlanmamağa çalışdım: bunun səbəbi Kessi və Kris ilə əlaqəli olan bir məsələ olmadığını düşünməyim idi. Yəqin ki, bəzi uşaqlar maşın dayanacağında tutaşıb və ya Pirs küçəsindən atəş açaraq ötüb keçiblər. Digər tərəfdən mən və yoldaşım Val yerli marketdən nahar götürmüşdük və yeməyə hazırlaşırdıq. Bundan başqa, mən Kolumbini təhlükəsiz məktəb hesab edirdim. Belə deyildimi?... Mən Bredə onun məhz nə isə eşidib-eşitmədiyini bilmək üçün zəng vurmaq qərarına gəldim.

Bred işi tez tərk edib evə xəstə gəlmişdi, mən zəng vuranda o, evdə idi. O, dəstəyi qaldırdıqda mən eşitdiklərim haqqında ona dedim və o, elə indicə iş yoldaşından, Ketidən eyni xəbəri aldığını söylədi. Bred həmçinin çöldə bir neçə şaqqıltı səsi və bir-iki gurultulu partlayış eşidib, o qədər də maraqlanmamışdı. Nahar vaxtı idi və həmişəki kimi uşaqlar məktəb ərazisində qaçırdılar. Yəqin ki, bir neçə şit zarafat edən uşaqlar yalançı partlayıcılar yandırırdılar.

Mən zəng edəndən sonra, Bred ayaqqabılarını geyindi, arxa həyətə keçdi və hasarın üstündən baxdı. Hər yerdə polislər vardı. Evə gələn kimi televizoru yandırdı və çalışdı ki, xəbərlər bülletenini ötürməsin. Çox keçmədən, ilk canlı reportaj yayımlandı. Birdən televizorda gördüyünü və daha əvvəl eşitdiyini fikrində cəmləşdirdi sonra bunun zarafat olmadığını başa düşdü:

> Gözlərimi televizora zilləsəm də, mən divanın küncündə diz çökdüm və Allahdan bütün bu uşaqların qayğısına qalmasını dilədim. Təbii ki, mənim fikirlərim uşaqlarımız Kessi və Krisə yönəlmişdi, amma eyni zamanda qəlbimin dərinliyində mən əmin idim ki, onların hər ikisi qaydasındadır. Deyirlər ki, sənə yaxın olanların başına bir iş gələcəyini qabaqcadan hiss edirsən, lakin, mən hiss etmirdim.

Növbəti 36 saat əsl cəhənnəm kimi idi. Kolumbinə gəldiyim vaxtdan artıq yüzlərlə ümidsiz valideyn və qohumlar, polislər, partlayış üzrə xüsusi bölmələr, müxbirlər və kənardan seyr edənlər məktəb ərazisində yerləşmişdilər və burada tamamilə bir dəhşət hökm sürürdü.

Vəziyyətin ciddiliyini anlamadığımız üçün kifayət qədər sübutlar meydana çıxmışdı, amma təfsilatlar bir-biri ilə uzlaşmırdı, belə ki, təkzibedici və qarışıq idi. Bir şeyi dəqiq bilirdik ki, şəxsiyyəti müəyyən olmayan iki silahlı adam məktəbdə azğınlıq edir, tələbələri güllə ilə biçir və lovğalıqla dəli kimi dolaşırdılar. Hamı dəhşətlə kimi isə axtarır, insanlar ağlayır, dua edir, bir-birini qucaqlayır və keyləşmiş halda durur, ətrafda baş verən tam bir qatma-qarışıq səhnəyə mat qalaraq tamaşa edirdilər.

Uşaqları Kolumbində olan ailələr onların təhlükəsizliyi haqda polisdən xəbər alana qədər yaxınlıqdakı Livud ibtidai məktəbinə aparılmışdılar; digərlərimiz isə Livuda daha adam yerləşmədiyindən şəhər kitabxanasının yanında ilişib qalmışdıq.

Ora döyüş meydanına bənzəyirdi. Çox keçmədən yaralıların və sağ qalanların siyahısı çap olunur və paylanırdı. Hər dəfə növbəti siyahı gələnədək mən bir tələbə dəstəsindən digərinə təngnəfəs qaçır və onlardan kiminsə Kessi və Krisi görüb-görmədiyini soruşurdum. Şübhəsiz ki, məktəb ərazisini axtarmaq mümkün deyildi. Bütün məktəb ərazisinə giriş qadağan olunmuşdu və fövqəladə hadisə üzrə xüsusi təyinatlı silahlı dəstə tərəfindən əhatə olunmuşdu.

Günortadan əvvəl Krisdən xəbər çıxdı; o, məktəbin yaxınlığında olan qonşularımızın evində canını qurtarmış və nəhayət ki, evdə telefonun yanında oturan Bredlə danışa bilmişdi. Bred mobil telefon vasitəsilə mənimlə əlaqə saxladı. Dərhal mən rahat nəfəs aldım: Şükür Allaha; biz indi yalnız bir uşağı axtarmalıyıq. Lakin bu yüngüllük bir-iki saniyədən çox çəkmədi ki, mənim fikrim Kessiyə qayıtdı. Mənim qızım haradadır?

Atışma nəticəsində yaranan qarmaqarışıqlıqdan dərhal sonra qaçaraq canını qurtarmış yüzlərlə tələbələrin avtobuslara yerləşdirilərək təhlükəsiz yerə aparıldığına baxmayaraq, Kris kimi qaçıb uzaqlaşanlar da vardı. Bəzi hallarda onların yerləşdiyi yerin müəyyən olunması saatlar çəkirdi. Yaralılar təcili yardım maşınlarında sürətlə aparılırdılar, onların çoxunu tanımaq olmurdu, onlarla uşaq isə binanın hər yerində, şkaf və sinif otaqlarında saatlarla gizlənmişdilər. Bəziləri, sonradan bizə aydın olduğu kimi, çoxlu qan itirdiklərinə görə ölümcül vəziyyətdə sərilib qalmışdılar.

Saat beş radələrində şəhər kitabxanasında hələ də uşaqlarından xəbər gözləyən bizlərə deyildi ki, sonuncu avtobus məktəbdən yola düşüb və biz onu qarşılamaq üçün Livuda getməliyik. Bir müddət əvvəl mənə qoşulmuş Bred və Kris ilə dərhal maşına atılıb bacardığımız qədər sürətlə məktəbə tərəf yollandıq.

Gedəcəyimiz yerin bir neçə kvartal aralıda olmasına baxmayaraq, bu dəhşətli bir maşın sürmək idi. Demək olar ki, məktəbə yaxın hər bir küçə barrikadaya alınmış və nəqliyyat üçün boş qalmış digər küçələr isə, televiziyanın iri maşınları və Denverin hər bir mətbuat kompaniyasına aid furqonları ilə tutulmuşdu. Başımızın üstündə televiziya vertolyotları guruldayır, qarşımızda və arxada həyəcan siqnalları fəryad edirdilər. Mənim ürəyim o qədər bərk döyünürdü ki, bu həyəcana çətinliklə dözürdüm.

Axır ki, Livuda çatdıq. Maşından düşən kimi küçənin sonundakı bir yola, sonra digərinə baxmaq üçün boylandım. Avtobus yox idi. Biz gözləyirdik. Dəqiqələr keçirdi, biz küçəni tez-tez yoxlayırdıq. Hələ də avtobus yox idi. Birdən anladıq: «sonuncu avtobus»

gəlməyəcək. Mən sözlə ifadə olunmayacaq dərəcədə özümdə deyildim. Bundan əvvəl mən nəyəsə ümid edirdim, bəs indi necə? Mən özümü aldadılmış hiss edirdim. Bəlkə də, qəsdən deyil, lakin buna baxmayaraq, aldadılmış hiss edirdim və bu o qədər kəskin idi ki, az qala nəfəsim tutulurdu.

Həftələr sonra xəbər tutduq ki, polis artıq həmin axşam saat səkkizə qədər bütün itkin düşənlərin öldüyündən əmin idi; çünki, onların hamı haqqında məlumatı vardı. Onların dəqiq sübutları olmadığından, bu xəbəri bildirməmişdilər və buna görə, mən saman çöpündən yapışmaqda davam edirdim. Bəlkə, o, haradasa gizlənir – deyə özümü inandırmağa çalışırdım. O, həmişə fərasətli idi və ola bilərdi ki, yaxşı bir yer tapmışdır. Mən sadəcə olaraq ümid edirdim ki, o, zərər çəkməyib. Ya da, heç olmazsa ölməkdənsə, zərər çəksə daha yaxşıdır. Əgər o yaralıdırsa, hər halda ona yardım oluna bilər. Amma o, səhərə qədər və ya heç olmazsa, kimsə onu tapana qədər dözməli idi. Ümid həqiqətən, hətta nazik bir saman çöpüdürsə belə, səni bu cür böhrandan keçirən yeganə şeydir.

Saat onun yarısı idi və mən bu gərginliyə daha dözə bilmirdim, polis heç bir yeni məlumat vermədiyinə görə Bred və mən evə getmək qərarına gəldik. Bu o demək deyildi ki, biz təslim olurduq; heç də belə deyildi. Amma gecənin qalan hissəsini Livud yaxınlığında qalmağın mənası nə idi?! Evə qayıdan kimi Bred həyətimizdəki bağ anbarının üstünə dırmaşdı. O, məktəbdə nə baş verdiyini şəxsən görmək istəyirdi:

> Anbarın damında duraraq bütün məktəbi görə bilirdim. Binokldan istifadə edərək, hətta kitabxana pəncərəsindən düz içərini görürdüm. ATF*-çilərin mavi gödəkçələrinin üzərinə həkk olunmuş sarı rəngli hərfləri görə bilirdim; onlar nəyi isə axtarır kimi başı aşağı burada gəzişirdilər. Doğrusu onların nə etdiklərini görə bilmirdim, amma hesab edirəm onlar meyitlərin üzərindən addımlayaraq partlayıcı axtarırdılar. Daha sonra biz eşitdik ki, onlar çoxlu sayda bomba tapıblar.

On birin yarısı və on bir radələrində məktəb tərəfdə bir partlayış oldu. Biz tələsik pilləkənlərlə Kessinin yataq otağına qalxdıq ki, pəncərəsindən, alov və ya tüstü, nəsə görə biləcəyikmi, amma

---

* spirtli içki, tütün və odlu silahlar üzrə büro.

heç nə görmədik. Qaranlıq idi və Pirs küçəsində polis maşınları ilə yanğınsöndürən maşınlarının zəif qırmızı və göy işıltısından başqa heç nə görünmürdü. Yəqin ki, bu bomba partlayışı idi. Mən qorxudan və dəhşətdən əsirdim. Bəlkə, Kessi hələ sağdır?

Tədricən yorğunluq mənə üstün gəldi və mən çalışdım ki, gedib yatım. Bu mümkün deyildi. Hər dəfə gözlərimi yumanda yeni bir qarabasmadan diksinib oyanırdım. Mən təkrar-təkrar Kessini görürdüm. Kessi bir otağa qısılıb, oradan çıxmağın təhlükəsiz olub-olmadığını bilmək istəyir; soyuq Kessi hər hansı bir dəhlizin döşəməsində uzanıb, qan itirərək ölür; Kessi köməyə çağırır və onu sakitləşdirən yoxdur. Mən necə də ona sarılmaq, başını tumarlamağa, bədənimlə onu bürüməyə, qucaqlamağa, ağlamağa, gülməyə, onu özümə möhkəm sıxmağa can atırdım! Onun yoxluğunun iztirabı və otağının boş olması demək olar ki, dözülməz idi.

Mən Kessinin yatağından yastığını götürmüşdüm, gözümdən yaş gəldiyinə görə onu bərk-bərk qucaqladım və üzümü onunla örtdüm və onun ətirini nəfəsimə çəkdim. Kessinin ətri. Mənim balamın ətri. Mən bu qədər çox və ya bu qədər bərk ağlamamışdım.

Axır ki, səhər dördün yarısına yaxın yataqdan qalxdım və əynimi geyindim və Bred mənimlə birlikdə Polk küçəsi ilə aşağı ilk sahə polis maşınının dayandığı tinə düşdü. Sürücünün bizə yeni xəbərlər verə biləcəyini düşünərək ona bir neçə konkret sual verdik, amma o burnunun altında nəsə dedi. Nəhayət, Bred dedi, «Bax, bizə düzünü de. Bizim əsasımız var ki, qızımızın hələ də məktəbdə olduğuna inanaq. Orada sağ qalan kimsə varmı?» Sürücü cavab verdi: «Yaxşı, sənə açıq deyəcəm. Orada qalanlardan heç kim sağ çıxmayıb.»

Vəziyyətin ümidsiz kimi göründüyü halda da, mən bundan sonra, hələ də təslim olmağa hazır deyildim. Mən Bredə dedim, onun hər hansı bir divar şkafında gizləndiyinə və ya xəstəxanada hesaba alınmayan yaralılardan biri olmasına şans var. Kim bilir?! Onlar düşünürlər ki, düzgün faktları var, amma bu hələ o demək deyil ki, onlar düzdür.

Artıq iyirmi iki saat keçmişdi, Cümə Axşamı səhər saat ikiyə yaxın axır ki, ümid şamım söndü. Telefon zəng çaldı, cinayət işləri üzrə araşdırma idarəsindən bir qadın bizə dəhşətə gətirən xəbəri dedi. Eşitdiyimiz xəbəri gözlədiyimizə baxmayaraq, dəhşətə gəldik. Kessinin cəsədi onlarda idi. İndi edəcəyim bir şey qalmamışdı, yalnız, qızımızın həqiqətən həmişəlik getməsi, heç vaxt evə, yenidən yanıma qayıtmaması ilə razılaşdım. Axı ana bunu necə qəbul edə bilərdi? Mən əvvəl heç vaxt ağlamadığım kimi yenidən ağladım.

∗ ∗ ∗ ∗

İndiyəcən eşitdiklərimə əsasən belə olmuşdu: ev tapşırıqlarını yerinə yetirmək üçün Kessi çiynində bel çantası ilə – Makbes kitabı üzrə İngilis dili dərsindən növbəti ev tapşırığını yerinə yetirmək üçün – orta məktəb kitabxanasına daxil olarkən səhər təxminən saat on ikiyə on beş dəqiqə işləyirdi. Yaxın dostu Kristal da kitabxanada idi:

> Sara, Ses və mən adi günlərdə olduğu kimi kitabxanaya təzəcə gəlmişdik. Bəlkə, beş dəqiqə olardı, biz oradaydıq ki, müəllimə qaçaraq və dəhlizdə silahlı uşaqların olduğunu deyərək, qışqırıqla içəri girdi. Birinci biz belə düşündük: «Bu bir zarafatdır, buraxılış sinfi şagirdlərinin zarafatıdır». Ses dedi, «Rahat ol, bu sadəcə peynt boldur*». Sonra biz atəş səsləri eşitdik, əvvəlcə aşağı dəhlizdə, sonra isə səslər getdikcə daha da yaxınlaşırdı. Missiz Nilson yanımızda qışqırırdı ki, stolların altına girək, amma heç kim ona qulaq asmırdı. Sonra bir uşaq içəri girdi və yerə yıxıldı. Onun bütün çiyni qan içində idi. Biz tez stollarımızın altına girdik. Bu vaxt Missiz Nilson telefonun yanında duraraq, 911-ə zəng edirdi. O qədər bərk titrəyirdim ki, Ses bir əli başımda məni qolları ilə özünə sıxdı və Sara da ayaqlarımdan tutaraq bizimlə aşağıya qısıldı. Sonra Erik və Dilan atəş aça-aça və «Bütün həyatımız boyu bunu etməyi gözləmişik» deyib hər atəşdən sonra sevinərək kitabxanaya daxil oldular.
>
> Mən onları heç tanımırdım – onların adlarını yalnız sonradan öyrəndim – amma onların səsi qorxulu və kinli səslənirdi. Eyni zamanda onlar elə xoşbəxt görünürdülər ki, elə bil, oyun oynayırdılar və bundan böyük həzz alırdılar. Sonra onlar bizim stolumuza yaxınlaşdılar və stula zərbə vurdular. O mənim ayağıma və sonra Saranın başına dəydi. Onlar düz bizim üstümüzdə idilər. Çətinliklə nəfəs ala bilirdim, çox qorxurdum. Sonra onlar qəfildən otağı tərk etdilər, bəlkə, silahları yenidən doldurmaq üçün. Bizə elə gəlirdi ki, onların gülləleri qurtarmışdı. Biz ona görə qaçdıq. Biz sürətlə kitabxananın yan qapısından, ehtiyat çıxışdan, məhz onlar içəri girməmiş çıxdıq.

* içi boya ilə doldurulmuş xırda diyircəklərin oyuncaq silaha yüklənərək oynanılması.

Kristal atəş açanlar içəri girən dəqiqə Kessinin izini itirdi, onun nə etdiyi haqda ziddiyyətli ehtimallar var. Bir tələbə onu stolun altında əllərini sıxaraq dua etdiyini xatırlayır; digəri isə deyir ki, o, oturub qalmışdı. Hadisədən bir neçə həftə sonra mənimlə danışan, ikinci kurs tələbəsi Coş, onu heç görməmişdi, amma təxminən iyirmi beş addım aralıda, partanın altına əyiləndə nə eşitdiyini heç vaxt unutmayacağını deyirdi:

> O uşaqlar Kessiyə yaxınlaşanda mən heç nə görə bilmədim, amma onun səsini tanıya bildim. Mən hər şeyi eşidə bilirdim, elə bil ki, düz mənim yanımda idi. Onlardan biri Kessidən Allaha inanırmı deyə soruşdu. O, dayandı, sanki, nə deyəcəyini bilmirdi, sonra da «hə» dedi. O, qorxmalı idi, amma səsi titrək deyildi, qərarlı səslənirdi. Ona cavab vermək şansı belə vermədən niyə inandığını soruşdular. Sadəcə onu güllələdilər.

Coş deyir ki, oğlanların sual vermək tərzi onda Kessinin açıqca dua edib-etmədiyinə maraq oyatdı.

> Mən başa düşmürəm axı niyə onlar bu sualı dua etməyən bir kəsə versinlər. Bəlkə, o, onlarla danışmış ola bilərdi, amma çətin ki. Mən bilirəm ki, onlar kitabxanada olduqları bütün vaxtı danışırdılar. Onlar Ayzeanın üstünə getdilər və onu ələ saldılar. Onu öldürməmişdən əvvəl «qara dərili» adlandırdılar. Sonra gülməyə və alqışlamağa başladılar. Bu onlar üçün böyük bir oyun kimi idi. Onlar otağı tərk etdilər, beləliklə, mən qalxdım, dostum Brittaninin əlindən yapışdım və qaçmağa başladıq. Növbəti yadımda qalan şey onu qapıdan itələməyim və dalınca özümü çölə atmağımdır.

Növbəti gün gördüyümüz ilk məmurlardan biri kilsəmizin üzvü və Ceferson ərazisi üzrə polis departamentinin müstəntiqi Qari idi:

> Məktəbə çatdıqda onlar bizi – müstəntiqlərdən ibarət yeddi komandaya böldülər. Öldürülən qurbanların hamısı bütün gecəni orada qalmışdı, çünki, tədqiqatçılar sübutları toplamamışdan əvvəl hər şeyin sənədləşdirildiyinə əmin olmaq istəyirdilər. Kitabxanaya girən kimi Kessini gördüm. Mən dərhal onu tanıdım. O, stolun altında, digər qızın

yanında uzanmışdı. Kessinin başına çox yaxın məsafədən atəş açılmışdı. Daha doğrusu, güllə yarası göstərir ki, silahın ağzı onun dərisinə söykənmişdi. O, özünü qorumaq üçün əllərini yuxarı qaldırmış ola bilərdi, çünki, onun bir barmağının ucu üzülmüşdü, ancaq onun bundan artığını etməyə vaxtı ola bilməzdi. Bu atəş onu elə o an bu həyatdan apardı.

∗ ∗ ∗ ∗

Aprelin iyirmisi ilə indiki vaxt arasındakı müddət hər keçən günlə daha da uzanır, amma təfərrüatlar yaddaşdan silinmək istəmir. Bəzən surətlər elə açıq üzə çıxır ki, elə bil hər şey dünən baş verib. Həkimlər deyir ki, beyin ağrını unudur, qoy belə də olsun. Lakin mən əmin deyiləm ki, ürək unudur. Bizim yaddaşımızda da təsəlli verən bir şey axtarılsaydı, bunlar Kessinin həyatının son həftəsi ərzində bizi ailə kimi bir araya gətirən xoşbəxt, sadə şeylər ola bilərdi. Həqiqətdə baş verməsinə baxmayaraq, qəribə də olsa, bu şeylərdən yapışmaq təsəllivericidir və onları yenidən yada salmaq rahatlıq verir.

Bir neçə həftə əvvəl Bred və mən uşaqları yaz tətilinə, xizək kurortu yaxınlığındakı Brekenricə aparmışdıq və hələ də istifadə olunmamış biletimiz qalmışdı, ona görə qərara gəldik ki, Kessi və Kris məktəbdən icazə alsınlar (heç vaxt belə etməmişdik) və bileti istifadə etmələrinə icazə verək. Budur, Cümə Axşamıdır, biz Brekdəyik və mən onların öz snoubordlarını götürərək birlikdə evdən çıxdıqlarını görürəm və o zaman ağlımdan belə fikirlər keçir ki, qardaşlarım və mən heç vaxt belə etməmişik; və öz uşaqlarının nəinki yaxın, hətta bir-biri ilə yola getmələri ilə yanaşı hər ikisinin də sevdiyi məşğuliyyətdə bir yerdə olmalarından zövq almaları necə də təsirlidir.

Cümə günü onlar məktəbə qayıtdılar, şənbə günü isə məktəbi qurtarmaq münasibətilə bal gecəsi keçirilirdi. Nə Kessinin, nə də dostu Amandanın birlikdə gedəcəkləri oğlanları yox idi, amma hər iki qız necə olursa olsun yaxşı vaxt keçirmək qərarına gəlmişdilər:

Biz şənliyə oğlan dostumuz olmadığına görə getmədik, çünki, bizim bəxtimiz gətirmir. Amma, anamın işlədiyi ofis həmin gecə Mariotda* böyük banket keçirirdi, beləliklə,

* Məşhur restoran.

Kess və mən qərara gəldik ki, paltarlarımızı dəyişək, saçımızı düzəldək, bəzənək və əvəzində oraya gedək. Biz əla vaxt keçirdik.

Şənbə gecəsinin sonunda Kessi Mariotdan mənə zəng edərək, Amanda və onun anası Cill ilə necə gözəl vaxt keçirdiyini və evə dəyərək məktəbdəki bal gecəsindən sonrakı qonaqlığa getməyi planlaşdırdığını dedi. Bildiyimə görə növbəti şey o idi ki, Kess evin içində Amanda ilə dayanmadan səs-küy salır, yeni paltar dəstlərini axtarırmış kimi siyirtmələri şaqqıldadır və deyirdi ki, necə keçəcəyindən əmin olmadıqlarına görə evə tez qayıdacaqlarını düşünür. Sonra məlum oldu ki, o, səhər saat altıda evə qayıtmışdı.

Adi bir Bazar Ertəsi idi. Kessinin ev tapşırıqları yığılmışdı və xeyli çalışmaları qalmışdı, çünki, bütün həftə sonu əylənmişdi. Adətən, o, mənim dostlarımın uşaqları üçün müvəqqəti dayəlik edərdi, amma bu həftə onların Kessinin köməyinə ehtiyacı yox idi. Ona görə də biz hamımız birlikdə yemək yedik, ailəmiz üçün qeyri-adi olmasa da, demək olmazdı ki, biz bunu hər axşam edirdik. Şam yeməyindən sonra o, ev tapşırıqlarını etməyə başladı və gec yatdı.

Kessinin həyatının sonuncu axşamına dönüb baxanda, onu hələ də mətbəxdə oturan görürəm. O, hələ də ev işlərini etməmişdi və mən əminəm ki, bununla onun zəhləsini tökmüşdüm. İndi o yoxdur və bunu qəbul etmək mənə əzab verir. Həmçinin, bizim münasibətlərin ümumən gözəl olmasına baxmayaraq, nə həmin gecə, nə də başqa bir vaxt ideal olmadığını sonradan etiraf etməyim də əzablıdır. Ancaq artıq olmuş şeyə görə əzab çəkmək çox gecdir.

Bizim Kessini itirməyimizin ən acı istehzası odur ki, iki il yarım bundan əvvəl onu başqa məktəbin doqquzuncu sinfindən çıxararaq çətin vəziyyətdən xilas etməyə çalışmasaydıq, indi o, Kolumbin məktəbində olmazdı. Əlbəttə, o zaman bizim münasibətimiz bərpa olunmayacaq dərəcədə pozulmuşdu və onu hər dəfə məktəbdən götürüb sağ-salamat evə çatdırmaq kiçik bir qələbə kimi görünürdü, onu ailə ilə birgə yemək üçün və ya ev tapşırığı etmək üçün stol arxasında oturtmaq daha böyük bir qələbə idi. Lakin bu haqda növbəti fəsildə danışacağıq.



# Atasının qızı

Çox şeylər gözləyə bilər.

Amma uşaqlar gözləyə bilməz.

Bu gün onların sümükləri formalaşır, qanı artır,

Onların hissləri inkişaf edir.

Onlara biz «sabah» deyə bilmərik.

Onların adı bu gündür.

**Qabriela Mistral**

# 2. Atasının qızı

Kessi 1981-ci il noyabrın 6-sı, on yeddi ildən sonra dəfn etdiyimiz yerdən təqribən 10 km aralıda anadan olmuşdu. Bizim ilk övladımız olan Kessi, məndə, hətta ən laqeyd qadını parlaq anaya çevirəcək bir təbii sevgi yaratdı. Bundan da qeyri-adisi odur ki, o, Bredin də həyatını başdan ayağa dəyişdi. Buna oxşar bir məsəl var ki, bəzi oğlanlar birinci evlənirlər, uşaqları olur və sonra eşqə düşürlər. Əgər başqalarında bu belə olubsa, deməli bu mütləq Breddə də olub. Amma qoy bu haqda o özü danışsın:

Misti və mən 1980-ci ilin Avqustunda evlənmişik və birgə həyatımızın üçüncü ayından sonra onun dilində yalnız bir söz vardı: uşaq. O, doğrudan dəhşətli dərəcədə uşaq istəyirdi. Mən ailə sahibi olmazdan qabaq bir və ya iki il ər-arvad kimi birgə əyləncəli həyat yaşamaq istəyirdim. Amma onun Kessiyə hamilə olduğunu – toyumuzdan altı ay sonra – qəfildən bildik. Mən ilk övladlarını gözləyən gördüyüm çox kişilər kimi həyəcanlı deyildim. Düzünü desəm, hətta bir az dilxor olmuşdum, çünki, mən bir çox başqa şeylər etmək istəyirdim lakin indi uşağı gözləməliydik.

Mistinin hamiləlik dövrü olmasına baxmayaraq, mənimlə dolanmaq onun üçün çətin idi, çünki, tez-tez onun hisslərinə toxunurdum. Keçmişə baxanda görürəm ki, mən demək olar ki, onu özümdən uzaqlaşdırırdım, çünki, onun niyə əvvəlki kimi olmadığını, niyə yorğun olduğunu, niyə hər yerdə uzanmaq istədiyini (mənim düşündüyümə görə), niyə özünü pis hiss etdiyini anlaya bilmirdim. Mən olduqca laqeyd olmuşdum.

Sonra Kessinin anadan olduğu gün gəldi və mən onun bətndən çıxışını gördükdə – o an – özümü təptəzə, tamamilə fərqli bir şəxs kimi hiss etdim. Qəfildən mən körpə qızıma və həyat yoldaşıma vurulmuşdum. Hər şey fikrimdə cəmləşdi və Mistinin nələrdən keçdiyini başa düşdüm və ona belə çətin anlar verdiyimə görə özümü pis hiss etdim.

O, körpə uşaq elə heyrətamiz idi! Onun üçün hər şey etmək istəyirdim. Mən tez-tez ona toxunmağı və onun kiçik yumşaq yanaqlarını və çiyinlərini oxşamağı və öpməyi xoşlardım. Hətta onun ilk bezini mən dəyişmişdim. Nədənsə, bu tibb bacılarını təsirləndirdi və onlar gedib üzərində «mükəmməl atanın şərəfinə» sözləri yazılmış qızıldan kiçik bir nişan gətirib köynəyimin yaxasına taxdılar. Həmçinin ən sonda Kessinin tabutunun qapağını bağlayan da mən oldum. Mən istəyirdim ki, həmin şəxs özüm olum. O, iməkləyəndə, mən nə vaxt evdən çıxsaydım arxamca sürünməyə çalışardı və gedəndən sonra qapının ağzında ağlayar və qışqırardı. O, mənim getməyimi görmək istəmirdi və mən də həmçinin onu tərk etməyə nifrət edirdim. O vaxt mən gündə on iki saat, hətta həftə sonları da Martin-Mariettada işləyirdim və demək olar ki, onu istədiyim qədər görə bilmirdim.

Sonrakı illərdə bizim başqa bir səhər adətimiz vardı: mən işə getməmişdən əvvəl altının yarısına yaxın onu yuxudan oyadardım. O, yorğanına bürünmüş olardı və mən onu öpər, qısa sabahın xeyir mahnısı oxuyar və «Yaxşı gün olsun, Kessi, axşam görüşərik.» deyərdim. O, əsnəyər və «Yaxşı, ata» deyərdi.

Kessi və mən birlikdə olmağı xoşlayırdıq. Mən əllərim və dizlərim üstə durardım və biz evin içində iməkləyərək bir-birimizin dalına düşərdik. Mən onun kiçicik ayaqlarını tutar və onu özümə tərəf dartardım və o, təkrar-təkrar qaqqıldayardı. O, düşünürdü ki, bu çox əyləncəlidir. Biz ona kiçik qırmızı araba – Reydio flayer – aldıq, onu ətrafda sürmək üçün istifadə edirdim və bu onun ən çox xoşladığı şey idi. O, sadəcə həmin arabanı sevirdi.

Kessi altı aylıq olanda mən onu motosikletimdə şəhərdən kənar gəzintiyə aparmağa başladım. Mən təhlükəsizlik kəmərlərimizi bağlayardım və biz gedərdik. Mən onu bir neçə böyük təpəyə apardım – yəqin bunu etməməliydim – amma bu onun xoşuna gəldi. Gəzintinin sonuna yaxın o, adətən, başını qoluma söykəyərək yuxuya gedərdi. Biz beləcə bütün yolu atılaraq hərəkət edərdik.

Misti həmişə uşağı gəzintidə zədələyərəm deyə narahat olurdu, amma buna baxmayaraq, çox sonralar bir dəfə belə də oldu. Kessinin təqribən beş, Krisin isə üç yaşı vardı və

ikisini də motosikletə oturtdum. Kris qarşımda benzin çəninin üstündə; Kessi arxamda idi. Palçıq idi və biz çox yavaş-yavaş gedirdik. Mən müvazinəti saxlayaraq hər iki ayağımı kənarda tuturdum. Biz bu natəmizliyin içindən yavaş-yavaş keçirdik və düşünürəm ki, biz peyin yığınına dəydik. Qəfildən arxa təkər kənara sürüşdü, motosiklet aşdı və biz hamımız yıxıldıq. Kris üzü üstə palçığa düşdü və Kessi motosikletin dəmirinə dəyərək topuğunun üstündən zədə aldı.

Sonra mən onları palçıqdan çıxartdım və ayaqları üstündə duranda gördüm ki, Kessi gülməli bir vəziyyətdə dayanıb. O, ağlamırdı və ya özünü zədələnmiş kimi aparmırdı, mən onun şalvarının balağını bir az qaldırdım və gördüm ki, onun ayağı əyilib. Onun ayağını sındırmışdım. Mən heç vaxt özümü bu qədər dəhşətli hiss etməmişdim; bu sadəcə mənim ürəyimi sındırdı, belə ki, mən uşaqların hər ikisini də palçıqlı və necə varsa eləcə götürdüm, bütün yolu – bu bir neçə məhəllə olmalıydı – Rik və Lorinin evinə qaçdım. Onlar bizim dostlarımızdır. Lori Krisi götürüb vannaya qoydu və onu təmizlədi və Rik məni və Kessini yerli təcili yardım mərkəzinə apardı, biz orada onu rentgenə saldıq (onun ayağında iki sümük sınmışdı) və ona sarğı qoydular. Bu bir dəhşət idi.

Misti maşınla bizi təcili yardım otağında qarşılamağa gəldi və gələn kimi ağlamağa başladı. Kessi ona baxdı və dedi: «Ana, ağlama. Mən sağalacam.» Buna baxmayaraq, sonralar, Kessi o qədər ağrı çəkirdi ki, biz bütün gecə boyu onunla otururduq.

Bir lətifə mən xatırlayanda Bred bir neçəsini xatırlayırdı. Kessinin əvvəl Tayqer adlı kiçik bir zolaqlı pişiyi vardı ki, onu hər yerə daşıyırdı və sonra isə Cenka – Bredin bir Pasxada aldığı çöl ördəyi balası – böyüdü və həyətdə gəzişən gözəl bir yaşlı ördək oldu. Bizim həmçinin qarışıq qara Labrador, Skamperimiz var idi ki, Kris və Kessi onu at kimi minirdilər. Skamper burada uzanıb quyruğunu yelləyən kimi uşaqlar onu tutmaq üçün bir ovuc xəz qapır və atılıb-düşürdülər. Bred yaşadığımız evin zirzəmisinin təmirini qurtararkən onun mismarlarla dolu böyük bir qəhvə bankası qalmışdı ki, Kessi onu yerə dağıtmağı xoşlayırdı. Sonra bir qolunun üzərindən pişiyi ataraq aşağı əyilir və hər dəfə mismarın birini götürərək onları yenidən yığır və konserv bankasının içinə qoyurdu.

Sonralar, bağçaya gedəndə və ya birinci sinifdə oxuyanda, Bred onu riyaziyyatın əsaslarını öyrətmək üçün oturtdu – onu sıxmaq üçün yox, sadəcə, onun dərk etmək üçün nə qədər dərrakəli olduğunu görmək üçün. O, dəstin nə demək olduğunu başa saldı (o, diş çöplərini, çəngəlləri, bıçaqları və qaşıqları qruplaşdırdı) və Kessi, hər şeyi başa düşməklə bizi heyrətləndirdi. Bundan sonra onlar Kessinin birinci a-ları, sonra b-ləri, sonda isə c-ləri cəmləməsi ilə hərflərdən istifadəyə keçdilər.

Onun daim xoşladığı digər bir məşğuliyyət də üzgüçülük idi, ilk gündən biz onu həyətimizdə olan uşaq hovuzuna qoyduq. Bir yeniyetmə kimi, onun üzmək üçün ən çox xoşladığı yer Roki dağında təbii bulaqlardan doldurulan hovuzu olan bir şəhər, Qlenvud Sprinq idi.

Kessi balıq tutmağı və dağa qalxmağı xoşlayırdı, dağa qalxmaq ilə o təxminən üç il əvvəl dağlarda ailəvi səyahət zamanı maraqlanmağa başlamışdı. Xüsusən, o və Kris dağa qalxma təhlükəsizliyi dərsi alandan və Brekendricdəki mərkəzdən sertifikat alandan sonra bu onun sevimli məşğuliyyətinə çevrildi.

Kessinin uşaqlığına dönüb baxanda onda heç bir qeyri-adi şey görmürsən. Hər ananın uşaqlarının kiçik olduğu vaxta aid isti, yumşaq hissləri var. İndi o, yoxdur, buna baxmayaraq, mən uşağımla keçirə biləcəyim hər bir dəqiqənin əhəmiyyətini dərk etməyə başladım. Mən bilirəm ki, bu bir şablondur, amma hələ də bunda bir həqiqət vardır. Mətbəx qaydasız olanda, telefon zəng çalanda və uşaqlar mane olanda partlamaq ya hövsələdən çıxmaq və yaxud da dilxor olmaq asandır. Bu anlar qarşısıalınmazdır, amma sən bu arada öz uşaqların üçün vaxt ayırmalısan. Tanıdığın zirək balaca dörd yaşlının, gözünü qırpınca otaqda sənin varlığınla razılaşmayan bir qaşqabaqlı yeniyetmə olduğunu görəcəksən. Kessi yeniyetmə olarkən keçirdiyimiz çətinliklər zamanı xoşbəxt xatirələri yada salmasaydım, mən nə edərdim?! Biz sevgimizi yenidən aşkara çıxarmağa ehtiyacımız olan bir vaxtda xatirələri yada salmağa başladıq.

∗ ∗ ∗ ∗

Xatirələr bir şeydir, yuxular başqa bir şeydir. Mən pislərindən başlayacağam. Təxminən Kessinin ölümündən üç həftə sonra idi, Mayın əvvəlində, mən birinci dəfə yuxu gətiricidən istifadə etmədən yatağa girməyə çalışdım. Bu bir dəhşət idi, bütün gecə

bir əzabverici qarabasmadan sonra digəri gəlirdi. Birində isə mən onu xəstəxana arabasında başı və sinəsi sarğılı gördüm. O, gülür və onu daşıyan tibb işçiləri ilə danışır və onlara deyir ki, yaxşı olacaq. O, həqiqətən elə görünürdü ki, elə bil çətinliyin öhdəsindən gəlir. Növbəti bildiyim şey o idi ki, o, buna baxmayaraq, qəfildən öldü. Mən çətinliklə dözə bildim; mən onun yaşayacağına o qədər əmin idim ki…

Bir başqa yuxuda mən özümü Denverin təhlükəli bir hissəsində alış-veriş edərkən tapdım və həyəcan içində idim, çünki, tez Kessini buradan təhlükəsiz yerə çıxarmaq ehtiyacım vardı. Bir dəfə mən bu cür qarabasmadan ayıldım, yuxuya getmək demək olar ki, çətin idi və mən hansı vəziyyətin daha pis olduğunu götür-qoy etdiyimi gördüm. Fikirləşirəm qərara aldım ki, yuxusuzluq zərərin ən kiçiyidir oyanandan bəri heç olmazsa, Kessini istədiyim kimi təsəvvür edə bilirəm: hərəkətli, gözəl və canlı. Yuxularda özünü başına dirənmiş silahın ağzından qoruyanda onun üzü dəhşətdən əyilməyə meyl edirdi.

Hətta sən bu cür özünəməxsus qorxunun yalnız sənin xəyalının məhsulu olduğunu bildikdə belə, ona əhəmiyyət verməmək çətin olur. Məhz başqa gecə itlər nəyə görəsə narahat görünür, saatlarla susmaq bilmirdilər, mırıldayır, eyvanı pəncələri ilə döyür və var-gəl edirdilər. Mən məntiqi düşündüm ki, bu sadəcə dələ və ya qoxuya görə baş verirdi, amma mənim uzanmağım ürəyimin döyüntüsünü azaltmırdı, onları eşidirdim və kimsə evə yaxınlaşır deyə şübhələnirdim. Sən məktəbin sadəcə, arxa hasarın o tayında olduğunu biləndə və onlar Kessinin qatillərinin tək olmadıqları fərziyəsini irəli sürdüklərinə görə düşünürsən ki, görəsən buradan kənarda çoxmu Erik və Dilanlar var. Bəzən o qədər pis olur ki, mən özümü evi satmağa və daha yaxşı bir əraziyə köçməyə hazır hiss edirəm. Sonra məni hər şeyin yaxşı olacağına inandırmaq üçün Bred bütün nəvazişini sərf edir.

Mən eşitmişəm ki, ən pis qorxulara üstün gəlməyin ən yaxşı yolu onlarla üzləşməkdir. Son bir neçə həftədə iki dəfə bunu etməklə, düşünürəm ki, mən bununla razılaşmağa başladım. Nə qədər əzablı olsa da, irəlidə qarşılaşacağım vəziyyətin sərt reallığı ilə üz-üzə durmağın öz üstünlükləri var.

Birincisi, bizim qəbiristanlığa baş çəkməyimiz idi. Övladının məzara endirilməsini görməkdən daha iztirablı bir şey varsa, bu da o gündən sonra, gül dəstələri solandan və qohumlar getdikdən sonra oraya tək geri qayıdıb tək dayanmaq və ağlamaqdır. Bir anlıq

mən fikirləşdim ki, gərək gəlməzdim və o dəqiqə ölməyi arzu etdim ki, öz balamla ola bilim; sonra özümü topladım və inandırmağa çalışdım: sən onunlasan, o, səni burada görür, o, bilir ki, sən hələ də onu sevir və onun qayğısına qalırsan.

Qəbiristanlıqda səni təəccübləndirən həyatın vacib olmayan şeylərinin tədricən unudulmasıdır. Deyirlər ki, ölüm insanları bərabərləşdirən yeganə şeydir və həqiqətən də belədir. Yetmiş-səksən yaşlıların çoxunun arxada uğurlu ömürləri olmuşdur, halbuki, on səkkiz yaşlıların isə əksəri çox az uğurlar qazanmışdır. Kessi, hətta orta məktəbi belə bitirmədi. Səthi baxanda, həyatın uzunluğunun çox fərqi yoxdur. Deyəsən, Məzmurların birində belə deyilir: «Bax, bütün bəşər ota bənzər…» Bu sözləri xatırlayanda sülh tapıram.

Kessinin ölümündən sonra birinci dəfə Kolumbinə baş çəkmək fikri çox çətin ruhani maneə idi. Düz bizim evin arxasında olmasına baxmayaraq, istintaqın ilk həftələri məktəb mənə adi deyildi, zülmətə qərq olunmuş qala kimi görünürdü. Bəzən mən sadəcə bizim hasarımızın o tayında qırğın baş verdiyini təsəvvür edərək özümü az qala dəli olma dərəcəsinə çatdırırdım. Belə oldu ki, – mən özümü bəlkə də ən pisinə hazırladığıma görə – ozümü ələ ala bildim.

Bred və mən atışma mənzərəsini müşahidə edən ilk valideynlər idik. Bizim ərazi üzrə təyin olunmuş «zərərçəkənlərin nümayənd əsi» olan Reyçl və rəhbərlik edən müstəntiqlərdən ikisi də bizi müşayiət edirdilər. Hər yerdə güllə deşikləri, qan və səpələnmiş şüşə sınıqları var idi. Bombanın partladığı dəhliz və otaqlarda iri oyuqlar, sınmış mebel vardı, divarlar və döşəmənin çox hissəsi hisdən qaralmışdı. Bəzi yerlərdə, lüminafor lampalarının plastmas örtüklərinin ərimiş damlaları tavandan düşmüşdü və suçiləyici cihazların buraxdığı sudan iri, çirkli gölməçələr yaranmışdı.

Bizim dəhşətli səyahətimiz boyu mən şok içində çaşıb qalmışdım, yalnız çətinliklə nəfəs alır və gözümü çəkə bilmirdim. Buna baxmayaraq, sonradan mənə belə gəldi ki, artıq hansısa addımı başa vurdum. Bred kiməsə dediyi kimi «İndi Kessinin axır anlarında nə ilə üzləşdiyini bildiyimizə görə, xəyallara yer qalmadı. Bizim ağlımız bizi daha aldada bilməz.»

Hələ də bilmək arzusunu və narahatçılığı nə vaxtsa həqiqətən dayandırmaq qeyri-mümkündür. Kessinin xatirəsini anmaq üçün bizim kilsə tərəfindən şamlar, güllər, məktub, suvenir və hədiyyələrlə qalaqlanmış stollarla ağ bir çadır qurulmuşdu. Kimsə onun yanında böyük, sarı «gülər üz» şar qoymuşdu. Bir axşam Kris

bir neçə dostu ilə orada dururdu və gördü ki, kimsə qara marker götürmüş və şarın güllələnmiş kimi görünməsi üçün onun üzərində güllə çəkmişdir. İkrah hissi keçirən Kris şarı məhv etdi. Lakin biz bu hadisəni unutmamışıq. Necə unuda bilərik?

Kessinin ölümündən təxminən doqquz həftə sonra dostlarımız bir cavan adamla qarşılaşmışdılar. O, açıq qara rəngli plaş geyinərək, «13:2 hesabı ilə biz hələ irəlidəyik» yazılan köynəyi gözə çarpdırmaq üçün göstərirdi.

Kolumbindəki kimi dəhşətli faciədən sonra qonşuluğumuzda hələ də belə həyasızcasına qəddar ola bilən adamların olmasını bilmək məni qorxudurdu. Hamının zorakılıqdan canını qurtarması üçün axı nə qədər atışma olmalıdır?

Hər şeyə üstün gəlməkdə mənə kömək olan bir şey də bundan təkcə mənim əziyyət çəkmədiyimi özümə xatırlatmağım və mənim kimi mübarizə aparan başqalarına yardım etməyə çalışmağımdır. Kitabxanadan xilas olan, kifayət qədər özünə inamlı idmançı olan bir cavan oğlan, atışmadan bir aydan çox vaxt keçməsinə baxmayaraq, hələ də elə bil əsirdi. O, yad adamların gözünə baxa bilmir və danışanda əsəbi halda əllərini bir-birinə sürtürdü. Qonşu məhəllədə, hətta Kolumbində oxumayan on altı yaşlı boylu-buxunlu bir oğlan var idi, o da qarabasmalar görürdü, onlardan biri, iki silahlı adamın onun otağına girərək çarpayısının kənarında oturması idi. Qəzetlər yazır ki, ərazidəki bəzi qızların gecə o qədər çox narahatçılığı olur ki, öz analarından yanlarında yatmalarını xahiş edirlər.

Qəribədir ki, faciədə iştirak edənlərdən ən çox uşaqlar Bred və mənimlə əlaqə saxlayırdılar. Kessinin sinif yoldaşları, kilsədəki gənclər qrupundan dostları və başqaları bizim evimizə yemək yeməyə, söhbət etməyə, onu xatırlamağa və ya sadəcə qonaq gəlirdilər. Bəlkə də, ya bu bizim ümumi iztirabımızı bir-birimizlə bölüşməyimiz idi, ya da fərqli yollarla da olsa, hamımız eyni bir kədərdən keçərək ona qalib gəlmək istəyirdik. Hər nə olsa da, onların varlığı mənə gündəlik həyatımda heç bir yerdə tapmadığım sabitliyi və rahatlığı verir və bəzən özümü onların gəlişini xəbər verən qapı zəngini gözləyən görürəm.

∗ ∗ ∗ ∗

Mən dedim birinci pis arzularımdan yazacağam və belə də etdim. Yaxşıları isə – Kessi məzun olur, Kessi gəlinlik örtüyündə

sıralararası keçidlə irəliləyir, Kessinin öz uşaqlarının olması haqqında fikirləşməsi – bunu demək ağrılıdır, amma bu yavaş-yavaş dərinliyə varmağa başlayır – bunlar arzudan artıq bir şey olmayacaq. Sadəcə arzular.

Kessinin ölümündən bir neçə ay əvvəl biz kollec haqqında danışmağa başlamışdıq və onun Kembricə, İngiltərəyə getməyə və doğuma yardım edən həkim olmağa dair böyük arzuları vardı. Mən onun qədər sevinmirdim, xüsusilə, biləndə ki, bir nəfər üçün ancaq təhsil haqqı təxminən 30000 ABŞ dollarıdır. Mən ona dedim, «Bağışla, Kess. Qorxuram sən səhv bir ailədə anadan olmusan.» Amma o rəqəmlərin onu ruhdan salmasına imkan vermirdi. O, 1997-ci ildə Bredin bacısıgilə gedəndə İngiltərəyə vurulmuşdu və orada oxumaq qərarına gəlmişdi. Onun ailə qurması bizim arzumuz olduğundan, Bred ona sataşar və soruşardı, «Yaxşı, Kess, əgər sənin nə vaxtsa uşaqların olsa, sən onlara babaları ilə vaxt keçirməyə icazə verəcəksənmi? Mənim uşaqlarla necə rəftar etdiyim və xoşladığım şeyləri etdiyimi bilirsən.» Bu söhbət həmişə eyni yolla bitirdi: «Əlbəttə, Ata, amma mən heç vaxt ərə getməyəcəm. Mənim heç vaxt uşağım olmayacaq.»

∗ ∗ ∗ ∗

Deyirlər ki, məqsədsiz heç nə baş vermir – ya Kessi Allahdan gələn bir planı həyata keçirirdi ya da inandığı şeylərin arxasında duraraq, Allah tərəfindən Onun padşahlığını genişləndirməsi üçün istifadə olunurdu. Müəyyən dərəcədə mən bu fikirlərlə rahatlıq tapıram. Bunlar başqalarının «mənasız» faciə adlandırdığına məna verir və mənə xatırladır ki, qısa həyat yolu əbəs yerə sərf olunan həyat olmamalıdır. Bəzən, buna baxmayaraq, mən niyə bunun baş verdiyi barədə izahatları və şərhləri, öyrənilməsi dərsləri eşitməkdən yorulmuşam. Mən qəfildən, «Axı, niyə bu mənim qızım olmalı idi?» deməklə bunlara son qoymaq və Kessinin ölümü nə qədər əhəmiyyətli olsa da, mən hələ də onun yoxluğundan güclü əzab çəkdiyimi demək istəyirəm.

Bəzən mən Bredin bizimlə baş verənlərlə tez barışmasından məyus oluram və ona hirslənirəm. Axı, o necə belə asanlıqla bunun öhdəsindən gələ bilir? Bred deyir ki, Kessinin ölümü ilə barışıb və onun Allahla olduğunu bildiyindən rahatlıq tapıb. Bu o demək deyil ki, biz inam yolunda birlikdə addımlamırıq. Amma hisslər dəyişkəndir və hətta dua və zamanla onda olan eyni şəfanı alacağıma

əmin olduğuma baxmayaraq, mən tənhalıq, həssaslıq və kədər gətirən hisslərlə mübarizə aparıram. Mən hələ onun səviyyəsinə çatmamışam.

Əvvəl-axır mən hansı səviyyədə olmalıyam? Qızının dəfnindən aylar sonra, hər səhər ağlayaraq durmaq təbiidirmi? Kessinin ölümündən üç həftə sonra birinci dəfə alış-verişə gedəndə, axı niyə, mənə elə gəlirdi ki, 10 km məsafədə olan bütün hamilə qadınlar məhz orada idilər, analıq duyğumu oyadır və mənim sağalmamış kədərimi gücləndirirdilər? Mən belə dəyişkən olmuşam ki, Kessini bir anda unudur və sonra onun həsrətini çəkə bilirəm? Mən günümün yaxşı olacağını düşündüyüm vaxt mənasız şeylərin çoxu göz yaşı selinə səbəb olurdu.

Bunlardan biri qəfil ölüm şoku ilə üzləşməyimdir – məsələn, altmış-yetmiş yaşlarında öz valideynlərim üçün dəfn mərasimi planlaşdırmalı olduğun halda bunu otuz-qırx yaşlarında öz övladın üçün edirsən. Kolumbin haqqında xəbər çıxan dəqiqədən bu faciə milli xarakterli olmuşdu. Arasıkəsilməyən jurnalistlər, redaktorlar, fotoqraflara, hələ üstəlik başsağlığı verənlərə cavab vermək məni narahat edirdi. İlk dostcasına zəng edən yad xoşrəftar insanın zəngi rahatlığa müdaxilə etmək kimi görünmürdü, iyirmincisi zəng vuranda isə nə qədər nəzakətli olmasına baxmayaraq, telefonun dəstəyini atmaq istəyirsən. Hamı istəyir ki, sən qızın haqqında danışasan, amma sən sadəcə bacarmırsan.

Sonra, isə əksinə: həyat davam edəndə, sən anlayırsan ki, qulaq asacaq bir kimsəyə Kessi haqqında danışmağın inadlı arzusundasan. «Başa düşürsünüz, mən Kolumbində övladlarını itirən analardan biriyəm?» Hətta sən bilərəkdən öz fikirlərini gələcəyə yönəltməyə çalışanda belə, vəziyyət səni keçmişi yada salmağa məcbur edir. Digər analar öz ailəvi tətillərini planlaşdırarkən, mən səhərimi telefonda sahə müvəkkili ilə danışaraq keçirir, və ya məhkəmədən meyit yarmanı məxfi saxlamağı xahiş edirəm. Qonşuların qalanı qonaqlıqlara gedən vaxt mən axşamımı dəqiqlik üçün Kessinin ölüm şəhadətnaməsini yoxlayaraq keçirir («Ölümün səbəbi: qətl. Növü: başından tüfəng yarası» və s.) və Kris ilə payızda nə etməli olduğumuz haqda narahat oluram. Biz onu yenidən Kolumbinə göndərməliyikmi? Onu özəl məktəbdə qeydiyyatdan keçirəkmi? Evdə dərs deyən müəllim tutaq? Onun üçün ən yaxşısı nədir? Hansı ən təhlükəsizdir?

∗ ∗ ∗ ∗

Keçən gecə yatağıma uzanaraq, yüzüncü dəfə yuxuya getməyə çalışanda, fikirlərim 20 Aprelə qayıtdı. Mən daim Kessinin son dəqiqələri haqqında düşüncələrdən, silah onun başına tutulan anda soyuq vahimə keçirmiş olmasından əzab çəkirdim. Məntiqsiz görünsə də, mən onun yanında olmamağımın təqsiri hissi ilə mübarizə aparıram. Onun anası kimi, mənə ən ehtiyacı olduğu bir vaxtda onu darda qoydum. Təki onu sığallamaq, isitmək üçün orada olardım!

Amma olmadım, və ona görə də mən analıq sədaqətimin sonuncu jesti olaraq dəfn evinə qədər gözləməliydim. Onlar bizdən Kessiyə geyindirib uzandırmaq üçün «çox gözəl paltar» gətirməyimizi istədilər, amma o nadir hallarda don geyindiyindən onun bir və ya iki rəsmi geyimi vardı. Nəhayət, mən onun həmişə geyindiyi göy köynəyini, sürtülmüş cinsini, balıqqulağı boyunbağısını və Dok Martinlərini vermək qərarına gəldim. Bu əsl Kessi idi.

O ki, qaldı tabuta, dəfn evindəki insanlara söylədiyim ilk söz *çəhrayı olmaz* sözü idi; o atasının qızıdır. Mən, hətta burada çəhrayı rəngli qızılgüllərinin olmadığına əmin oldum. Amma sonra, necəsə, başqalarının onu görməyə gəlməsindən qabaq biz onun kifayət qədər Kessi kimi göründüyünü yoxlamaq üçün tabutu açarkən ilk əvvəl atlaz astarın çəhrayı olmasını gördüm. Biz onu başqa rənglə dəyişmək üçün mübahisə etdik, amma onsuz da, biz tabutu bağlamalı idik, ona görə belə qərara gəldik ki, olduğu kimi saxlayaq. Belə vaxtlarda bilmirsən ağlayasan yoxsa, güləsən. Mənim əlimdən gülmək gəldi. Amma mən həmçinin and içdim ki, o burada uzananda mən əlimdən gələni etdim. «Mən çalışdım Kess. Mən çalışdım.»



# O qatil haqqında yazdı

Nankor uşaq sahibi olmaq,

ilanın dişindən nə qədər də kəskindir.

**Uilyam Şekspir**

# 3. O qatil haqqında yazdı

Üç il bundan əvvəl Dekabrda, milad bayramından iki həftə əvvəl mən işimi atdım. Mən Lokhid Martində hüquq departamentində işləyirdim, işim tam ştat idi, mənim müqaviləm bitirdi və bu fasilə üçün yaxşı vaxt kimi görsənirdi. Ən vacibi isə o idi ki, mən bir neçə saat yazı stolumun arxasında az və uşaqlarımla isə daha çox vaxt keçirmək istədim. Baxmayaraq ki, özüm haqqında həmişə özünü uşaqlarına həsr etmiş ana kimi fikirləşirdim, mən onlar üçün istədiyim qədər çox vaxt ayıra bilmirdim. Krisin məktəbdə qiymətləri aşağı düşürdü və elə görünürdü ki, Kessi günbəgün məndən uzaqlaşırdı.

İşimi atandan sonra evdə keçirdiyim ilk günlərin birində, qardaşım və onun arvadının bir dəfə Kessiyə «yeniyetmələr üçün» Müqəddəs kitab – cavan oxucuların valideynləri ilə münasibətlərində yardım edən təlimatlandırıcı dərslik daxil edilmiş Əhdi-Cədid – verdikləri yadıma düşəndə oturub Kessi ilə ünsiyyətimdə bacarıqsızlığım haqqında kədərlə fikirləşirdim. Özüm üçün bir ipucu tapmaq ümidi ilə, mən Kessinin otağını dolaşdım və bunun üçün onun siyirtmələrinə baxmağa başladım.

Axır ki, mən Müqəddəs kitabı tapdım, amma ondan əvvəl məni yolumda donduran və ailə həyatımızı növbəti üç ay ərzində çirkin drama atan məktublar topası ilə qarşılaşdım. Zəif halda yaxınlıqdakı stula çökərək oxumağa başladım.

Kessiyə ən yaxın dostu Mona (həqiqi adı deyil) tərəfindən ünvanlanmış məktub bir sıra əxlaqsız cinsi söhbət və doqquzuncu sinifdə baş verən şaiyə ilə açılmışdı və orta məktəb müəllimi Missis R. haqqında danışaraq davam edirdi: «Onu öldürməyə kömək etmək istərsənmi? O, mənim valideynlərimi çağırdı və mənim pis qiymətlərim haqda onlara dedi.» Kessini dəvət edirdi. Məktub «güclü lənət», bıçaq və vampir dişləri rəsmləri, göbələklərlə və Mrs. R.-in qanlı gölməçədə uzanmış və sinəsinə qəssab bıçaqları sancılmış şəkillərlə bitirdi.

Digər məktubların çoxu beləcə bəzədilmişdi – vampir dişli meymunlar, baltalar, bıçaqlar, göbələklər (huşsuzluq gətirən narkotiklər) – və ya lənətlər və qafiyələnmiş misralar cızma-qara olunmuşdu:

Barmağını iynə ilə sanc və bu oldu,
Ay indi günəşin üzünü tutdu.
Zülmət mələyi qanadlarını açdı,
Daha yaxşı şeylər üçün vaxt çatdı.

Məktubun birində müəllif öz atasına nə qədər nifrət etdiyini təsvir etməyə; digərində isə Merilin Mənsona nə qədər pərəstiş etdiyini göstərməyə çalışmışdı. Burada qara paltarların və kosmetikanın seksuallığı, qaçaqmal spirtli içkilərin, marixuananın və özünü qəsdən zədələməyin «əyləncəli olması» haqda və sinif yoldaşının qız dostunun «pişik balasının qanını içməyin lazım olduğu bu şeytani məbədə, ayinə daxil olmaq üçün» getməsi haqqında danışılırdı.

Məktubların bir neçəsi Kessiyə bizi məhv etməyi və beləliklə, saysız-hesabsız problemlərini həll etməyi məsləhət görürdü. Biri belə bitirdi, «Valideynlərini öldür! Qətl sənin bütün problemlərinin cavabıdır. Qoy bu alçaqlar sənin əzablarına görə cavab versinlər. Səni sevən, mən.»

Başqa birisi isə ürəklərinə xəncər sancılaraq öz bağırsaqları ilə sarınmış ər-arvadın (ata və ana) dəhşətli rəsmləri ilə təsvir olunmuşdu və müəllif düşünürdü ki, «bağırsaqdan asılmış şey» adlandırdığı ideya «çox gözəl ideyadır.» Məktub belə davam edirdi, ola bilsin Rik (həqiqi adı deyil) «bundan daha yaxşı bir ideya» irəli sürə bilər və dərin həyəcanla yazırdı ki, «O, belə qatillik işində kifayət qədər sərrafdır» tam bir… (əxlaqsız söz). Bu məktub boynunun arxasında pentoqram* olan vampir dişli meymun – Mונanın simvolu – rəsmi ilə möhürlənmişdi. Başqa birisi isə valideynlərinin bağırsaqlarından sallanmış qəddarcasına çəkilmiş bıçağı, ana və ata Bernallar üçün başdaşıları və A.R.E.-yəni, Allah Rəhmət Eləsin hərflərini təsvir edirdi.

Bir başqasında isə ardınca ədəbsiz şer gələn böyük bir başlıq «Vampirlər həmişə bizim aramızda!» var idi.

Qoy mən öz qanımı içim,
Qoy həyatımı məhv edim.
Mənim daxili boşluğumda
Şamın şöləsi əbədi parlayır.
Bu oda toxunma deyir köhnə yaram
Vaxt gələndə qaynayacaq mənim qanım.

---

* şeytanın rəmzi olan beşbucaqlı

Şər mənim alovumu söndürərkən,
Həyat qığılcımı get-gedə sönəcək.

Mona məktubun birində belə yazırdı: «Mən inanıram ki, vampirəm». «Biz hər yerdəyik. Əgər sən birimizi öldürsən, səndən əvəzini çıxacayıq. Biz səni daima izləyirik, xəbərin olsun. Mən qaranlıq övladıyam. Sən də qaranlıq övladısan… Mən elə bil ki, özümü yandırıram. Mən vampir olduğuma görə məni heç nə incidə bilməz.»

Bir başqasında, marixuana yarpaqları, vampirlər, ay və ulduzlarla cızma-qara olunmuş dəftər parçasında o yazır, «Mənim bağırsaqlarım bu qəribə zir-zibil üçün acıblar…mən… (əxlaqsız söz) dərəcədə özümü öldürməliyəm, biz sənin valideynlərini öldürməliyik. Məktəb (əxlaqsız söz), məni də öz valideynlərinlə birlikdə öldür, sonra özünü öldür ki, səni zindana atmasınlar. Səni zindana salarlar.»

Mən o qədər heyrətlənmiş və karıxmışdım ki, çətinliklə telefonun dəstəyini qaldıra bildim. Amma mən bunu etdim və Bredlə əlaqə saxlayan kimi onun elə həmin dəqiqə evə gəlməsini istədim. O, evə çatan kimi biz bağlamanın sonuna çatana qədər bir məktubu digərinin ardınca oxuyaraq qulaq batırıcı səssizlikdə oturduq.

Məktubların çoxu Kessinin ən yaxın dostu tərəfindən yazılmışdı, amma biz sonradan – hər ikisinin, qızın anasından və Kessinin özünün boynuna almasından – öyrəndik ki, o da eynilərini yazmışdı. Hər halda, bizim əlimizdə olan məktublar onu aydınlaşdırır ki, hətta bu kağıza həkk olunan qanlı fantaziyaların əsas məsuliyyətini daşımasa da, bizim qızımız ən azından cinayət yoldaşı idi.

∗ ∗ ∗ ∗

Tədqiqatçılar deyir ki, yaxşı valideynliyin mahiyyəti yaxşı rəhbərlikdir və müəyyən dərəcədə bu əlbəttə ki, doğrudur. Bunun izah etmədiyi ağır həqiqət budur ki, bəzən – valideynlərin, qohumların, müəllimlərin və dostların ən güclü səylərinə baxmayaraq – yaxşı uşaq da pis yola gedəcək və öz qüsurlarınızı sadəcə qəbul etməkdən bir az daha çox səy göstərə bilərsiniz və münasibətlərinizi bərpa etməyə başlayacaqsınız. Kessiyə gəldikdə isə, mən və Bred onun həyatının haqqında bildiyimiz tərəflərinin az olduğunu qəbul etməliyik.

Şübhəsiz ki, orada işarələr var idi. Baxmayaraq ki, biz bu məktubları tapan vaxt Kessi doqquzuncu sinifdə idi, o, beşinci və ya altıncı sinifdə, Monaya qoşulan və digər dostlarını saymayan vaxtdan bəri bizim əlimizdən çıxırdı. Artıq o vaxt Bred və mən

qızların dostluğundan, xüsusilə də, Monanın böyüklərin gözünə baxa bilmədiyindən narahat idik. Onların bir-birinə bağlılığında qəribə və qeyri-sağlam bir şey var idi. Səkkizinci sinifdə Kessi bizim dəyərlərimiz və qaydalarımızdan Monanın xeyrinə imtina etməyə başlayanda, biz onlar arasındakı əlaqəni məhdudlaşdırmağa və Kessini digər qızlarla vaxt keçirməyə həvəsləndirməyə çalışdıq. Bu faydasız idi: o, daim məktəbdə ona başqa yaxın olan adam olmadığına təkid edirdi. Və buna görə biz geri çəkilirdik. Ananın öz qızı üçün arzuladığı bir şey varsa, o da orta məktəb həyatının eniş və yoxuşlarında onunla birgə olacaq heç olmazsa, bir yaxşı dostunun olması ümididir.

Yenə də, məndə belə pis hisslər vardı ki, nə isə düz deyil. Kessinin «Eh, heç nə pis deyil. Mən yaxşıyam,» deyərək dəfələrlə məni başından etməsinə baxmayaraq, mən bilirdim ki, bu belə deyil. Hələ də mənim əlimdə bir ipucu yox idi.

Kessi də bir yeniyetmə kimi yaxşı qız rolunu oynayırdı. O, saatlarla dərsdən sonra məktəbdə qalırdı, deyirdi ki, «mən incəsənətdən qiymətlərimi düzəltməliyəm» (marixuana çəkmə və içki içmə qalsın bir kənara bizi inandırsalar da, otaqda heç bir nəzarət də yox idi). O bizə öz yeni əla cd-lərini göstərdi, amma bəyənməyəcəklərimizi göstərmədi. O, bizim onun kifayət qədər fağır görkəmi olan sinif yoldaşı Riki təqdim etdi, amma bizi onun şeytani mərasimlərə qoşulmasından və evdəki problemlərindən xəbərsiz qalmağımız üçün əlindən gələni etdi. (Sonralar mən Rik haqda o qədər narahat oldum ki, tədris hissə müdirinin yanına getdim. Onlar bu oğlanın «nəzarətdən kənar» olduğundan xəbərdar idilər, amma heç nə etmək olmurdu: hətta valideynləri onu idarə edə bilmirdi.)

Keçmişə baxanda, Kessinin etibarlı uşaqdan qaşqabaqlı yad uşağa çevrilməsi o qədər yavaş-yavaş baş verirdi ki, bizim gözümüzdən yayınırdı. Bu ancaq Bivar orta məktəbindən (həqiqi adı deyil) onun dərsdən qaçması haqda xəbər verən zənglər alandan, onun qiymət cədvəlində gözlənilməz iki və üçlərin peyda olduğunda və onu bir çox kiçik yalanlar üstə tutandan sonra – biz bu şeyləri daha ciddi qəbul etməyə başladıq. Biz qızımızı itirirdik.

Bir gün Bred Kessini məktəbdən götürəndə onun dostlarının incəsənət dərsində düzəltdiyi hər şeyin gizli rəmzlərlə bəzədildiyinə görə evə narahat qayıtdı. Bir neçə gündən sonra mən onu növbəti dərsdən əlavə incəsənət hazırlığından götürəndə, mənim də narhatçılığım artmağa başladı. Düzdür, Kessi öz tapşırığı üzərində işləyirdi, amma

qara paltarda, gözünə qara qələm çəkmiş və zəncir zinət əşyası olan Rik sinəsinə Mona söykənmiş halda eyni stol arxasında oturmuşdu.

Bəlkə də bu sadəcə anaya məxsus hissdir, amma elə vaxt olur ki, sənin daxilin vəziyyətdə nəyinsə düzgün olmadığını deyir və sən əminsən ki, bu yalnız sənin yeni nəsillə «ayaqlaşmadığına» görə deyil. Bu şübhəsiz ki, həmin vaxtlardan biri idi. Otaqda ağır mühit var idi və mən qızımı oradan çıxarmaq istəyirdim.

Bir başqa vaxt yadımdadır ki, Kessini və dostlarını məktəbdən götürürdüm və Mona maşına minəndə Kessi qollarını yığdı və başını aşağı saldı. Mən də bunun nə qədər qəribə olduğunu düşündüm. O, həmişə Bredə və mənə qarşı biganə idi – ən pis halda o, bizim hüzurumuzu qəbul etməkdən imtina edirdi, ən yaxşı halda isə o, dodaqaltı «salam» deyirdi – amma bu kobudluqdan da artıq idi. Mənə elə gəlirdi ki, onunla Kessi arasındakı münasibətdə mən maneə olduğuma görə mənimlə davranışında düşmənçilik hissi görünürdü və buna görə mənə nifrət edirdi.

Ümumiyyətlə, Bred Kessi ilə münasibətdə məndən daha yaxşı idi və Kessi tez-tez ona qarşı mehriban olurdu. Mənim onunla münasibətimə gəldikdə isə, elə bil ki, həmişə nə haqdasa qarşı-qarşıya gəlirdik. Məsələn, Kessinin musiqi haqda olan ideyaları evimizdə tez-tez narazıçılığa səbəb olan bir şey idi. Həyatının son iki ili ərzində o, Kranberriz və Pet Şop Boyzdan tutaraq Carz of Kley və Kraya qədər hər şeyə qulaq asardı, hansı ki, bizim üçün də yaxşı idi, amma doqquzuncu sinifdə onun zövqü tamamilə sərtləşmişdi. Onun xoşladıqlarının bəzisi adamın tüklərini biz-biz edirdi.

Həmçinin, övladının qulaq asdığı qrupu xoşlamasanda da belə, buna son qoymaq asan deyil, çünki, məktəbdə «hər bir kəs» onlara qulaq asır. Hər halda, xatırlayırsan ki, özün də orta məktəbdə olduğun vaxt valideynlərinin zövqünə qarşı üsyan qaldırırdın və bəlkə də, bu həmin dövrdür. Bəlkə də sən buna görə o qədər də dilxor olmamalısan.

Nə vaxt olduğunu dəqiq bilmirəm, amma bir neçə dəfə Bred Kessinin bir neçə mahnısını yoxlamağa başladı və bunun «sadəcə» əyləncə olmadığını anladı. Zərərsiz qutularına baxmayaraq, mahnının sözləri tez-tez aydın bir mövzudan danışırdı. (İllər sonra biz bu mahnılarda ifadə olunan hisslər və Kessinin daxili çarpışması arasındakı əlaqəni görməyimiz üçün vacib bir işarəni ötürüb-ötürmədiyimizi bilmək istədik.) Həmin vaxt Kessinin dostlarının rok qrupu seçimi və Kolumbində onu öldürən iki oğlanın sevimlisi olan, Merilin Mənsonun mahnısından bir parça ən yaxşı nümunə:

...Özümü yuxuya vuracağam
Sənin əkdiyini mən biçəcəyəm
Özümə çapıq qoyuram, sən görəcəksən
Kaş ki, mən mən olmayaydım...

Mən müvazinətimi itirirəm.
Mən öz yeniyetmə biləyimi kəsirəm...
Amma sənin verdiyin hökmlərin
Və «yaxşı oğlan» nişanın
Mənim üçün... (əxlaqsız söz) mənasızdır
Silahını götür, silahını götür...

Mən məktublarla qarşılaşmasaydım bizim bu gün harada ola biləcəyimiz haqqında düşünməyə qorxuram. Bu həqiqətən oyanma üçün həyəcan siqnalı idi. Bred və mən tapdıqlarımızın təsirindən heyrətlənərək çarpayımızın üzərində oturduq. Bir tərəfdən bunu rədd etmək, bunun həqiqət olmasının qeyri-mümkün olduğunu demək, bunun hamısının qarabasma olduğunu və bizim tezliklə oyanmaq və Milad bayramına gedə bilməyimizi istəyirdim. Amma bizim ən pis qorxularımızın səbəbləri əlimizdə idi və nəsə etməliydik. Yaxşı, bəs nə?

Nəhayət, bizə aydın oldu ki, bu yalnız bizim həll etməli olduğumuz bir problem deyil və biz Monanın anası, şerif departamenti və Uest Boules Komyuniti kilsəsindəki pastorumuz Corc ilə əlaqə saxladıq. Həmçinin biz həm Monanın valideynləri, həm də özümüz üçün məktubların bir dəstəsinin surətini çıxardıq. (Əslləri şerif sənədlərin içinə tikməli idi.) Sonra biz oturub Kessini gözlədik.

Kessi məktəbdən gələn kimi, biz onu saxladıq və məktubları tapdığımızı dedik. İlk növbədə o, əhəmiyyət verməməyə çalışdı: «Eh, biz bir pis şey nəzərdə tutmurduq...» Sonra o anlayanda ki, biz onu rahat buraxana oxşamırıq, o, bərk qışqırığa başladı. Birincisi, bizim hər şeyi şişirtdiyimizi düşünürdü, çünki o, heç vaxt bizi və ya başqasını öldürməyə dair bu qədər ciddi olmamışdı və belə bir şeyi etməyi heç vaxt arzu etməzdi. İkincisi, biz onun icazəsi olmadan otağında gəzərək və bizə aid olmayan əşyaları götürərək onun hüquqlarını tapdlamışdıq. Üçüncüsü, bizim ona, yeganə qızımıza bir az da olsa, sevgimiz olmadığına görə, qaçıb getməklə və özünü öldürməklə bizi ağır yükdən azad edərdi. O, hirsindən partlayırdı.

Kessinin müdafiə olunması bizi qətiyyən təəccübləndirmədi, biz bu qarşılaşmada olan suallara sonra bir neçə ayda yenidən

qayıtmalıydıq. Onun ölümünün arxasınca – və Kolumbində onunla birlikdə on dörd nəfərin ölümü – onlar yenidən ön plana gəldilər. Biz Kessi, Mona və onun anasının dediyi kimi «hər şeyi həddindən artıq şişirdirikmi»? Bizim normal valideynlik sərhəddini keçdiyimizə və Kessinin qaydasına əhəmiyyət vermədiyimizə görəmi bu problemlər yarandı?

Biz bu zəhləm getmiş məktubları aşkar etdiyimizə baxmayaraq, həmin gün bunu müzakirə etməyə vaxt yox idi. Biz qətl ehtimalı ilə üzləşirdik, mən hiss edirdim və həyatım üçün qorxurdum. Nə qədər ədalətli davransam da, Bred ölüm təhlükəsini mənim qədər ciddi qəbul etmirdi. Bred hiss etdi ki, Kessinin etdiyi şeylərin nə qədər səhv olduğunu hiss etdiyini göstərmək üçün qəzəblənmək bir çıxış yolu idi. Mən o qədər də əmin deyildim. Bir insanı şər fikir tutubsa, onun çətin yeniyetmə və ya təhlükəli bir yetkin şəxs olmağının heç bir fərqi yoxdur: bu şərin öz gücü var. Əgər hətta Kessinin bizi öz qanlı planlarına salmasında azacıq həqiqət vardısa da, mən şerifin nədən başlamalı olduğunu bildiyinə əmin olmaq istəyirdim.

Hətta ən əsası, biz Kessiyə görə qorxurduq. Həqiqətən, biz Kessi üçün o qədər qorxurduq ki, dayanmağa və ən düzgün cavabı ətraflı fikirləşməyə vaxtımız olmadığını hiss edirdik. Kessi uçuruma doğru gedirdi və biz dərhal onu saxlamalı idik. Seçim yox idi.

∗ ∗ ∗ ∗

Biz Corcla əlaqə saxladıqdan sonra, o, Uest Boules-də pastor olan dostu Deyv ilə əlaqə saxladı və kilsədə gənclər axşamı olduğuna görə Deyv bizə Kessini digər yeniyetmələrə qoşulmaq üçün axşam məşğələlərinə gətirməyi təklif etdi. Əvvəl bu ideya nə Kessinin, nə də mənim xoşuma gəldi. Mən əmin idim ki, o, ya qaçacaq, ya da zorakı bir şey edəcək. Buna baxmayaraq, axırda biz onu aparmağı qərara aldıq. Ən azı bu Bredə və mənə tək qalıb fikirlərimizi toplamağa bir az vaxt verərdi.

Sonra mən qalıb evə nəzarət edərkən Bred məktubları şerifə vermək üçün məhkəmə binasına tərəf getdi. Mən qonaq otağının stolu arxasında sonsuz qorxu və kədər hissi ilə oturub «Artıq Kessi ilə hər şey bitdi. Bütün münasibətləri itirdik» deyə fikirləşdiyim axşamı heç vaxt unutmayacağam. İndi o vaxt onu bilib-bilmədiyimi xatırlaya bilmirəm, amma görürəm ki, sözün əsl mənasında biz onu bundan cox əvvəl itirmişdik.

Növbəti həftələr boyu qatma-qarışığın öhdəsindən necə gəldiyimizi mən heç vaxt bilməyəcəm. Kessi dava-dalaş salmayanda, qanı qaralırdı, əhvalı olmurdu və hər dəfə bizi evdən çıxıb getmək ilə qorxudurdu. Bütün şeylərin baş verdiyi arada mən cərrahiyyə əməliyyatı keçməli idim. Sonra biz uşaqları valideynlərimin Qrand Leykdəki evinə apardıq və orada bir neçə gün keçirdik, amma bu heç kimin sinirlərini sakitləşdirə bilmədi. Bu mənim keçirdiyim ən pis Milad bayramı idi.

Günü-gündən, həftələr keçdikcə Kessi qəzəb və ümidsizlik dərəcəsinə çatırdı və biz heç vaxt onun sonra nə edəcəyini və ya deyəcəyini bilmirdik. Səhərlər yuxudan dəhşət içində oyanmağa başladım. Bredin xatirələri:

> Kessi bizə görə dilxor olanda – mən həqiqi dilxorçuluğu nəzərdə tuturam – o, nə qədər bədbəxt olduğunu və bizim onun otağına girməyimizin nə qədər ədalətsiz olduğunu deyərək qışqır-bağır salırdı. O, ağlayar, qışqırar və bağırardı, «Mən özümü öldürəcəm! Bunu görmək istəyirsiniz? Mən bunu edəcəm, siz də baxın! Mən özümü öldürəcəm. Mən bıçağı buraya, düz sinəmə salacam.» Mən onu danışaraq, sığallayaraq, möhkəm qucaqlayaraq, anasının və mənim onu nə qədər sevdiyimizi deyərək sakitləşdirməyə çalışardım.
>
> Elə vaxtlar da olurdu ki, özünü həddindən artıq ağılsız apardığına görə, mən onu şillələmək, döyüb ağlını başına gətirmək istəyirdim. Amma heç vaxt etmədim. Əksinə, mən hətta onu daha sıx qollarımın arasına alır, onu daha yaxına çəkir və təkrar-təkrar deyərdim, «Mən səni sevirəm Kessi və mən sənin özünü incitdiyini görmək istəmirəm. Mən sənin başına pis bir şeyin gəlməsini heç görmək istəmirəm.»

Kessinin ölümündən sonra biz o dəhşətli günlərin tükürpədici xatirələri ilə üz-üzə gəldik: özbaşına olduğu dövrü əks edən otağındakı dəftər. 2 Yanvar 1999-cu ilə tarixlənən bu məktub göndərilməmiş məktubun bir hissəsi kimi görünürdü:

> …Mən nə qədər incidiyimi sözlərlə ifadə edə bilmirəm. Mən bilmirdim ki, bu incikliyi necə həll edim ona görə də özümü fiziki incidirdim. Bəlkə də bu mənim kədərimi, qəzəbimi və sıxıntımı ifadə etməyin bir yolu idi… Mən

hamamda kilidlənər və başımı hamam rəfinə döyərdim. Mən həmçinin başımı yataq otağımın divarına da vurardım. Sui-qəsd fikirləri məni günlərlə təqib edirdi, amma mən sözün əsl mənasında bunu etməyə çox qorxurdum, ona görə də «güzəştə gedərək» öz əllərimi və biləklərimi itiuclu metal yeyə ilə qanayana qədər cırmaqlayırdım. Bu ilk bir neçə dəqiqə yalnız incidir, sonra keyiyirdi. Lakin sonralar nəyə görə bilmirəm bu çox pis sancmağa başladı, məncə mən onsuz da, buna layiq idim. Mənim hələ də çapıqlarım var.

∗ ∗ ∗ ∗

Dekabrın 31-i – Yeni il gecesi – biz Mona, onun valideynləri, müstəntiq və yeniyetmələrin cinayəti üzrə şöbənin detektivi ilə görüşdük. Görüş keçirilən otağa girəndə bizim qızlarımızın işlərindən deyil, tamamilə başqa bir şeydən bizə qarşı düşmən olduqlarından sarsıldıq. Monanın valideynləri açıqcasına bizə qarşı düşmən idilər. Bred otaqda Monanın atasının əlini sıxmağa keçəndə, o, əllərini qaldırıb, «Heç narahat olmayın» deyərək onu rədd etdi. Bütün görüş boyunca həm o, həm də Monanın anası 5 illik dostluğu beləcə qırmağın insafsız hərəkət olduğuna donquldanaraq şikayətlənməkdən başqa heç nə etmirdilər.

Bir anda Bred açıqladı ki, biz heç də Monanın Kessidən pis olduğunu fikirləşmirik, hər iki qız eyni dərəcədə təqsirlidir və qızlarımızla olan vəziyyətdən çıxmaq üçün bizə birlikdə çalışmaq lazımdır. Bu faydasız idi. Monanın anası qəbul etdi ki, məktublar «münasib» deyil və onların məzmunu onu «kədərləndirir», amma o bizim niyə onları qanunla həll etməyə ehtiyac duyduğumuzu və onun yoldaşını bu məsələyə cəlb etməyimizi anlaya bilmirdi. Əgər qızların davranışına görə təqsirkar vardısa da, bu biz idik. Çünki, biz əgər Kessi öz davranışlarını yaxşılaşdırmasa ona Bivar məktəbindən çıxarıb özəl məktəbə göndərəcəyimiz haqqında daim xəbərdarlıq edirdik.

Şükür ki, detektiv və müstəntiq vəziyyəti bizim kimi ciddi qəbul etdi və bizim Kessi ilə Monanın sonrakı əlaqəsini məhdudlaşdıran qadağa haqqındakı arzumuzu müdafiə etdi. Başqa şeylərlə yanaşı, şerif Monanın valideynlərinə dedi ki, bu məktublar son on il ərzində yeniyetmə cinayətində gördüyü ən dəhşətlisidir və əgər Mona qismən də olsa, əvvəlcədən qeydə alınıbsa, hökmdən əvvəl çağırıla bilərdi. Onlar hələ də nə təəccüb, nə də peşmançılıq göstərirdilər.

Bred və mən otağın bir tərəfində oturduğumuz halda Kessi Mona və onun valideynləri ilə digər tərəfdə oturmuşdu. Mən hələ də onların soyuq, zillənmiş baxışlarını hiss edirəm. Görüşdən sonra Monanın anasının onun ardınca maşınlarına tərəf getməsini, onun çiyinlərini çırparaq və elə bil ki, «Əzizim, hər şey yaxşıdır, Bernallar şərəfsiz insanlardır» deməklə onu arxayın etməsini heç unuda bilərəmmi. Bir neçə vaxtdan sonra biz öyrəndik ki, əgər Kessi qaçmaq qərarına gəlsəydi, onu öz evlərinə qəbul etməyə hazır idilər.

* * * *

Şerifin ofisindəki görüşümüz, Kessini bizdən uzaqlaşdıra bilən dostları da daxil olmaqla bütün təsirlərdən, əvvələ nisbətən çox qorumağımızı daha da qətiləşdirdi. Müəyyən mənada bir valideyn kimi nə vaxtsa edə biləcəyin ən çətin bir şey ayağını yerə dirəyib «Vəssalam, burada dayanırıq» deməkdir. Ona görə yox ki, biz bunu belə etməyin asan olduğunu fikirləşirik. Biz bilirdik ki, məktubları aşkara çıxarmaqla olduğumuz mübarizədən irəlidə daha böyük bir mübarizəyə risk edirdik. Biz Kessini sıxışdırmaqla risk etdiyimizi bilirdik. O, bizdən uzaqlaşa bilərdi.

Onsuz da bir tərəfdən Kessiyə o qədər acıqlı idim ki, demək olar ki, mənim üçün fərqi yox idi. Bu qız, doqquz ay qoynumda daşıdığım və bütün varlığımla sevdiyim uşaq deyir ki, mənə nifrət edir! O, mənə belə xəyanəti necə edə bilər? Eyni zamanda ruhdan düşmək və ya məğlubiyyəti qəbul etməkdən söz belə gedə bilməzdi. Bred və mənim həmişə övladlarımız üçün ən yaxşı şeyin nə olduğuna dair müəyyən daxili hisslərimiz vardı və onda qərara gəldik ki, bu hisslərin ardınca gedək. Biz belə də etdik.

Dekabrın iyirmisi – məktubları aşkar etdiyimiz gün – tətildən əvvəl sonuncu dərs günü idi və ilk qərarlardan biri bu idi ki, Kessi bir daha Bivara getməyəcək: bundan sonra o, özəl Xristian məktəbinə gedər. Hələ üstəlik biz mütəmadi olaraq onun otağını və bel çantasını yoxlamağa, onun telefon zənglərinə nəzarət etməyə (heç olmazsa, nəzarət etməyə çalışırdıq) və bizim icazəmiz olmadan evi tərk etməsini qadağan etməyə başladıq. Nəhayət, biz ona dedik ki, o, istər Mona ilə, istərsə də onların keçmiş dəstəsindən olan başqaları ilə bir daha əlaqə saxlaya bilməz.

Əlbəttə ki, Kessi hirsindən bir təhər olmuşdu. Eləcə də Mona Kessiyə yazdığı məktubların birində deyirdi ki, əgər biz Kessini adi məktəbdən çıxarmaqla hər şeyin bir az yaxşılaşacağını fikirləşiriksə,

yəqin ki, dünyadakı ən axmaq valideynlərdənik. O, əmin idi ki, bu yalnız «hər şeyi milyon dəfələrlə pisləşdirə» bilər. Bundan başqa, Mona bizim özəl məktəbə necə imkanımız çatacağını bilmək istəyirdi. Bunun üçün pul lazım deyildi? Məktub belə bitirdi, «Ay Allah, ancaq bunu deyə bilərəm ki, əgər onlar mənim valideynlərim olsaydı, çoxdan yox olmuşdular. Onların iyrənc səfehliyi haqqında yetər. Gəl indi onları necə öldürəcəyimizi qərara alaq…»

Biz Kessiyə yalnız bir şeydə iştirak etməyə icazə verdik ki, bu da Uest Boulesdəki qrup məşğələləri idi. Bizim üçün vacib olan şey kilsənin özü deyildi. Çünki, insanın boğazından yapışıb onun beynini dolduran dinə qarşı yalnız bir cavab var: imtina. Bizim də Kessini «xilas etməkdə» marağımız yox idi. Bizim bildiyimiz yalnız bu idi: hərçənd bizim münasibətlərimiz nazik bir sapdan asılı idi, biz onu hələ də sevirdik və biz onun keçmişə, özünə zərər verən yollara qayıtmağa şirniklənməyəcək bir yerdə həyatında yeni ruhlanma tapmasını arzu edirdik. Kessi üçün istədiyimiz bir şey o idi ki, o, həqiqətən xoşbəxt olsun, hətta öz meyarlarına görə olsa da belə, o vaxta qədər o, xoşbəxt deyildi.

Deyv (bizim gənclər toplantısının pastoru) hələ də bizə hansısa kömək edə biləcəyini öyrənmək üçün onun ofisinə getdiyimiz gecəni xatırlayır:

> Mənim Kessi ilə ilk qarşılaşmam onun anası və atası ilə görüş idi. Onların tapdığı məktubları gözdən keçirəndən sonra biz gənclər qrupumuzdakı uşaqların valideynləri və ya uşaqların özləri ilə etdiyimiz kimi oturub Kessi haqqında danışdıq. Biz sevgi haqqında, həmçinin, həqiqətən sərt olmaq haqqında danışdıq. Mən dedim ki, onların iki seçimi var: ya siz hər şey yenidən yoluna düşənə qədər onu evdə qıfıllayır və telefon xətlərini kəsirsiz, ya da qoyun hər şey öz axarı ilə getsin – yetkin olana qədər dözün və ümid edin ki, xilas olacaq.
>
> Mən dedim ki, onlar buyurub Kessini bizim gənclər qrupu məşğələlərinə gətirə bilərlər və biz ona kömək etmək üçün əlimizdən gələni edəcəyik, amma öz daxilimdə mən Kessiyə qarşı ümidsiz yanaşdım. Mən görüşdən çıxıb gedərkən öz-özümə «Biz əlimizdən gələni edəcəyik, amma bu qızla çətin olacaq. Ondan keçib, geri dönməz. Onun etdiyi şeylərdən nə vaxtsa geri qayıtmasına yol yoxdur» dediyimi xatırlayıram.

İlk növbədə elə görünürdü ki, Deyv haqlı olacaq. 1997-ci il Yanvarın dördündə dostuna ünvanladığı məktubda Kessi yazmışdı:

> …Mənim otağımda tapdıqları məktublar həqiqətən təsvirlərlə dolu idi və hətta valideynlərimi necə öldürəcəyimizin rəsmləri də var idi. Beləliklə, indi onlar siqaret çəkməyimiz, içki içməyimiz, bütün bu zir-zibillər, hələ üstəlik bizim qeyri-ciddi öldürücü şeylərimiz haqda bilirlər. P—, beləliklə indi, mən ən yaxın dostlarım Mona və Cudi və digər dostum Rik ilə danışa bilmirəm. Əgər mən Monanı görsəm və ya onunla danışsam, şerif əlaqənin məhdudlaşdırılması haqda əmri dolduracaq. Hə, mənim valideynlərim polisə gediblər! Mən elə fikirləşirəm ki, onlar bütün bu şeyləri həddindən artıq şişirdiblər. Mən alkoqol və siqaretə aludə deyiləm. Mən narkoman deyiləm, sadəcə mən həqiqətən tənha və sıxıntı içindəyəm, valideynlərimə nifrət edirəm. Ümid edirəm ki, sənin həyatın mənimki kimi bədbəxt deyil. Mən qaçıb getmək istədim, amma onlar məni tutdular. Yaxşı bir şey var, mən gizlincə Merilin Mənsonun konsertinə qaçacağam. Mona və Rik də gedirlər, beləliklə, heç olmazsa, mən onları görəcəyəm.



# Ailə daxilində baş verənlər

Bütün vampirlər vadi boyunca gəzir,

Ventura Bulvarının qərbinə doğru hərəkət

edirlər.

Və bütün pis oğlanlar kölgədə dayanıblar,

Bütün yaxşı qızlar isə sınmış ürəkləri ilə

evlərində oturublar.

**Tom Petty**

# 4. Ailə daxilində baş verənlər

Bir çox insanlara Mona və Kessinin məktublarının məzmunu tipik yeniyetmə qeybəti kimi görünə bilərdi və müəyyən dərəcədə bu belə idi. İyrənc şəkillər bir kənara, on beş yaşlı qızların belə şeylər, «Anam bizə gəzməyə getməyə icazə verməsə onu öldürəcəm.» deməsi sadəcə həyatda baş verən şeylərdir. Boş qorxu və həqiqəti necə ayırd etmək olar?

Kessinin ölümündən üç həftə sonra mənim dostum bir Kolumbin tələbəsi ilə tanış olmuşdu. Bu tələbənin qardaşı Kessinin qatillərini tanıyırdı. Aydın olduğu kimi, onlardan biri olan Erik sonradan, bufetini partlatmaq üçün istifadə etdiyi propan çənlərini alması ilə lovğalanmışdı, amma heç kim onu ciddi qəbul etməmişdi.

Kessinin dostu, həmçinin Kolumbində oxuyan Anetin dediyinə görə zorakılıq və ölüm haqda danışıqlar məktəbdə o qədər adi hal almışdı ki, çox az adam belə söhbətləri gizlincə eşidəndə ciddi qəbul edirdi. İspan dili sinfindən olan bir qız bir istirahət günü ölmüş bədənlərə baxmaq və insanların necə öldüklərini öyrənmək üçün meyitxanaya getdiyi haqda danışanda Anet fikirləşdi ki, bu «olduqca qəribədir», amma həmin qız deyəndə ki, bu onun yazdığı kitab üçündür, o, rahatlaşdı. Eybi yox, o, fikirləşdi ki, daha bir adam özünə diqqət toplamaq istəyir.

Bir neçə gündən sonra həmin qız sinfə gələrək evində olan bıçaqlar və baltalar haqqında danışdı və onları məktəbə gətirib dostlarına «süni qanla bu ‹bomba› şeyləri» necə etdiyini göstərmək istədiyini dedi. Anet «Sən artıq bilmirsən ki, nəyi ciddi qəbul edəsən» deyir. «Sən elə düşünürsən ki, onlar bu şeyləri diqqəti cəlb etmək üçün deyirlər, və əksər hallarda bu belədir. Amma bir şey baş verəndə – Erik və Dilanla olduğu kimi – sən özünə hədd qoymağa başlayırsan.»

Kessi ölən vaxt ona ən yaxın olan sinif yoldaşı Amanda da demək olar ki, belə fikirləşirdi:

> Mən də Kessi kimi, oxşar bir dövrdən keçmişəm – bu cadugərlik və ya onun kimi hər hansı bir şey deyildi, amma

> o dövr idi ki, mən səhv dəstəyə qoşulmuşdum, yalnız ona görə ki, özümü onlar tərəfindən qəbul olunmuş hiss edirdim. Mənim də axtardığım bu idi. Bu tənhalıqdır: elə fikirləşirsən ki, daha yaxşı dəstəyə qoşulmaq üçün sən kifayət qədər yaxşı deyilsən, beləliklə, sən əlindən gələni edirsən ki, haradasa qəbul olunasan və özünü heç olmasa, hansısa bir qrupun üzvü hiss edəsən. Kessinin vəziyyətində nə baş verdiyini mən bilmirəm. O, mənə dedi ki, onu bu şeylərə salan Mona oldu. Mən fikirləşmirəm ki, «Biz bu gün qara işlərlə məşğul olacayıq» deyərək, onlar oturub belə bir ani düşünülmüş seçim etsinlər. Məncə onlar belə etməyiblər. Amma bu hələ də təhlükəliydi. Bunun sonuna yaxın o mənə dedi ki, onlar doğrudan da müəllimlərindən birinin qətlini planlaşdırmışdılar.

Kessini Bivardan çıxardıqdan sonra ilk bir neçə ay ərzində mənim ağlıma dəfələrlə bir fikir gəlirdi ki, bəlkə biz ona qarşı çox sərt olmuşuq. Həmin vaxtdan sonra mən daha da əmin olmuşdum ki, biz onunla həddən artıq sərt deyildik.

Sonra 1997-ci ilin yayında yaxınlıqdakı qəsəbədə – Leykvudda, on dörd yaşlı yeniyetmənin valideynlərini öldürməyə və qız dostu ilə Kaliforniyaya qaçmağa hazırlaşdığını dediyinə dostlarım inanmaq istəmirdilər. Növbəti gün o yaxın dostunun köməyi ilə qəssab bıçağı götürərək atasına hücum etmiş və az qala onu öldürmüşdü. Bıçaqlamadan sonra, oğlanın otağında şeytani işləmələr və qotik* bəzəklər tapılmışdı.

Həmin ilin Sentyabrında, Bred və mən yerli qəzetdə oxşar bir hadisə oxuduq: aydın olmuşdu ki, televiziya qarşısından başlayan, mübahisədən sonra yuxarı sinif şagirdi odlu silahla atəş açıb atalığını öldürmüşdü, sonra isə qaraja qaçıb özünü güllələmişdi. Bir neçə aydan sonra bizim ətrafda ikinci valideyn qətli oldu: təsdiq olunduğu kimi bu dəfə qurban on yeddi yaşlı oğlu tərəfindən öldürülüb ailə maşınının yük yerinə atılmış Hayland Rənçli qadın olmuşdu.

Bizimki kimi dinc orta səviyyəli qəsəbələrin belə şeyləri bacaran uşaqlar tərbiyə etdiyini görəndə, sən anlamağa başlayırsan ki, od olmayan yerdən tüstü çıxmaz. Məsələn, Kessiyə gəldikdə, bu bizim aramızda anlaşılmazlıq və ədavətin nəhəng bir uçurumunun

* Orta əsrlərdə Avropada çox yayılmış memarlıq üslubuna mənsub olan bəzəklər.

nəticəsi idi – elə bir uçurum ki, burada yalnız zaman, sevgi və diqqət körpü sala bilərdi. Hətta əgər o, bizi heç vaxt öldürməyi planlaşdırmasa da, biz onun bu hərəkətə qarşı fikirlərinə çətin ki, məhəl qoyardıq.

İndi, bu hadisədən təxminən üç il sonra – və Kolumbindəki atışmaya dönüb baxanda – Deyvin bu məsələyə aid fikirlərini eşitmək mənim üçün bir vəhy idi:

> Uşağı bir məktəbdən çıxarmaq və onun üçün yenisini tapmaq, oraya öyrəşdirmək, birdən-birə qayda qoymaq üçün lazım olan hər şeyi etmək – bu onun əl-qolunu bağlamaq kimi görünə bilərdi. Amma əslində bu ona tam yeni həyat imkanı verirdi. Mən bunu çox valideynlərə demişəm. Çoxu sadəcə heç bir şey etmir. Onlar deyir, «O, artıq altı-yeddi dəfə cinsi əlaqədə olub,» və ya «Mən bilirəm ki, o, pis dəstəyə qoşulub, amma sən uşağı öz yeganə dostları ilə görüşməkdən saxlaya bilməzsən.» Onlar narahat olurdular, amma onlar qurban tələb edən hər hansı bir addım atmağı təsəvvür edə bilmirdilər, buna görə, özlərini elə göstərirdilər ki, guya bu pis şey deyil.
>
> Demək olar ki, hər belə hadisədə görmüşəm ki, valideynlərin güclü mövqe tutduqları zaman hər şey alınır. Bu tam yeni bir münasibət açır. İlk öncə bu bir müharibəyə bənzəyir, çünki uşaq sənə qarşı vuruşmağa hazırlaşır, amma ürəyinin dərinliyində o deyir, «Bu mənim xoşuma gəlir. Mənim xoşuma gəlir ki, anam mənimlə danışmağa başlayıb. Mənim xoşuma gəlir ki, atam məni görmək üçün evə tez gəlir.»
>
> Nə vaxt incimiş uşaq görürəm, fikirləşirəm ki, nə qədər tez-tez onların atası onları qucaqlayır və ya onların kürəyindən yavaşca vurur, onların anası isə nə qədər tez-tez «Mən səni sevirəm», ya da «Qoy sənə kömək edim» deyir. Bu uşaqların çoxunun valideynləri var, amma görəsən, valideynlər həqiqətən onlarla maraqlanırmı?

Əgər Kessinin davranışına cavab olaraq bizim etdiklərimizə qarşı bəraət qazandıran bir şey vardısa da, bu da onun özünün nə qədər həddini aşmasını qəbul etməsi idi. Özəl məktəbdə tanış olduğu ilk tanışı Ceymiyə dediyinə görə, Kessi özünün güclü fantaziyalarının təkcə sözdə olmadığını demişdi. O, özünü zülmətin həqiqi qüvvəsi

tərəfindən tutulmuş hiss edirdi və onun bundan azad olması aylar çəkmişdi. Bir tərəfdən, görünür, o, öz canını iblisə vermişdi. «Mən bilmirəm bu həqiqətən belə idi, yoxsa rəmzi idi,» bu yaxınlarda Ceymi mənə belə dedi. «Amma fərqi yoxdur. Öz ağlında o doğrudan da özünü belə əsir etmişdi.»

Bu ilin əvvəllərində Kessi İngilis dili dərsi üçün yazdığı avtobioqrafik inşasında o, boynuna alırdı ki, «Bütün bu vaxt boyu mən valideynlərimə və Allaha dərin, böyük nifrətlə kin bəsləyirdim. Mənim hiss etdiyim qaranlığı təsvir etməyə söz tapmaq mümkün deyil...» Bredin və mənim bu inşanı yalnız Kessinin ölümündən sonra gördüyümüzə baxmayaraq, heç birimiz təəccüblənmədik. Biz həmişə hiss edirdik ki, Kessi və onun dostlarının işlərində həqiqətən nəsə pis bir şey var.

Məktubları tapdığımız gündən bəri heç vaxt ununtmayacağım bir şey evdə var-gəl edərək dua etməyimdir. Bred şerifin yanına getmişdi və onun anası bir dəfə evdə bütün otaqları bir-bir gəzərək Allahın qoruması üçün dua etmək haqqında nəsə demişdi. Mən o vaxt bunun bir az qəribə olduğunu düşünmüşdüm, amma ümidsiz olduğumdan, hər halda, bunu etdim. Kessinin otağının qapısına gələrək özümü içəri girməyə məcbur edə bilmədiyim yadıma düşür. Mən bunu tam təsvir edə bilmirəm, amma mühit çox boğucu və əzabverici idi.

Nəhayət, mən içəri girdim, Kessinin çarpayısı üzərində oturdum və ağlamağa başladım. Mən elə hey ağlayır, həmçinin Allahın qızımı və onun bütün problemli dostlarını qoruması üçün dua etdim. O an əmin olduğum bir şey vardısa da, bu da bizim sadəcə üsyankar yeniyetmə dəstəsindən daha böyük bir şeylə mübarizə aparmağımızı hiss etməyimiz idi. Bunu təklif etmək qəribə olsa da, elə bil ki, biz ruhani döyüşə daxil olmuşduq.

* * * *

Günlər həftələrlə, həftələr də aylarla əvəz olunanda bizim Kessinin birliyini qazanmağımız sürətlə inkişaf edən bir müharibəyə döndü. Onun məktublarını ona qarşı istifadə etməklə (o elə düşünürdü), hüquqlarını tapdalamışıq deyərək sözünün üstündə durması bizim münasibətimizdə ən böyük maneə idi. Amma biz öz silahlarımızdan yapışmışdıq. Bred dəfələrlə Kessini inandırırdı ki, biz onun ağılsız olmadığını bilirik; o, sadəcə özü yaxşı qərar çıxarmaq üçün kifayət qədər yetişməmişdi. Bred ona dedi:

> Bax, Kessi, sən inanmalısan ki, sənin problemlərini həll etməyin başqa yolları var. Hər şeydən əvvəl sən bizi öldürməli olduğunu deyən bir cavan xanım ilə oturub-dururdun və indi də sən deyirsən ki, özünü öldürəcəksən. Bu ağıllı hərəkət deyil…
>
> Sən səfeh deyilsən, amma şüurlu da deyilsən. Sən uşaq olanda, sobanın üstündəki alovu görə bilmirdin. Biz sənə deyirdik ki, əgər sən əlini ora vursan, yanacaqsan və sən bizim sözümüzə qulaq asırdın. İndi də eyni şeydir. Elə şeylər var ki, sən görə bilmirsən və başa düşmürsən, sən sadəcə mənim sözümə qulaq asmalısan. Kessi, sən bizə inanmalısan. Sən inanmalısan ki, biz səni sevirik və heç vaxt səni səhv yola aparmarıq.

Bred bu yolla Kessiyə təskinlik verməyə və onu sakitləşdirməyə çalışaraq, onunla bu yolla danışa bilirdi və gec-tez həmişə bunun faydası olurdu. Məncə o özünü toplaya bilməsə, şüursuz halda alışıb özündən çıxmağı dayandırmasa və həqiqi şəraitlə üz-üzə durmasa, heç vaxt bir şeyə nail ola bilməyəcəyini anlamaq üçün kifayət qədər ağıllı idi.

Başqa bir fikir ayrılığı olan məsələ, ən azı Kessinin düşündüyünə görə onu dustaq kimi evdə saxlamağımızı iddia etməsi idi. Biz doğrudan da, əvvəlcədən ona demişdik ki, əgər o, bizimlə yaşamağa etiraz edirsə, biz ona bir neçə başqa seçimlər verməyə hazırıq və ona bir neçə seçim də təklif etdik. Bu seçimlər Bredin bacısı ilə İngiltərədə, mənim valideynlərimlə Qrand Leykdə və ya Bredin atası və ögey anası ilə Texasda qalmaq idi. Həmçinin bizim başqa qohumlarımız da var idi. Biz ona dedik ki, o, hətta istəsə qaça da bilər, amma himayədarlığa düşə də bilər. İcazə vermədiyimiz yeganə şey dostu ilə birlikdə yaşamaq idi. Amma biz ona xəbərdarlıq etdik ki, bizimlə qalmağı seçdiyi halda, o, bizim şərtlərimizlə keçinməlidir və biz heç bir dəyişiklik etməyəcəyik. Bred ona qısaca dedi, «Nə azadlıq, nə hüquq, nə imtiyaz, nə də inam. Sən sıfırdan başlayaraq, bütün bu şeyləri geri qazanmalısan.»

∗ ∗ ∗ ∗

Biz ümid etmişdik ki, Kessini Xristian Cəmiyyəti Məktəbinə yazdırmaq heç olmazsa, onun problemlərinin bir hissəsini həll edəcək və uzun müddətdən sonra sübut olundu ki, bu addım düzgün istiqamətdə

atılıb. Amma əvvəl bu hər şeyi pisləşdirmişdi. Məktəb günləri mənim Kessi və Krisi səhərlər XCM-ə aparmağımdan başlayaraq, bir-birinin arxasınca gələn yorucu mübahisələrdən ibarət idi. (Biz Krisi də Kessi ilə eyni vaxtda orta məktəbdən çıxardıq, lakin onun çətinliyi qiymətlərinin pis olması idi.)

XCM kiçik və yaxşı nizam-intizamlı idi, beləliklə, biz bilirdik ki, Kessinin məktəb şəhərciyindən qaçmağa şansı az idi. Lakin, biz onu günortalar məktəbdən götürəndə, mübahisələr davam edirdi. Birincisi, çünki, biz ona heç nə etməyə icazə verməzdik – nə dərsdən sonra iş, nə telefon zəngləri, nə dostlarla görüş – biz onun atdığı hər bir addıma nəzarət etməli idik. Bu asan deyildi və bunun öhdəsindən gələ bilməyimizin yeganə yolu hisslərimiz tab gətirməyəndə komanda kimi növbə ilə bir-birimizi əvəz etməyimiz idi. Birimiz hisslərimizi cilovlamağın son həddinə çatanda digərimiz onu əvəz edərdik.

Əgər biz ərzaq almaq və ya xırda işləri həll etmək üçün evdən çıxsaydıq, o, görüş təşkil etmək üçün dostlarından birinə zəng edər və ya evdən qaçmağa çalışardı. Biz beş dəqiqə belə ona etibar edə bilmirdik ki, tək qalsın. Əlbəttə, bunun olduqca zəhlətökən səsləndiyini bilirəm – lakin son anda qərara gəldik ki, yalan danışmaq üçün bütün imkanları onun şəxsi həyatından kənarlaşdıraq. Hər gün biz onun bel çantasını yoxlayırdıq; onun otağını dəfələrlə yoxlayırdıq ki, orada heç bir pis şeyin olmadığına əmin olaq (yeni məktublar tapmışdıq); biz hətta, telefonumuza səsyazma cihazını da quraşdırmışdıq. Nə qədər təsirli olsa da, hiss edirdik ki, Kessini düşmək istədiyi yoldan qorumaq üçün biz bu ölçüləri götürməliydik.

Elə ilk gün biz telefona cihazı qoşandan sonra yarım saatlığa Uolmart univermağından bəzi şeylər almaq üçün evdən çıxdıq və biz evdə olmayanda Kessi öz dostlarına zəng etdi. Biz evə gələn kimi yataq otağımıza getdik, qapını bağladıq və lentə qulaq asdıq. Kessi çığırır, lənətləyir və heç vaxt ondan eşitmədiyim bir küçə dilində bizə nə qədər nifrət etdiyini deməkdə davam edirdi. Xəttin o biri tərəfində olan cavan oğlan da nə qədər bədbəxt olduğunu və benzin içərək öz həyatına necə son qoymağı planlaşdırdığını deyirdi. ( Bu vaxt Kris söhbətin üstünə çıxır və Kessi onun da üstünə qışqırır və lənətləyir. Tez-tez belə vəziyyət olanda Kris bacısı qarşısındakı vicdanı və bizim arxamızdan Kessinin nələr etdiyi haqda bizə açıb demək arzusu arasında qalırdı – bəlkə də bu onu qorxutduğuna görə.)

Bundan bir neçə vaxt sonra bir gün mən Kessini Uest Boules-ə cavanlar qrupu ilə vaxt keçirməyə aparmışdım və o qaçıb həmin

dostunun evinə getmişdi. O, bunu dəfələrlə edibmiş və biz bunu biləndə onu daha da sıxmağa başladıq. Biz Deyvə zəng edib deyərdik, «Biz bilirik ki, sən polis işçisi deyilsən, amma Kessi qaçmağa başlayıb. Sizin qapılarınız Kessinin üzünə nə qədər açıq olsa, biz onu gətirəcəyik. Əgər sən görsən ki, Kessi orada yoxdur xahiş edirik, bizə xəbər ver.»

Əvvəl qeyd etdiyim, İngilis-dili dərsindən yazdığı inşada, Kessi o vaxtkı qəzəbi və ümidsizliyi haqqında yazmışdı:

> Özəl məktəbdə mən tamamilə bədbəxt idim və digər uşaqlar həqiqətən mənə nifrət edirdilər, amma hətta mən şikayətlənirdimsə də, qışqırırdımsa da, oradan zəhləm gedirdisə də, hər gün oraya getməli idim… Bir neçə dəfə mən Monanı görmək üçün oradan qaçmağa çalışmışdım, amma mən həmişə tutulurdum. Mənim valideynlərim düşünürlər ki, digər dostlarımın heç biri məni yaxşı yola çəkmir. Cina bəzən sui-qəsdə meylli olurdu və Mayk mənim oğlan dostum idi, əlbəttə, onlardan xoşları gəlməzdi. Ən yaxşı dostlarımı və azadlığımı itirməkdən əlavə, mən heç vaxt digər dostlarımla da danışmalı və görüşməli deyildim.

Arada Kessinin qorxuları və özündən çıxmaları olurdu, bunlar olmayanda biz onu xəbərdar etməkdə davam edirdik ki, heç yerə getməyəcək, çünki onun yaxşılığı üçün köhnə həyat artıq bitmişdi, yəni o, öz köhnə dostlarını görməyəcək və ya telefonla danışmayacaq və nə qədər zəhləsi gedirsə-getsin, o mütləq özəl məktəbdə oxumağa davam edəcək. Bəzən o, qışqıranda mən onun yanında oturaraq əlimi onun dizinə qoyub, sakitləşənədək ucadan dua edərdim və onu sevdiyimi deyərdim (Bredin də tez-tez etdiyi kimi).

Elə vaxtlar olurdu ki, mən özümdən çıxırdım, çünki mənim də səbrimin həddi var, amma buna baxmayaraq, sonra özümü toplayar və yenidən çalışardım. Mən bilirdim ki, əgər biz nə vaxtsa Kessi ilə yaxşı münasibətlərimizi bərpa etmək istəyirdiksə, özümüz nəsə etməliydik. Məsələ heç vaxt onu küncə qısmaqda və ya döyüşü qalibiyyət xətrinə qazanmaqda deyildi, əksinə, bizim onun, onun da bizim ürəyimizdə olanları açıb üzə çıxarmaq idi. Xoşumuz gəldi-gəlmədi, biz Kessinin etibarını və hörmətini itirdiyimiz kimi o da bizim etibar və hörmətimizi itirmişdi və bunu yenidən qazanmaq üçün o da, biz də qarşılıqlı çalışmalıydıq.

Daha dəqiq desək, biz yalnız Kessidən qurbanlar tələb edə bilməzdik, həmçinin özümüz də qurbanlar verməli idik. Başlanğıc üçün mən işə getməmək qərarına gəlmişdim, heç olmazsa, bir müddət. Mən bunu elə-belə etmədim, çünki bilirdim ki, mənə səkkiz saat ofisdə olmaqdan daha çox evdə qalmaq lazımdır. Uşağa diqqət və vaxt ayıranda onun bu diqqəti və vaxtı istəməməsindən ağır bir şey yoxdur. Amma mən bilirdim ki, qollarımı çırmalayıb Kessi ilə hər şeyi düzgün həll etməyincə və üç, dörd və ya beş yaşında olduğu kimi onun həyatına tamamilə daxil olmayınca, biz yalnız daha çox bir-birimizdən uzaq düşə bilərik. (Burada həmçinin başqa bir məsələ də var idi: iki gəlirdən birindən imtina etməklə yaranan maddi gərginlik ilə dolanmaqdan əlavə, biz özəl məktəbə hər iki uşaq üçün təhsil haqqı ödəməyə başladıq.)

Kessinin etibarını qazanmağa çalışmağımızın digər yolu sadəcə münasibətlərimiz üzərində işləməyimiz idi – ona cavab olaraq qışqırmaq istəyəndə dilimizi saxlayardıq, deyinməkdənsə, onu ruhlandırardıq, onu təzyiq altına salmaqdansa və ya kinayəli sözlər atmaqdansa, daha çox müsbət stimul təklif edər və məqsədlər qoyardıq. Biz həmçinin müəyyən «xarakter formalaşdırmağ»ın əsasları, Bredin məsuliyyət, hörmət və özünə hörmət adlandırdığı şeylər üzərində işləmək üçün düşünülmüş cəhdlər etdik.

Tədricən biz Kessinin valideynləri kimi nə vaxt, xüsusilə də onun ən çətin mərhələyə qədəm qoyduğu dövrdə müvəffəqiyyətsizliyə uğradığımızı anlamağa başladıq. Kessi üsyankar olanda biz daha da çalışırdıq ki, onun dostluğunu qazanaq. O, nə qədər çox uzaqlaşırdısa, biz o qədər çox ona qarşı gücümüzü toplayırdıq. Sonda biz heç vaxt etmək istəmədiyimizdən daha çox onun nazlarını və arzularını yerinə yetirməyə xidmət edirdik. Mənim yaxın dostum, özü də üsyankar yeniyetmə olmuş Syuzan bizə bu tələdən çıxmağa yardım etdi. O, deyərdi, «Kessinin dostu olmağa bu qədər çox çalışmağı qurtarın. Siz yetkin adamlarsınız; sən onun anasısan; böyük sənsən. Siz etdiyiniz hər şeydə Kessinin razılığını almalı deyilsiniz. O, dünyanın onun başına fırlandığını düşünməyə başlayacaq və sizin hələ də onu sevdiyinizi bildiyinə görə hər nə istəsə edə biləcəyini fikirləşməkdə davam edəcək.»

Əlbəttə, hər nə olsa belə, bizim həmişə uşaqlarımızı sevəcəyimizə söz ola bilməzdi. Amma Syuzan vasitəsilə mən bir valideyn kimi öz rolumu başqa tərəfdən görməyə başladım – dostdan daha çox, məsləhətçi və sirdaş kimi. Mən Kessini razı salmağı və özümü ona sevdirməyə çalışmağı dayandırdım və ona daha tez-tez yol

göstərməyə çalışmağa başladım. İnanılmazdır ki, üsyan etməyin əvəzinə, o, onun üçün qoyulan həddi qəbul etdi və hətta buna görə elə bil ki, minnətdar idi.

∗ ∗ ∗ ∗

Kessinin etirazları zəifləməyə başlayandan sonra, o, Bivar məktəbinə qayıtmayacağı fikrinə getdikcə öyrəşirdi, həm də görürdü ki, XCM-də heç də hamının ondan zəhləsi getmir. O, hətta özünə dost tapdı. Birinci kurs tələbəsi, Ceymi onun bağlandığı ilk tələbələrdən biri idi və Kessi onun haqqında mənə deyəndə həyəcanlanmağım yadıma düşür. Mən bu mükəmməl qızcığazı mənim yolunu azmış qızıma yaxşı təsir edəcək birisi kimi təsəvvür etdim. Amma gözlədiyim kimi olmadı. Mən Kessini XCM-dən götürürdüm və o məndən Ceymi bizə gedə bilərmi deyə soruşdu, mən də əlbəttə, olar, dedim. Mən gözümü qırpmamış o, mənim yanımda idi. Ceyminin qısa, açıq sarışın saç düzümü, boynunda böyük zəncir və metal muncuqlar vardı və tay-tuşlarının Qudvil* kimi yerlərdən aldığı qranc** növlü paltar geyinmişdi. Sözsüz ki, bu mənim gözəl Məsihçi qız haqqında fikrimlə üst-üstə düşmürdü. Buna baxmayaraq, onun səmimiyyəti və sərbəstliyi tərzində nə isə heyranedici bir şey var idi və niyə Kessinin onunla dost olmasını təxmin etmək çətin deyildi.

Kessinin ölümündən sonrakı həftələrdə mən Ceymi ilə əlaqə saxladım və onların münasibətləri haqqında bilmədiyim bəzi şeylər öyrəndiyimə görə sevindim. Ceyminin xatirələri:

> Mən Kessi ilə o Bivardan XCM-ə keçiriləndən sonra tanış oldum. İlk dəfə Kessi haqqında belə eşitdim: bizim eyni rəhbər məsləhətçimiz vardı və qadın onun adını çəkib mənə dedi ki, bir yolla onunla əlaqə saxlasaydım yaxşı olardı, çünki o, həqiqətən də çətin dövrlərini yaşayır, həqiqətən bədbəxtdir. Beləliklə, bir gün mən onunla salamlaşmaq üçün yaxınlaşdım və düşünürəm ki, elə bil onu qorxutdum, çünki mən məktəbin ən qəribə şagirdlərindən biri kimi tanınırdım. Düşünürəm o, bir az təəccüblənmişdi və ya son dərəcə utancaq idi. Amma axırda biz yaxşı dost olduq.

---

* köhnə paltarların satıldığı mağaza

** rok fanatlarının geyindiyi paltar növü.

Mən birinci dəfə Kessiylə tanış olanda o qapalı görünürdü və elə bil ki, «Mənimlə danışma» deyirdi. O, elə düşünürdü ki, heç kimin xoşuna gəlmir. O, sadəcə acıqlı, ümidsiz idi və bu ümidsizlikdə çapalayırdı. Mən hər gün onunla əlaqə yaratmağa çalışar, sakitcə ümid edər və dua edərdim ki, mənə cavab versin. Biz Allah haqqında bir neçə dəfə danışmışdıq, amma o mənə bir dostu vasitəsilə öz canını şeytana verdiyini demişdi. O, deyirdi, «Mən Allahı heç cür sevə bilmərəm.» Mən isə ona deyərdim, «Bu belə olmalı deyil». Biz ümumiyyətlə, olduqca yaxşı yola gedirdik, amma bəzən o mənim dediklərimdən bezərdi.

O, həqiqətən intihar ilə mübarizə aparırdı. O, olduqca qara, sui-qəsdə aid şerlər yazardı. Onun həmçinin özünü kəsmək və əzab vermək kimi problemi də vardı. Mən bu problemin nə qədər dərin olduğunu bilmirəm, amma onu bilirəm ki, o, bunu tez-tez edərdi. O, dəmir yeyə deyilən bir şeyi özü ilə məktəbə gətirər və başqa dostu ilə özlərini kəsər və s. şeylər edərdilər. O, həmçinin deyərdi ki, marixuana da qəbul etmişdi.

Kessi onu köhnə məktəbindən çıxardıqlarına görə valideynlərinə qarşı nə qədər acıqlı olduğu haqda danışardı. Bu bizim söhbətlərimizin əsas mövzusu idi: acıqlı olmaq. O, dostları ilə keçirdiyi köhnə vaxtlarından danışar və onlardan eşitdiyi hər bir şey haqqında gəlib mənə danışardı. Onun ürəyi tamamilə köhnə dəstəsi ilə idi və onlardan uzaqlaşdırıldığına görə həqiqətən hirsli idi. Məncə, bu qismən onun sədaqətliliyindən xəbər verirdi. Kessinin öz dostlarına qarşı ağlasığmaz sədaqət hissi var idi və ona görə də onlardan əl çəkmək Kessi üçün çətin idi.

Baxmayaraq ki, Kessi artıq köhnə dəstəsinə qarşı vaxt «sədaqət»ini itirirdi, onlar qərara gəlmişdilər ki, ondan əl çəkməsinlər. Doğrudan da, onlar Kessini – və bizim rahatlığımızı – o qədər tez-tez narahat edirdilər ki, gec-tez biz köçməli idik.

Məni ən çox məyus edən şey açıq-aydın qızlara bir-biri ilə görüşməyi qadağan edəndən sonra Monanın və anasının Kessi ilə görüş təşkil etməsi idi. Bred və mən öz otağımızda dincələrkən, Kessi içəri girib itləri gəzdirəcəyini dedi. Mən düşündüm, «Bu doğrudan da qəribədir. O heç vaxt itləri gəzdirməyi xahiş etmir.» Amma biz ona icazə verdik. Bir neçə dəqiqədən sonra qapının

zəngi çalındı. Bu mənim dostum Syuzan idi və o, Monanın və anasının maşını küçənin sonunda saxladıqlarından xəbərimiz olub-olmadığını soruşdu. Orada həmçinin içində Darrin və Maykın (Kessinin keçmiş oğlan dostu) olduğu digər maşın da var idi və Syuzana nə isə pis bir şeyin baş verdiyi aydın olmuşdu. (Görünür, onlar Kessiyə xəbər veribmişlər ki, onu orada gözləyəcəklər.) Xoşbəxtlikdən biz vaxtında xəbər tutduq və nəsə baş verməzdən əvvəl bu görüşə son qoymağı bacardıq. Mən hələ də onların nə etməyi planlaşdırdıqlarını bilmirəm.

Ərzaq mağazasında Kessinin köhnə dostu tərəfindən narahat edilməyim, gecə-gündüz hər saatdan bir gələn çoxsaylı cavabsız zənglər kimi başqa hadisələr də olurdu. Bir günorta da onun köhnə məktəbindən bir neçə oğlan ağ Cip Çeroki markalı maşının pəncərəsindən başlarını çıxararaq və «Qatil!» deyə qışqıraraq sürüb keçdilər və içi qazlı su ilə dolu dəmir qutuları bizim evə atdılar. Zir-zibili yığışdırandan sonra biz qərara aldıq ki, fikir verməyək və onu bir təsadüfi hadisə kimi qəbul edək.

Buna baxmayaraq, həmin oğlanlar yenə eyni maşında evə yaxınlaşdılar. Bu dəfə onlar evə çiy yumurtalar tulladılar. Mən telefonu qapıb polisə zəng edərkən, Bred maşınına minib onların ardınca getdi. O, onları tuta bilmədi, amma sonra şerif tutdu. Onların hamısı Kessinin köhnə dostları idi.

Biz oğlanları heç vaxt vəhşiliyə görə məhkəməyə cəlb etmədik, amma onların valideynləri ilə danışdıq. Bred dedi ki, bizim onların uşaqlarına qarşı heç bir iddiamız yoxdur və problem yaratmaq da istəmirik; biz sadəcə öz qızımıza bildiyimiz kimi tərbiyə verməyə çalışırıq və istərdik ki, onlar öz oğlanlarına desinlər ki, bizi narahat etməsinlər. Bu hər şeyi sakitləşdirdi, amma sonralar da uzun müddət mən narahat olurdum, görəsən, Kessinin köhnə dostları özlərini sonra hansı yolla göstərəcəklər.

Beləliklə, biz qərara gəldik ki, köçək. Biz yaşadığımız rayonu, evimizi sevirdik, amma biz Kessini belə müdafiəsiz şəraitdə saxlaya bilməzdik. Biz onunla o qədər uzun və çətin mübarizə aparmışdıq ki, daha bir risk etmək istəmirdik və onsuz da, onun həyatını lazımından çox çətinləşdirmək ədalətli görünmürdü.



# Geriyə dönüş

Allah səni əlinə keçirməyənə qədər,

sənin imanın ola bilməz,

yalnız Sənin belə inamının olub-olmaması heç

də vacib deyil, çünki,

sən imana inamsızlıq vasitəsilə

də gələ bilərsən.

**Simon Veil**

# 5. Geriyə dönüş

Bir gün 1997-ci ilin yayında, Kessinin XCM-ə keçirilməsindən təxminən üç ay sonra, o, evə gəlib dedi ki, Ceymi onu gənclər düşərgəsinə dəvət edib. Əslində, Ceymi ona icazə verməyimiz üçün bizə yazdığı məktubunda yalvarırdı və Bredlə mən bu haqda danışdıq, amma biz əmin deyildik ki, icazə vermək üçün Ceymini kifayət qədər yaxşı tanıyırıq. Kessi axır ki, bəzi irəliləyişlər etmiş kimi görünürdü, amma biz hələ də ehtiyatlı və qoruyucu idik, onu bütün həftə sonu boyunca özbaşına qalmasına icazə vermək fikri bu vaxt üçün böyük bir risk kimi görünürdü. Biz ona dedik ki, bu haqda fikirləşməliyik.

Mənim şübhələrimin bir hissəsi bu tədbiri maliyyələşdirən kilsə ilə bağlı idi. Mən orada yalnız bir çox illər bundan qabaq bir neçə dəfə olmuşdum və oraya qayıtmamışdım, çünki, oranın çox ağır, odlu-alovlu cəhənnəm təsiri bağışlayan mühiti, şokedici təsir bağışlamışdı. Buna baxmayaraq, axırda biz ona getməyə icazə verdik.

Bütün həftə sonu ərzində mən Kessi üçün dua edir və bütün həftə sonu ən pis şeyin olmasından qorxurdum. Birdən o, qaçsa və biz daha heç vaxt onu görməsək? Mən çox gərgin idim. Axırda hər şey yaxşı qurtardı, lakin bunun Kessiyə göstərdiyi təsirə biz tamamilə hazır deyildik. Amma mən buna sonra yenidən qayıdacağam. Birincisi mən Ceymiyə imkan verəcəyəm ki, Bred və mənim ancaq bu yay, Kessinin ölümündən altı həftə keçəndən sonra eşitdiyimiz bu hekayəni öz nöqteyi-nəzərindən danışsın:

> Orada mənim getdiyim bir gənclər qrupu var idi. Bu qrup kilsə gənclərindən ibarət idi, və sən orada tamamilə sərbəst ola bilirdin. Bilirsən, burada Qotik rəmzlər və pank rokerlərin geyindiyi paltarda olan, qəribə seçilən saç düzümlü çoxlu uşaqlar var idi. Mən çox əmin idim ki, Kessi orada özünü rahat hiss edər, çünki bu onun köhnə dəstəsinə bənzəyirdi. Bəlkə də deyilən şeylərin hamısına o, qulaq asmaq istəməyə bilərdi, amma mən ümid edirdim ki, onun xoşuna gələr. Beləliklə, mən olacaq tədbir haqqında eşidəndə, həqiqətən oraya getmək və onu da həmçinin aparmaq istədim. Əvvəl

o, getmək istəmədi, amma mən ona adamların necə müasir olduğu haqqında çox danışdım və sonra o da istədi. Mən həqiqətən onun ruhani tərəfini heç açıb-ağartmamışdım.

Onun anası və atası bizi həftə sonuna getmək üçün yola düşəcəyimiz dayanacaqda düşürəndə, düşünürəm uşaqların çoxunun saçlarının boyamış olduğuna və bunun kimi başqa şeylərə və Kessini belə insanlardan uzaqlaşdırmağa çalışdıqlarına görə onlar bir az qorxmuşdular. Amma ona gəlməyə icazə verdilər və biz doğrudan da yaxşı vaxt keçirdik. O, əvvəllər heç vaxt mənimlə gənclər qrupu tədbirinə gəlməmişdi.

Biz, üç yüz uşaq olardıq, Rokiiz dağlarının Estes parkındaydıq. Axşam izzətləndirmə xidməti idi. Oğlanın nə haqda danışdığını xatırlamasam da, həftə sonunun mövzusu şərin verdiyi şövqlərə qalib gəlmək və xudbin həyatdan qopmaq idi. Nəyə görəsə elə bil ki, Kessinin ruhani divarlarını dağıdan məhz izzətləndirmə idi. Həqiqətən elə görünürdü ki, bu onu dəyişir. Mən bütün bunlardan özümüz üçün, xüsusən də, onun üçün heç nə gözləmirdim, çünki o, həmişə çox qapalı idi. Mən düşünürdüm: bir həftə sonu onu dəyişməyəcək amma heç olmasa kömək edə bilər. Lakin, onun tamamilə ruhani divarlarının dağıldığını görəndə, məəttəl qaldım.

Əslində, biz çöldə idik və Kessi ağlayırdı. O, ürəyini boşaldırdı – düşünürəm o dua edirdi – və Allahdan bağışlanma diləyirdi. İçəridə uşaqların çoxu – narkotik və həyatlarında olan bunun kimi başqa şeyləri, qurbangaha gətirir, onlar köhnə qandallarını dağıdırdılar.

Kessinin qurbangaha gətirəsi heç bir şeyi yox idi, amma o, etdiyinə peşman olduğu şeyləri boşaldır və onlardan əl çəkmək istəyirdi. Orada həmçinin başqa bir oğlan da var idi və o da onun üçün dua edirdi. Mən Kessinin dediyi şeylərin hamısını deyil, bəzisini eşidə bildim. Lakin həftə sonundan sonra o, etdiyi şeylərin çoxunu, onlara görə nə qədər peşman olduğunu və onun vaxtilə düşdüyü eyni təsirlərə Krisin də düşə biləcəyindən nə qədər qorxduğunu dəfələrlə mənə danışdığını indi xatırlayıram. O, dedi ki, bu onun nə vaxtsa düşdüyü ən dözülməz vəziyyət idi və kiçik qardaşını bu şeylərə düşməkdən qorumaq istəyirdi.

Xidmətdən sonra Kessi, mən, Kevin, Castin və Erin adlı oğlanlar təxminən yarım kilometr yolu maşınla yuxarı qalxdıq və dağların başında ulduzlar altında dayandıq.

Biz orada tamamilə Allahın möhtəşəm hüzurunda bir neçə dəqiqə sakit dayandıq. Bu qeyri-adi idi: bizim kiçikliyimiz və göylərin böyüklüyü. Allahın böyüklüyü çox həqiqi idi.

Sonra mən gördüm ki, Kessinin üzü tamamilə dəyişib. Sən ona baxsan görərdin ki, elə bil, o, hələ də utancaq olmasına baxmayaraq, gözləri ümidlə dolu idi. Onda nəsə təzə bir şey var idi. Bu düşərgədə qalan vaxtımız olduqca yaxşı keçdi. Artıq sən onunla danışmaq üçün yaxınlaşanda səninlə danışmaq istədiyini bilirdin. Onun həmçinin müxtəlif gənclər liderləri ilə yaxşı söhbətləri olurdu.

Həftə sonu bitəndə Bred və mən Krisi bir yerə qoyub Kessini götürməyə getdik. Mən hələ də olduqca narahat idim. Biz kilsəyə çatan kimi avtobus qayıtdı və mən pırpız saçlı uşaqların ətrafda gəzişdiyini və siqaret çəkdiyini gördüyümüzü xatırlayıram. Sonra Kessi bizim uzaq durmağa çalışdığımız tip – yaxud ən azı elə görünən – qızlar dəstəsi ilə maşında gəlib çıxdı. Mən öz-özümə düşünürdüm: axı niyə biz ona elə bu gəzintiyə getməyə icazə verdik? Amma Kessi maşından düşən kimi birbaşa mənim üstümə gəldi. O, məni qucaqladı, sonra mənim gözlərimə baxıb dedi, «Ana, mən dəyişdim. Mən tamamilə dəyişdim. Bilirəm ki, sən mənə inanmayacaqsan, amma mən bunu sənə sübut edəcəm.» Bredin xatirələri:

O, gedəndə hələ də qaşqabaqlı, başıaşağı, dinməz qız idi. Amma həmin gün – qayıtdığı gün – onunla baş verənlərə görə coşqun və həyəcanlı idi. Elə bil ki, o, qaranlıq bir otaqda idi, kimsə işığı yandırdı və birdən onu əhatə edən gözəlliyi görə bildi.

Demək olar ki, iki il sonra İngilis dilindən yazdığı şəxsi inşasında Kessi Ceymi ilə keçirdiyi həftə sonunu nəql edirdi:

Xoşbəxtlikdən Məsihçi məktəbində Ceymi adlı, mənə kömək edən və məni öz qanadları altına alan bir qız var idi. Onda başqa uşaqlarda tapa bilmədiyim bir şey var idi ki, bu da onun çox açıq-fikirli və hər kəsi olduğu kimi qəbul edən olması idi. Həmçinin, o, yeganə insan idi ki, mən ona qulaq asmaqdan imtina etmirdim. Ceymi mənə Məsih haqqında təcavüzkarcasına və təzyiq edən tərzdə deyil, ehtiyatla danışırdı və mənim başıma gələnlərdə Allahın təqsiri olmadığını deyirdi. O, dedi ki, bəlkə, Allah bunun baş verməsinə imkan verib, amma əslində mən

> özüm bunu öz başıma açmışam. Ceymi deyirdi, bizə azad iradə verilib və mən sonra peşman olacağım qərarlar qəbul etmişəm. Mən sözlərdə həqiqət gördüm və onu dinləməyə başladım...
>
> Sonra, Martın səkkizində mən Ceymi və onun cəmiyyəti ilə düşərgədə olanda həyatımın istiqamətini dəyişdim. Bu yalnız mənim yolumu harada azdığım yeri görə bildiyim vaxtdan sonra baş verdi. Mən pis seçimlər etmişdim və yalnız özüm təqsirkar idim – bu da, mənim iztirab çəkərkən daim inkar etdiyim bir şey idi.

Mən hər şeyə olduqca şübhə ilə yanaşırdım. Biz ağlasığmaz dərəcədə nifrətlə dolu və ümidsiz bir uşaqla – narkotik istifadə edən, şər qüvvələrlə məşğul olan və özünə sui-qəsd etmək və ya qaçıb getmək ilə qorxudan bir uşaqla dolanırdıq. Mən Kessiyə onun yeni davranışının hiyləgərlik olduğunu düşündüyümü dedim, yəni onun yeni dostları ona deyib ki, evə gəlsin və «Mən dəyişmişəm» desin və bizim ona inanaraq bəzi sərbəstliklərini geri qaytaracağımıza ümid etsin. Bred isə digər tərəfdən, bunlara görə rahatlaşdı və şübhələrini Kessiyə göstərməkdən çəkinmədi.

Deyv mənim qorxularıma şərik idi. Ən azı ilk anlarda o, narahat olurdu ki, «xilas olmaq» qalsın bir kənara, Kessi yağışdan çıxıb yağmura düşüb. Amma Kessinin dəyişməsi onun üçün həqiqi bir şey idi. O, həmin maşından düşəndə «xilas oldum» və ya bunun kimi şeylər demədi. O, heç də həyəcanlı deyildi. O, real və çox dəqiq idi: «Ana, mən dəyişdim.» Bu doğrudan da, həqiqət kimi görsənirdi. Ondan sonra, Kessi tamamilə fərqli bir insan olmuşdu. O, heç vaxt həmin həftə sonu barədə çox danışmırdı və biz onu heç vaxt məcbur etmirdik. Amma onun gözləri parlayırdı, o, yenidən, neçə illər idi ki, gülmədiyi kimi gülürdü və bizimlə (və qardaşıyla) həqiqi hörmət və bağlılıqla davranmağa başlamışdı.

Kessi hələ də öz ağır muncuq boyunbağısını və köhnə paltarlarını geyinirdi, amma onsuz da, artıq bu şeylər heç bir məna kəsb etmirdi. Ən vacib şey, onun ruhunda olan dəyişiklik idi – onun mülayimliyi, həlimliyi və xoşbəxtliyi. Elə bil ki, o, əvvəllər heç vaxt sahib olmadığı azadlığı tapmışdı və bu evdəki mühiti büsbütün dəyişmişdi. Lakin əvvəlki aylarda bizim başımıza gələnlərə baxanda bu o qədər yaxşı idi ki, inanmaq olmurdu və beləliklə, mən müdafiəmi kənara qoymağa uzun müddət tərəddüd edirdim. «Sən özünü yaxşı aparırsan, Kess,» mən öz-özümə deyərdim, «amma sən sübut etməlisən ki, geriyə qayıtmayacaqsan.»



# Məhəbbətin sınaqları

Ey ilahi Sahib, izn ver ki,

Təsəlli verdiyim kimi təsəlli axtarmağı

Anladığım kimi, anlaşılmağı

Sevdiyim kimi sevilməyi

o qədər də axtarmayım.

**Fransis of Assisi**

# 6. Məhəbbətin sınaqları

«Yenidən doğulma»nın Məsihçi imanı üçün ən vacib bir şey olduğunu fikirləşənlər Kessinin hekayəsinin məğzini onun dəyişməsində görməyə sövq oluna bilərlər. Onun anası kimi mən düşünürəm ki, bu həqiqətən həmin vəziyyətdir. Hadisənin həyatdəyişdirici olduğuna heç bir söz ola bilməz. O, hətta 8 Mart 1997-ci ili demək olar ki, ikinci anadan olan günü hesab edirdi – bu onun «yenidən doğulduğu» gün idi. Eyni zamanda da düşünürəm ki, o, bundan sonra olanların da, Estes Parkdakı həftə sonunda olanlar kimi vacib olduğu ilə mənimlə razılaşardı. Dostumun bir dəfə dediyi kimi, uşağın doğulması gözəl şeydir, amma bu yalnız başlanğıcdır. Ən yaxşı hissəsi onun inkişafına və böyüməsinə baxmaqdır.

Kessi üçün Martın səkkizi yalnız hirsin və boşluğun, çaşqınlığın və ümidsizliyin içində itib-batmasına son deyil, həm də yeni fəslə başlamaq üçün şans demək idi. İndi həyatda nəyəsə qarşı vuruşmaqdan daha böyük bir məqsəd var idi. İndi artıq ümid var idi.

Kessi hələ kəskin dəyişməsindən əvvəl Uest Boules Komyuniti Kilsəsinə və ya uşaqlar arasında UBKK kimi tanınan cəmiyyətə getməyə başlamışdı. Orada tanış olduğu yaşıdları hardasa üzdən adi orta məktəb uşaqları kimi görünürdülərsə də, onlar Kessiyə bir qrup kimi gözəl təsir edirdilər. Əvvəllər, evdə bizim Kessiyə yeritməyə çalışdığımız dəyərlər dayanmadan onun dostları tərəfindən sarsıdılırdı. İndi isə Uest Boulesdə onlar sanki, gücləndirilirdi.

Hər nə idisə, bəlkə bu onların birlikdə şam etməyə getdikləri axşamlar və ya xizək gəzintiləri, ya da şənbə günortaları frizbi oyunları idi. Bəlkə də, həftəlik Müqəddəs kitab dərsləri, oxuduqları kitab idi, Bəşəriyyətə Yurd təşkilatı üçün tikinti mənzərə və quruculuq layihələri, və ya sadəcə onların etdiyi müzakirələr idi. Amma onu bilirəm ki, Kessi qələbəyə doğru bu şeylərə yavaş-yavaş məğlub olurdu. «Yavaş-yavaş» ifadəsini vurğulamaq istəyirəm. Kilsədəki gənclər lideri Şauna Kessinin gəldiyi ilk gecəni belə xatırlayır:

> O, həqiqətən heç kimə qarışmırdı, heç kimin ona yaxınlaşmasını və ona nəsə deməsini də istəmirdi. Sən

> bəzən adamı görən kimi onun hər şeydən ehtiyat edən şəxs olub-olmadığını deyə bilərsən və Kessi də onlardan biri idi. O, tanıdığım ən ehtiyat edən adamlardan biri idi. Lakin mən onun nə hiss etdiyini bilirdim, çünki mən də gənclər qrupuna getməyə başlayanda belə idim. Məni valideynlərim getməyə məcbur etmişdilər.
>
> Mənim sonralar kiməsə belə deməyim yadımdadır, «O qızla çətin olacaq, elə deyilmi?»
>
> Mənim təsəvvürümdə Kessi hələ də böyük ölçülü cinsdə, marixuana bitkisindən hazırlanmış boyunbağı və hərbi maykada qalıb. Onun üzündə ağır baxış var idi – sən deyə bilərdin ki, keçirdiyi vəziyyət tərəfindən əzişdirilib. Hətta onun ətrafında olan oğlanlar da narahat görünürdü. O, məni cəlb edirdi – o, can yandırdığım insanlardan biri idi, çünki mən də vaxtilə eyni vəziyyətdən keçmişdim.
>
> O, hər həftə gəlməyə başladı, amma həmişə eyni vəziyyətdə idi. Hələ də bizimlə danışmazdı.

Yaxın dostu Kassandranın oxşar xatirələri:

> Kessi zəncir boyunbağısını taxır, parlaq koftasını geyinirdi və mən ondan olduqca qorxurdum. Onun qorxulu xarici görkəmi var idi – bir növ mənimlə işin olmasın deyirdi. Sonra mənə aydın oldu ki, bu simanın altında əsl şəxsiyyət var və onunla həqiqətən yaxşı dost olduq. Mən gördüm ki, onun haqqında olan fikirlərim olsun ki, sadəcə mənim düşüncələrim idi; o, zahirən belə görünürdü. Bu axmaqlıqdır, bilirəm, amma bəzən müəyyən stereotipli insan görəndə, adama tamamilə qəribə gəlir. Əgər Erik və Dilan kimi oğlanlar haqqında düşünürsənsə – rahatlığını kənara qoyub sənin kimi görünməyən və ya səni qorxudan insanları tanımaq üçün cəsarət göstərməmək məktəbdə böyük bir problemdir.

Şauna Kessinin keçmişi haqqında heç nə bilmirdisə də, onun uyğunlaşıb olduğu kimi qəbul olunması üçün müəyyən susuzluğunu hiss etmişdi.

> Tədricən o, açılırdı. Bu bizim onun üzərində işlədiyimizə görə deyildi. Düşünürəm ki, bu sadəcə, onun öz kimliyinə

dair narahat olmayaraq keçirdiyi kifayət qədər gözəl vaxtda yaşadıqlarının nəticəsi idi. Bir dəfə biz əyləncə mərkəzinə rolik sürməyə getdik; başqa vaxt isə biz yemək yeməyə getdik. Çox vaxt biz sadəcə restorana gedir və birlikdə yemək yeyirdik. Bir dəfə biz konki sürməyə çalışdıq. Kessi bu şeyləri etməyi xoşlayırdı.

Uşaqlar digərlərinin onlar haqqında nə düşündüklərinə fikir verməlidirlər; onlar düşünürlər ki, uşaq kimi ola bilməzlər. Onlar güman edirlər ki, orta məktəbə getdikləri ikinci gün onlar bacardıqları qədər yetkin olmalıdırlar. Amma gördüyüm qədər yeniyetmələr həqiqi olmaq və həqiqi olan insanlarla birlikdə olmaq istəyirlər – özlərini olduqları kimi aparan və başqalarının fikirlərlərinə baxmayan insanlarla.

Bir dəfə, Kessinin gəlməyə başlamasından bir il və ya daha çox vaxtdan sonra, mən ondan gənclər qrupunun onun üçün nə etdiyini soruşdum. O, dedi ki, həqiqətən bilmir, amma buraya gəlməkdən zəhləsi getsə də belə, gəldiyində ilk diqqət verdiyi şey hamının gülümsəməsi idi. «Hamı xoşbəxt idi, hamı yaxşı vaxt keçirirdi.» O, bu sevinci görmüşdü və bunu özü üçün də istəyirdi.

Bunun əvvəllər onu hirsləndirdiyini düşünürəm. O, hiss edirdi ki, bu oğlan və qızlarda elə bir şey var idi ki, onda yoxdur. Bu yalnız bir müddət sonra, onun hirslənməsi əvəzinə həmin şeyi axtarmağa başlaması ilə nəticələndi.

Sonra o həftə sonu düşərgəyə getdi və yalnız bundan sonra o, həqiqətən dəyişdi. Bu o demək deyil ki, Kessi qəfildən dindar adam oldu, onun danışığı dəyişdi, yaxud bunun kimi şeylər baş verdi. Onun xasiyyəti bütövlükdə necəsə dəyişdi. Mən, hətta onun bütün bu dini şeyləri anladığına əmin deyiləm – bilirsiniz də, insanlar yenidən doğulmaq, xilas olmaq və ya nəsə haqqında ondan soruşurdular. Amma o bilirdi ki, onun içindəki boşluğu indiyədək heç nəyin etmədiyi kimi dolduracaq bir şey tapıb və mən bu şeyləri onda ən çox əks etdirən onun gülümsəməsinin olduğunu düşündüm. O, gülümsəməyə başlamışdı.

∗ ∗ ∗ ∗

1997-ci il yayın axırlarında, Kessi birinci kursu bitirən vaxt, Bred və mən Kessinin XCM-dən Kolumbin orta məktəbinə keçməsinə

icazə verdik. Kessinin oraya daha əvvəl keçirilən bir dostu vardı və bundan az vaxt keçəndən sonra Kessi XCM-i nə qədər xoşlamadığını və dəhşətli dərəcədə Kolumbinə keçmək istədiyini deyərək bizi təngə gətirməyə başlamışdı.

Əvvəllər olsaydı, əlbəttə ki, biz onun bir dediyini iki etməzdik. Lakin indi bir neçə ay idi ki, özünü yaxşı aparırdı və biz fikirləşməyi qərara aldıq. Beləliklə, məktəbə gedib araşdırma apardıq. Biz digər valideynlərlə danışdıq və uşaqlara baxdıq. Bu vaxt isə həm Kessi, həm də onun dostları bizi birlikdə yola gətirirdilər. Nəhayət, biz təslim olduq. Amma biz ona xəbərdarlıq etdik: əgər biz hər hansı xırda da olsa belə, narahatçılıq hiss edəriksə – onun qiymətləri düşərsə, dərs buraxarsa, əgər səhv bir dəstə ilə gəzməyə başlarsa – bu hər şeyin sonu olacaqdı. O, bir göz qırpımında özünü özəl məktəbdə görə bilərdi.

Bir tərəfdən o, təsdiq edirdi, «Ana, mən Məsihçilik məktəbində olan uşaqlara şəhadət edə bilmərəm. Əgər mən adi məktəbdə oxusaydım daha çox adamlara bu haqda danışa bilərdim.» Mən onun bu sözləri deyərkən nəyi nəzərdə tutduğuna heç vaxt şübhə etmirdim – onun başqalarına «şəhadət etmək» arzusu həqiqət idi. Amma eyni zamanda, o, XCM-in darıxdırıcı olduğunu düşünürdü və yaxın dostlarla Kolumbinə getmək fikri onu daha çox cəlb edirdi.

Onun məqsədləri nə olur-olsun, Kessinin Kolumbindəki sinif yoldaşları deyir ki, hətta əgər o, yenicə tapmış imanını ciddi qəbul edirdisə də, bu haqda danışaraq özünə diqqət çəkənlərdən deyildi. Onlardan biri, Eliza, Kessi ölən vaxt aşağı kurs tələbəsi idi:

> Mən Aprelin iyirmisində onunla baş verənləri eşidəndə təəccüblənmədim. Bu Kessiyə oxşayırdı. Mən düşünürəm ki, onun etdiyi iş olduqca heyranediciydi – nə olursa olsun inandığının arxasında durmaq. Amma mən heç vaxt həqiqətən onun dini tərəfini bilməmişdim. Elə bil, o bunu başqalarına yeritmirdi. Bəli, bir dəfə o, sinifdə bu kiçik Müqəddəs kitabı oxuyurdu. Mən ondan nə etdiyini soruşdum və o dedi, «Müqəddəs kitab oxuyuram.» Amma bunun bizim dostluğumuza aidiyyəti yox idi.

Kessinin digər sinif yoldaşı Kayla da onun dini tərəfindən bixəbər idi, amma digər dostlarından fərqləndirən bir xüsusiyyəti olduğunu deyirdi:

> Mən Kessidə nəyin fərqli olduğunu izah edə bilmirəm – o sadəcə fərqli idi. O, məktəbdə danışdığı hər bir kəslə mehriban idi və heç vaxt kimisə geyiminə və ya görünüşünə görə mühakimə etmirdi.
>
> Mən onun dindar olması və bütün bu şeylər haqqında yalnız onun qətlindən sonra bildim. Biz başqa şeylər, məsələn, snoubord* haqqında danışırdıq. Mən ona snoubordu necə sürməyi bildiyimi, amma yaxşı dönə bilmədiyimi dedim və o, mənə, «Aa, mən sənə onun üzərində çalışmağı öyrədərəm; mən gələn həftə snoubord sürməyə gedirəm. Əgər mənimlə getmək istəsən, zəng vur» dedi. Beləliklə, biz birlikdə snoudord sürməyə getməyi planlaşdırırdıq. O, məni yaxşı tanımırdısa da belə, özü ilə snoubord sürməyə aparmağı təklif etdi.

Köhnə və yeni Kessi arasındakı digər fərq də onun zövqündəki dəyişiklik idi. Əvvəllər o ölümcül rok, vampirlər və özünə-zərər fikrinə tutulmuşdu; indi isə o, fotoqrafiya (onun ən sevimli fotoqrafı Doroteya Leynq idi), poeziya və təbiət ilə maraqlanırdı. Həyatının son Şənbə günü onu şam yeməyinə aparan dostu Amanda xatırlayır ki, Kessi həmçinin Şekspiri də sevirdi:

> Kessi onu sürətlə oxuyurdu. O, İngilis dili dərsi üçün dilin sözlərini ayrı-ayrı seçərək anladığına əmin olmaq üçün kitabxanada uzun vaxt keçirərdi. Amma onların hamısını xoşlamırdı. Biz Makbeti keçirdik – həmin ikinci gün kitabxanada oxuduğu da bu idi, çünki dərsində geri qalmışdı – və Kessi sadəcə bunu xoşlamırdı. O, deyirdi ki, bu çox qaranlıq, şər və ölüm haqqında idi. Demək olar ki, şərdir. Amma bundan savayı belə şeyləri xoşlayırdı.
>
> Bizim oxumalı olduğumuz və Kessinin xoşlamadığı digər bir şey də Kandide idi. O, deyirdi ki, yarısını başa düşmürdü, digər yarısını isə anlayırdı, amma onu xoşlamırdı, çünki kobudluq çox idi. Məncə bu onun xoşlamadığı kinayə idi – bu sadəcə onun necə olduğunun əksi idi. Bunun əvəzinə o, daha çox Çarlz Dikens və ya Emili Dikinsonun kitablarını oxuyardı. Biz İngilis-dili dərsində onun bəzi şerlərini öyrənmişdik və Kessi həqiqətən bununla maraqlanırdı.

* Qış idman növü

* * * *

Əgər dəyişmə baş verən yerdə böyümə varsa, həmçinin çətinliklər də olur. Kessiyə gəldikdə, şükür ki, biz daha çox dramatik vəziyyətlər görmədik və son iki ildə heç bir diqqətəlayiq şey baş vermədi. O, öz çəkisinə və görünüşünə görə, məktəbdəki və kilsədəki uşaqlarla yola getməsi haqqında narahat olurdu və indi hərdən bir kiçik qardaşı, atası və mənimlə toqquşurdu. Ceyminin dediyinə görə, Kessi ən azı bir müddət köhnə dostları üçün də darıxırdı.

> Kessi, o cür həyat istəmirdisə belə, dostlarının qayğısına qalırdı. Maykın və digər dostlarının onun evinin yanından keçərək qışqırmaları, hər halda Kolumbində oxumağa başlayana qədər bunu kifayət qədər tez-tez edirdilər, ona çox pis təsir edirdi. Onların Kessiyə qəsdən əzab verib-vermədiklərini bilmirəm, amma o belə hiss edirdi – onlar elə bil ki, Kessini onlarla ola bilmədiyinə görə ələ salırdılar. Onlar hələ də uzun vaxt Kessinin üzərində təsirə malik idilər və o, bu haqda danışardı: o bunu istəmirdi, lakin eyni zamanda edirdi, çünki dostlarını istəyirdi. O, təzyiq altından çıxmaq istədiyini deyərdi.
>
> Sonralar, buna baxmayaraq, o, onlar haqqında başqa cür danışmağa başladı. «Ah, biz bunu edərdik, onu edərdik və bu elə əyləncəli idi ki,» kimi sözlərinin əvəzinə, o, «Mən arzu edirəm ki, onlar da mənim tapdığımı tapsınlar və istəyirəm ki, onlar da dəyişsinlər» deyərdi. Onun tamamilə yeni münasibəti var idi. Aydın idi ki, o, hələ də köhnə dostlarının qayğısına qalırdı, amma indi bu fərqli bir qayğı idi.

Ceymi deyir ki, Kessinin sinif yoldaşları və yaşıdlarını incitməsi bir tərəfə, onun ən böyük başağrısı bizimlə, valideynləri ilə yola getmək idi:

> O, bəzən valideynlərinin onun şəxsiyyəti ilə deyil, yalnız hərəkətləri ilə maraqlandıqlarını hiss etdiyini deyirdi. Mən bunun əhəmiyyətinin olub-olmadığını bilmirəm, amma necəsə, o, hiss edirdi ki, əsil Kessinin əvəzinə, ata-anası daha çox onun başqalarının gözündə necə göründüyünün qayğısına qalırdılar və ya bəlkə də onun valideynlərini necə əks etdirdiyinin qayğısına qalırdılar. Valideynlərinin

həqiqətən onun qayğısına qaldığını görmək onun üçün çox çətin idi.

Sonra elə bil bizim əlaqəmiz itdi: o başqa məktəbə keçdi və mən yayda Oreqona getdim. Amma biz hələ də bəzən danışırdıq. Son söhbətlərimizdən birində o, dedi ki, böyüdüyünü hiss etdiyinə baxmayaraq, o, hələ də günaha olan bir çox sövqlərlə mübarizə aparır. O, deyirdi, «Mən imandan gələn hərəkətlər edirəm, mən bütün ruhani dərslərə gedirəm və gənclər qrupundakı hər kəs elə bilir ki, məndə hər şey yaxşıdır, amma daxilən mən bəzən elə hiss edirəm ki, əlaqəm kəsilib və Allahdan uzaqdayam.»

Bəzi dostlarından sən bir çox şeyləri gizlətməlisən, əks təqdirdə, etibarının pozulması təhlükəsi var. Kessi öz mübarizəsində çox real, çox səmimi idi. Biz özümüzü narahat edən şeylər haqqında danışa bilərdik və bir-birimiz üçün yaxşı görünməyə ehtiyac yox idi.

Ceymi kimi, Kessinin digər dostları və sinif yoldaşları da, mənə qızım haqqında başqa cür heç vaxt öyrənə bilmədiyim şeyləri deyiblər. Övladının gizlin fikirlərini yalnız onun ölümündən sonra öyrənmək müəyyən mənada qəribədir. Bəzən mən bütün bunlar haqqında fikirləşəndə, hətta ağlayır və arzulayıram ki, kaş onları daha əvvəl bilmiş olardım. Buna baxmayaraq, nəticədə bunlar mənə Kessini daha çox sevdirir.

Uest Boulesdən olan dostu Kassandra Kessinin həyatının son ilində ona xüsusilə yaxın idi:

Kessi və mən bəzən özünüdərk və özümüzü necə gördüyümüz haqda danışırdıq. O, doğrudan da arabir bununla mübarizə aparırdı. Bəzən o narahat olurdu ki, kifayət qədər gözəl deyildi, arıqlamalı olduğundan danışırdı, ya başqa cür bir şəxsiyyət olmağı arzu edərdi. Bu şeylər haqda fikirləşsə də belə, mən bilirəm ki, o heç vaxt bu fikirlərin onu idarə etməsinə icazə vermirdi. O, həmişə Allahı axtarırdı ki, ona bu şeylərdən azad olmağa kömək etsin və özünü olduğu kimi qəbul etsin.

Hal-hazırda düşünürəm ki, Kessini olduqca fərqləndirən bir xüsusiyyət də onun oğlanlara özünü bəyəndirməyə çalışmaması idi. Məncə, buna görə qızların çoxu onunla dostluq edirdi. Bilirsiz, əgər sizin məktəbdə gözə girən,

güləruz və çox ünsiyyətcil məşhur qızlar varsa, sən onlarla həqiqətən dostlaşa bilmirsən, çünki sənə elə gəlir ki, səndən çəkinirlər. Sən hardasa özünü rəqabətdə hiss edirsən.

Elə bil ki, sən kiminsə dostluğunu qazanmaq istəyirsən. Sən istəyirsən ki, onların səndən xoşu gəlsin, amma özün ola bilmirsən, beləliklə, bir növ sən maska geyinirsən. Kessi saxta olmaq istəmirdi. Heç kim onunla rəqabət aparmırdı və bu tamamilə bizim məktəbin ən azı qızları üçün və hətta bizim gənclər qrupu üçün heyranedici idi.

Mən Kessi haqqında fikirləşəndə həmişə Seynt Fransisin «sən, sevilməyi axtarmamalısan, daha çox sevməlisən» dediyi sözü düşünürəm. Bu elə bil ki, onda həkk olunmuşdu. Məncə Kessi hiss edirdi ki, yalnız Allah onu qane edə bilər və yəqin ki, onu xarici görkəminə görə dəli olmaqdan, özünə oğlan dostu axtarmaqdan və ya başqa şeylərdən saxlayan bu idi. O, məğlub olmağı qəbul etmirdi və öz problemlərinə arxada qalmış kimi baxaraq zəfər qazanmaq qərarına gəlmişdi.

Təxminən bir il əvvəl Kessinin Kassandraya yazdığı məktubun bir hissəsi onun fikrini təsdiqləyir:

Salam Kass! 28 iyul, 1998-ci il

Allahın mənim üçün, eyni zamanda başqaları üçün etdiyi hər bir şeyə görə çox minnətdaram. Hətta hər şey pis olsa da belə, o, mənim yanımda dayanmışdı və xırda şeylərin hisslərim vasitəsilə həddindən artıq şişirdilməsi indi daha az baş verir… Bilirsən, mənə maraqlıdır ki, Allah mənim həyatımla nə edəcək. Məqsədim nə olacaq? Bəzi insanlar missioner və s. olurlar. Bəs mən? Allah mənim üçün nə hazırlayıb? Mənim istedad və ənamlarım haradadır? Hələlik, mən bunları günü-gündən alıram. Mən arxayınam ki, bir gün biləcəyəm. Bəlkə də, mən geridə qalan həyatıma baxıb deyəcəm «Ah, axtardığım bu imiş!» Bizim bu planın bir hissəsi olmağımız heyrətamiz deyilmi?…

1998-ci ilin payızında, Kassandraya yazdığı digər məktubda Kessi belə yazır:

Əzizim Kass,

...Mən bilirəm ki, bunların hamısını Məsihə verməliyəm, amma bu çox çətindir. Mən hər şeyi çarmıxa gətirəndə görürəm ki, həyatımı özüm idarə etməyə çalışıram. O, dönə-dönə fırlanır və heç bir şeyin ucundan yapışa bilmirəm... Bircə mən qürurumu kənara qoya bilsəydim, nəhayət sülh hissi tapa bilər və Allahda böyüməyimin qarşısını alan divarı dağıda bilərdim.

Mən həm özümə, həm də Allaha qarşı səmimi olmalıyam və fikirləşməməliyəm ki, onu aldada bilərəm – axı, O Allahdır! Mən güzəştə gedə bilmərəm. Bu etinasız olmaq kimidir – mən belə davam etsəm o, məni tüpürüb atacaq. Mən bir gün özümü «normal» apararaq, özümü «insanlara müjdələdiyimə» inandırmaq və başqa bir gün də özümü Məsihə həsr etməyə çalışmaq üzərində qərarsızam. Mən istəmirəm ki, kimsə mənim haqqımda UBXC-dən olan ikiüzlü olduğumu fikirləşsin...

Yaxşı, mən uzun-uzadı davam edə bilərdim, amma mənim ev tapşırığım və etməli olduğum digər işlər var. Üstəlik, mən sənin kiçik gözəl beynini Kessinin etirafları ilə yormaq istəmirəm.

Bu məktublara baxmayaraq, Kassandra təsdiq edirdi ki, onların dostluğu «dərin» deyildi.

Bu belə deyil ki, biz həmişə bir-birimizdən ayrılmırdıq və s. O, insanlarla vaxt keçirməyi xoşlayırdı. Mən Sara və Kessi ilə şəhər mərkəzinə getməyimizi xatırlayıram. Mən və Sara söhbət edirdik, Kessi isə heç nə demirdi, sadəcə qulaq asırdı. O, dinləyən insanlardan idi. O, diqqət mərkəzində olmaq istəyən, diqqət tələb edən və ya eşidilməyi gözləyən bir kəs deyildi.

Bir dəfə də Kessi və mən foto şəkil çəkmə dərsindən mənim layihəmi bitirmək üçün görüşdük. Biz təbiət şəkilləri çəkmək üçün Diər Krik Dərəsinə getdik, amma hava soyuq, tutqun və çox pis idi və bu qolf kursunda maralın şəklini çəkməklə nəticələndi – amma, qəribə görünsə də, biz əla vaxt keçirdik.

Kessinin həyatının son iki ili haqqında qeyri-rəsmi müşahidələrindən danışan Deyv deyir ki, çox vaxt o digər qızlar kimi olurdu.

> Biz Şagirdlik haqqında kitabı öyrənirdik və o, birbaşa nikah haqqında olan fəsli açdı. Bu, normal idi. Başqa vaxtlar mən onun bu mövzudan kənar keçməyə çalışaraq, başqa şey axtardığını görmüşdüm. Məncə, Kessi «Əvvəlcə Allahın Səltənətini və Onun salehliyini axtarın; və bunların hamısı sizə əlavə olaraq veriləcək» ayəsini əks etdirirdi. Məncə, o həqiqətən bunu başa düşürdü – Allahı birinci tutmaq və başqa uşaqların etdiyi kimi bütün günü öz problemlərinə görə əzab çəkməmək.

Deyv deyir ki, ona ən çox təsir edən Kessinin öz seçimi ilə gənclər qrupunda qalması idi:

> Bizim qrupda olan uşaqların çoxu o qədər utancaq və özünə inamsız idilər ki, onlar heç vaxt çıxıb getməyə cəsarət etməzdilər. Onlar hara gedə bilərdilər? Kessi isə gördüyümə görə, istənilən vaxt kilsədən gedə bilər və yolunu məktəbdəki kimi hardasa başqa bir qrup dostlar arasında tapa bilərdi. Onun bizim qrupla qalmaq seçimi həqiqi idi.
>
> Mən Kessinin məqsədlərini izah edə bilmərəm. O, məşhur olmadığı üçün şikayətləndiyinə görə haqlı ola bilərdi. O, çıxıb gedə bilərdi. Amma elə bil ki, o, axırda öz-özünə: «Mən bununla qurtardım. Mən buraya özüm üçün başqa bir şey götürməyə gəlmirəm. Mən kömək etməyə, nəsə verməyə gəlirəm.» deyirdi. Biz bunu gənclər qrupunda Aprelin iyirmisinə yaxın müzakirə etmişdik. Əgər sən başqa insanlar üçün yaşamağa başlamasan, içini yeyib bitirəcəksən. Sən nəsə verməyə başlayanda, sanki sənin emosional ehtiyacların özləri mümkün qədər öz qayğılarına qalacaqlar.
>
> Əlbəttə, həmişə bunları başa düşmək, hiss etməkdən asandır. Mən bilirəm ki, Kessi üçün bu asan deyildi. O, çətinlik çəkirdi. Onun ölümündən əvvəlki Bazar ertəsi günü mən gənclər heyəti ilə görüşdüm və biz onu daha çox necə cəlb etmək haqqında müzakirə apardıq. Biz ona qrupa yardım etmək üçün daha çox imkan vermək və bununla da onun uyğunlaşa bilməməsinə görə keçirdiyi narahatçılıqlarına qalib gəlmək üçün kömək etmək istəyirdik.
>
> Gənclər qrupundakı uşaqların bəziləri əlaçı uşaqlardır – onlar danışa, rəqs edə bilir, onlar hər bir şənliyin canı

idilər. Kessi isə belə deyildi. Amma o, hələ də təslim olmurdu. Buna görə o, mənim üçün qəhrəman idi – çünki mən illər keçdikcə gündən-günə Kessi kimilərini görürdüm və onların çoxu sadəcə təslim olurdu.

Kessi yardım etmək, yaradıcı işlər görmək və nəsə vermək üçün çox susamışdı. Onun vəziyyətinə bənzər vəziyyətlərdə, uşaqlar tənha və bir az sıxıntıda olanda – bizdə belələri çoxdur – elə bil ki, sən onları başqalarını axtarmağa başlamağa razı salan kimi onlar canlanır. Xidmət belə bir vəziyyət üçün son cavab deyil. Amma o sənin həyatına məqsəd verir və məcbur edir ki, sən özün haqqında fikirləşməyə son qoyasan.

Lakin aşağıdakı məktublar göstərir ki, bu Kessinin hamı tanıdığı cəsur simasını saxlamağından qat-qat çətin imiş. Bred bu göndərilməmiş məktubu onun ölümündən tezliklə sonra paltar şkafında tapdı. Dəmir spirallı dəftərdə cızma-qara olunmuş, iki Yanvar 1999-cu ildə yazılmışdı, lakin heç kimə ünvanlanmamışdı:

...Mən heç vaxt olmaq istəmədiyim bir insan olmuşam. Mən sıxıntı içindəyəm... mən heç vaxt pis insan və ya narazı uşaq olmaq istəməmişəm. Mən insanlar tərəfindən cəzb olunmayan bir şəxsiyyət olmaq istəməmiş və ya bunu özüm seçməmişəm. Anam həmişə mənə deyirdi ki, müsbət fikirləşim və gülümsəyim – insanlar bunu daha tez görür və cəzb olunurlar. Kaş belə olardım. Çünki, mən insanların birlikdə olmağı xoşladığı şən, od parçası olmaq istəyərdim. Amma, mən belə deyiləm. Mən insanların axtardığı nikbin münasibətlə birlikdə parlaq şəxsiyyətə, heyranedici zəkaya, yumor hissinə və enerjiyə malik deyiləm.

...Bəzən elə bil ki, məni ən çox tərifləyən və ruhlandıran, məni ən çox sevdiklərini deyən insanlar, elə mənə badalaq vuran insanlardırlar... Kilsədəki oğlanlar, hətta bilmirlər ki, mən diriyəm. Halbuki, məktəbdəki oğlanlar mənə diqqət yetirir. Mən anladım ki, onların bəzilərinin məqsədi ehtirasdır. Həsrətində olduğum sevgi üçün onlara doğru getmək asan olardı. Mən demirəm ki, çıxıb cinsi əlaqədə olmaq istəyirəm və s. amma mən nə məktəbdə, nə də kilsədə dost tapa bilmirəm. İndiyə qədər mən dözümlü olmuşam və belə bir ehtiyaca təslim olmamışam, lakin bəzən qorxuram

> ki, daha yaralarıma qarşı dözümlü və səbirli ola bilmərəm.
> Xahiş edirəm ki, mənə nə düşündüyünü deyəsən.

Qoyduğu məktublar kimi gənclər qrupunda həftəlik oxuma sessiyalarında öyrəndikləri kitablar da – xüsusilə, Allah üçün yaşamaq haqqında düşüncələrində – həyatın mənasını tapmaq üçün onun axtarışlarını işıqlandırmışdır. Bred və mən onun ölümünə qədər bu kitabların ona nə qədər təsir etdiyini təsəvvür etmirdik, çünki o, heç vaxt oxuduğu şeylər haqda ən azı evdə danışmırdı. (Bəlkə – məktəbdəki vəziyyətdən göründüyü kimi – o, hiss edirdi ki, inanclarını yaşamağa çalışmaq onlar haqqında danışmaqdan vacibdir.) Lakin indi onlara baxanda, qeydlərin, altından xətt çəkilmiş sətirlərin və səmimi əlyazmalarının Kessiyə göstərdiyi təsir açıq-aşkardır.

Onun *Səyahət üçün çörək* – Henri Nouenin düşüncələri toplusu kitabında Kessinin qeyd etdiyi bir neçə hissələr ailə üzvləri və dostlarla münasibətə aid idi. Birincisi, «Olduğun kimi görün» adlandırılmış hissəsindədir.

> Tez-tez biz olduğumuz yerdən başqa bir yerdə və ya hətta olduğumuzdan fərqli biri olmaq istəyirik. Biz daim özümüzü digərləri ilə müqayisə etməyə can atır və niyə onlar kimi bu qədər dövlətli, ağıllı, sadə, açıqürəkli və ya müqəddəs olmadığımızı bilmək istəyirik. Bu cür müqayisələr özümüzü günahkar, utandırılmış və ya paxıl hiss etməyə məcbur edir... Hər birimiz həyatda başqa birinin edə bilmədiyini etməyə, konkret mənada burada və indi yerinə yetirməyə çağırılmış yeganə insanlarıq.
>
> Biz başqalarından pis və ya yaxşı olub-olmadığımızı başa düşməyə çalışaraq heç vaxt xoşbəxtlik tapmayacağıq. Biz öz çağırışımızı yerinə yetirmək üçün kifayət qədər yaxşıyıq. Olduğun kimi görün!

Digər səhifədə o bunların altından xətt çəkib:

> Biz valideynlərimizin, bacılarımızın, qardaşlarımızın, həyat yoldaşlarımızın, sevgililərimizin və dostlarımızın sevgisi olmadan yaşaya bilmərik. Sevgisiz biz ölərik. Hələ də, bəzi insanlara bu sevgi çox sınmış və məhdud şəkildə göstərilir. Bu rəqabət, paxıllıq, kinlilik, intiqam və hətta təhqir vasitəsilə

> ləkələnə bilər. Bizim ürəyimizin arzu etdiyi mükəmməl sevgi insani sevgi deyil və bəzən insan sevgisi o qədər natamamdır ki, biz onu çətinliklə sevgi kimi tanıya bilirik.

Bunun yanındakı haşiyədə o əlavə edib: «Rahatlıq üçün insani sevgi axtarma, lakin əvəzinə Allahın məhəbbətini axtar.»

Kessinin çox işarələdiyi digər kitab isə Haynriç Arnildsin «Şagirdlik: Gündəlik Çətinlikdə Məsih üçün Yaşamaq» kitabı idi. Bunda bir neçə altından xətt çəkilmiş sətirlər sanki yalnız onun ölümündən sonra gördüyümüz bir şeyi: keçmişindən azadlıq tapmaq üçün onun sakit, amma göründüyü kimi gərgin mübarizəsini əks etdirirdi. Bunlar sadəcə bir neçə misaldır:

> Müasir insan materialist düşünür; o, görmür ki, digər tərəfdə xeyir və şər qüvvələr var və onun həyat yolu ürəyinin qapısını üzünə açdığı qüvvədən asılıdır…
>
> Biz davamlı olaraq, orta məktəb və kolleclərdə şeytani şeylərə qoşuluruq. Bizim zəmanəmizdə okkultizm tez-tez tədqiqat aparılan bir elm hesab olunur… Stolları aşırmaq və ya ölü ilə danışmaq kimi mövhumatçı təcrübələr zərərsiz başlaya bilər, amma insan dərk etmədən bu şeylər onu şeytana bağlaya bilər. Onların İsaya olan həqiqi imanla heç bir əlaqəsi yoxdur.
>
> Məsih ən çox əzilmişləri və atılmışları öz nuruna döndərmək istəyir… O, məhz onları özünə gətirmişdir: natəmiz iş görənləri, vergi yığanları, fahişələri, insanlar tərəfindən nifrət edilənləri. O, cinə tutulmuşları mühakimə etmir; onları azad edir. Amma qaranlığın ifşa olunduğuna və qovulduğuna görə onların azad olunmasında bir hökm var.
>
> Bizə adi kilsə, yoxsa çarmıx yolu istədiyimizə qərar vermək çox vacibdir. Bu bizim üçün çox aydın olmalıdır: İsanın yolu çarmıx yoludur…

Bir fəsildə Kessi yalnız bir cümlənin altından xətt çəkib: «hamımız həyatı elə yaşamalıyıq ki, hər zaman əbədiliklə üzləşməyə hazır ola bilək.»

* * * *

Əksər qız-ana konfliktlərində (bizimkilər də şübhəsiz, fərqlənmir) məlum olan yüksək emosional riskləri nəzərə alsaq, Kessinin kökündən dəyişməsi bundan daha dramatik ola bilməzdi. Nə də, onun mənə sülh rəmzi kimi zeytun budağı təklif etməsi, yəni mən dəyişmişəm kəlməsini deməsi – daha cəsur və ya daha səmimi ola bilməzdi. Hələ də bizim bir çox mübahisələrimiz olurdu: çünki valideynlər gözləyirlər ki, uşaqları paltarlarını yataq otağının döşəməsinə atmasınlar, uzun-uzadı duş qəbul etməsinlər, maşını sürmək üçün və pul üçün mübahisə etməsinlər.

Kessini, xüsusilə də indi daha heç bir səhv etmədiyi bir vaxt müqəddəsləşdirmək olduqca asan olardı. İnsanlar onun gülümsəməyi, dinləmə bacarığı, fədakarlığı və qayğıkeş xarakterindən danışırdı. Bütün bu keyfiyyətlər onda vardı. Amma bunu da əlavə etmək vacibdir ki, mənim tanıdığım qızım eyni dərəcədə eqoist və inadcıl olmaqda bacarıqlı idi və bəzən o, özünü korlanmış iki yaşlı uşaq kimi aparırdı. Əlbəttə ki, o, ən pis gənclik üsyanı dövründən keçib, amma mən hələ də hər ananın gözlədiyi sonuncu qurtuluşu, qızımın həqiqi yetkinliyə çatmasını, həmfikir və dost olmasını gözləyirdim.

Biz Kuin stritdəki evimizdən köçəndən sonra, Kessi köhnə yataq otağı üçün nə qədər darıxdığı haqqında gileylənər və ya köhnə evi buradan nə qədər daha çox xoşladığını deməkdə davam edərdi. Açıq desək, yeni ev mənim istədiyim kimi deyildi, mətbəx daha kiçik idi, bütün ev rənglənməli və biz köçməmişdən əvvəl xalça yenilənməli idi. Dəyişikliyə tabe olmağa razılıq verməyimin bir səbəbi var idi və Kessinin, özünü bizim bunu kefimizdən etdiyimiz kimi aparması məni qəzəbləndirirdi.

Özümü zorla saxladığıma baxmayaraq, onun çiyinlərindən yapışaraq «bu sənə görə deyilmi və ilk yaşadığımız evdən sənin səhvlərinə görə köçmədikmi» deyə soruşmaq istəyirdim. Mən sevdiyim məhəlləni sənə görə tərk etmədikmi? Mən sənə görə dörd aydır ki, işimi dayandırıb istədiyim evi çox da yaxşı hesab etmədiyim evə dəyişməklə qurban vermədimmi? Onun üçün daha nə qədər qurban verməyimizi gözləyir?

Mən həmişə sonda bu hisslərin öhdəsindən gəlirdim, amma indi o yoxdur – indi onun üçün təhlükəsiz olacağını düşündüyümüz məktəbin özündə qatillə üz-üzə gəldiyi haqqında fikirləşəndə – bu köhnə hissləri partlama həddinə qaytarmaq üçün yetərlidir. Lakin

nəyisə başqa cür edə bilərdin deyə dizinə döyə bilərsən və eyni zamanda düzgün edib-etmədiyini bilə bilməzsən...

Digər mübahisəli məsələ isə Bredin aldığı, amma Kessinin sürməyi xoşladığı Bronko idi. Kessi həmişə onu «mənim Bronkom» adlandırar, Bred də gülümsəyər və «Yox, bu sənin sürməyinə icazə verdiyim Bronkodur. Yeri gəlmişkən, sevin ki, sürürsən.» deyərdi. Biz onunla razılığa gəldik ki, əgər o, rüblük qiymətlərini «dörd» olaraq saxlasa, ona Bronkodan istifadə etməyə icazə verəcəyik (o, yenə də istifadə etməmişdən əvvəl bizdən soruşmalı idi), yanacaqla sığorta haqqını da biz ödəyəcəyik. Onun qiymətləri dörddən aşağı düşən kimi (həmişə onun rüblük qiymətini aşağı salan triqonometriya idi) o, vəziyyəti yaxşılaşana qədər yanacağa və sığortaya görə özü pul ödəməli idi. Kessi, tez-tez hiss edirdi ki, biz onu təzyiq altına salırıq.

Mən ailə sirrimizi öz nöqteyi-nəzərimdən açıqladım. Amma indi ədalətli olar ki, mən Kassandraya yazdığı tarixi qoyulmamış məktubunda olduğu kimi Kessinin bunları öz nöqteyi-nəzərindən açıqlamasına imkan verim:

> Sən hələ kollec və başqa şeylərə baxmağa başlamamısan? Mən hələ yox. Bu hardasa dəhşətlidir. Kollecə qəbul olmaq artıq yaxınlaşır! Mən həqiqətən, İngiltərədə məktəbə getmək istəyirəm, baxmayaraq ki, mən buradan köçüb getməyə nifrət edərdim. Üstəlik, mən, hətta bilmirəm ki, bu Allahın mənim üçün olan planıdır, yoxsa, yox. Mən onun planını bilmirəm. Mən heç nə bilmirəm. Mən yaxşılaşmağa başlayırdım, yoluma qayıdırdım, amma indi, mən sıfıra qayıtmışam. İndi mən elə çətin vaxt yaşayıram! Anlamıram. Mənim ən çox ehtiyacım olan bir vaxtda Allah haradadır? İndiki kimi...
>
> Ən azını deyə bilərəm ki, ailə həyatı məni lap əldən salır. Anam da daim mənim günümdədir. Mən onu xoşbəxt etmək üçün o qədər çalışıram, amma heç nə əldə etmirəm, yalnız qaşqabaq görürəm. O, əmrlər verməkdən başqa heç nə etmir. Mən onun şəxsi qulu olmaqdan elə bezmişəm ki... Mən hər həftə evin yarısını təmizləyirəm, paltar yuyur və digər işlər görürəm, bundan başqa, mənim də öz həyatım var. Bunlar kilsə, məktəb, qalan ev tapşırığı, idmana ayırdığım vaxtlar, dayəliyim və başqa şeylər; bu hər həftə dəyişilirdi...

> Dayəlik etmək üçün çox pul ödənilmədiyinə görə, mənim çox $ yoxdur. Amma valideynlərim hələ də məni yanacağa və sığortaya görə pul ödəməyə məcbur edirlər. Mən etdiyim hər şeyə görə cibxərcliyi almıram. Və ən əsası da onlar istəyir ki, mənim «həqiqi» işim olsun. Off!!! Onlar deyirlər ki, məni başa düşürlər, anlayırlar, amma bu belə deyil. Onlar yeniyetmə olduğu vaxtdan indiyə kimi o qədər şey dəyişib ki! Mənim üzləşdiyim şeylərdən onların xəbəri yoxdur… Yaxşı, ürəyimi boşaltmağa imkan verdiyin üçün çox sağ ol. Belə imkan tez-tez olmur.
>
> Sevgilərlə, Kess.
>
> P.S. Mən hələ güclü qalmağa çalışıram. Mən Məsihi itirmək istəmirəm.

Nöqsanlar bir qırağa, Kessinin mələkyanı anları da olurdu. Onun əliaçıqlığı qarşısında aciz qalırdın və tez-tez belə də olurdu. Doğrudan da, ölümündən bir ay əvvəl o, sarışın uzun saçlarını kəsməkdən danışırdı. Belə ki, bundan kimyəvi şüalanmaya məruz qalmış uşaqlar üçün parik düzəltmək olardı. Bir dəfə də, o, bizim kilsənin Sudanda maliyyələşdirdiyi insan hüquqları layihəsinə kömək etmək üçün fonda 100$ verməyi qərara aldı. Mən ona demişdim, «Kessi, yüz dollar, vermək üçün böyük məbləğdir. Mən bilirəm ki, bu sənin dayəlikdən qazandığın puldur, bəs sən bunu yığmırdın?» Axırda, o, bu pulu gənclər qrupu ilə gələcək səyahətinə saxlamağı qərara aldı. Mən hələ də onu öz ürəyini dinləməyə qoymadığıma görə özümü qınayıram.



# Ölərək biz yaşayırıq

Məsih üçün ölmək asandır.

Onun üçün yaşamaq çətindir.

Ölmək yalnız bir və ya iki saat çəkir,

Amma Məsih üçün yaşamaq

Gündəlik ölüm deməkdir.

Bizə bu həyatın yalnız bir neçə ili ərzində

Bir-birimizə və Məsihə xidmət etmək imtiyazı

verilir...

Bizim səmavi səltənətimiz əbədi olacaq,

Amma burada xidmət etmək üçün yalnız qısa

vaxtımız var və ona görə də bu imkanı boşuna

sərf etməməliyik.

**Sadhu Sundar Sinqx**

# 7. Ölərək biz yaşayırıq

Kolumbindəki atışma günü Kessinin onu öldürən oğlanlarla olan danışığı haqqındakı hekayə xalq arasında sərlövhə oldu və növbəti gündən insanlar onu «Litltonun şəhidi» adlandırmağa başladılar. Əvvəl mən bunu necə qəbul etməyimə çox əmin deyildim. Mən düşündüm, Kessi mənim qızımdır. Siz onu Janna D'arka çevirə bilməzsiniz.

Lüğətə əsaslanaraq, Yunanca *martyria* şəhid deməkdir və terror və işgəncənin qarşısında, öz imanından dönməkdən imtina edənlərə aiddir. Bu cəhətdən Kessini şəhid adlandırmaq çox da yanlış deyil. Çikaqo Tribunda felyetonçunun yazdığı kimi, Kessi «zorakılıq və ölümün içində qərq olan gənc mədəniyyəti təmsil edən yaşıdları tərəfindən sınanmış və edam olunmuşdu.» Amma Kessinin ölümü şəhidlikdirsə, bu qeyri-adi bir şeydir. Mən bunu ona görə deyirəm ki, o, şəhid olmazdan əvvəl yeniyetmə idi.

Mən onun cəsarətini kiçiltmirəm. Mən onun təslim olmağa etiraz etməsi və qatillərə «bəli» deməsi ilə fəxr edirəm və həmişə edəcəyəm. Onun öz prinsipləri və mənəviyyatı vardı və Kessi bütün cəsarətini toplamalı olsa belə onlardan heç vaxt utanmazdı. Mən ilk dəfə onun nə etdiyini eşidəndə, Bredə baxdım və fikirləşdim «Mən belə edərdimmi?» Mən həyatıma görə yalvara bilərdim. Kessi belə etmədi. Onun on yeddi yaşı vardısa da, o, mənim nə vaxtsa, ola biləcəyimdən daha çox güclü qadın idi.

O, indi də parlaq nümunə kimi nəzərə çarpmağa və ya təriflənmək üçün seçilməyə nifrət edərdi. Hər halda, o, həmin gün orta məktəbdə öz sözünün üstündə durduğuna görə cavab verən yeganə adam deyildi. Etirazını bildirəndən və dəfələrlə ona atəş açdıqdan sonra bərkdən «Ay Allah, Ay Allah,» qışqıran silahlılardan biri sinif yoldaşı Valin Şnördan «Allaha inanırsanmı» deyə soruşdu. Kessi kimi Valin də inandığını dedi; ondan fərqli olaraq Valin möcüzəli şəkildə sağ qaldı.

Digər sinif yoldaşı, Reyçl Skott da görünür öz prinsiplərinə görə hədəfə alınmışdı – hər halda onun dostu Andreanın dediyindən:

> Reyçl düşündüyünün arxasında durdu və əvəzini ödədi. O, Erik və Dilanla bir sinifdə oxuyurdu və mən Reyçlın onların belə qanlı videolarını xoşlamadığını və zorakılıqlarının onun ürəyini bulandırdığını dediyini eşitmişdim. Onun özü əla musiqili filmlər düzəltməklə məşğul olurdu. Bilmək olmaz, bəlkə, ondan qisas alırdılar.

Kessinin gənclər qrupundakı Kolumbin orta məktəbində oxuyan 47 nəfər uşağın dediyinə görə gün ərzində həmçinin başqa fədakarlıq və qoçaqlıq hərəkətləri də oldu. Siniflərin birində müəllim otağı qaranlıqlaşdırıb atəş açanları otağın boş olduğuna inandırmaq üçün işıq lampalarını çəkib çıxardı. Bir oğlan silah atəşindən qorumaq üçün özünü bacısının üstünə tulladı ki, güllələr ona dəysin. Bir başqası, hətta özü yaralandısa belə, bombanı qapıb bir qrup tələbə yoldaşlarından kənara atmışdı. Müəllim Deyv Sanders qatillər yaxınlaşanda dəhlizdə durub ona tərəf gələn tələbələrə mane olur və təhlükəsizlik üçün digər yolla qaçmağa tələsdirirdi. Bir neçə dəqiqədən sonra o, güllələnmişdi və xilasetmə dəstəsi ona çatanadək ölənə qədər qan itirmişdi.

Hətta Kessi tək olmuş olsa da belə, o, ucaldılmağa nifrət edərdi. Kassandranın bu yaxınlarda mənə dediyi kimi:

> Bilmirəm Kessi «şəhid» damğasına necə cavab verərdi. O, «Mən buna heç layiq deyiləm» deyib və bəzi insanların etdiyi kimi sonradan bunu necəsə qəbul etməzdi. «Mən həqiqətən buna layiq deyiləm, amma eybi yoxdur – istədiyiniz tərifi mənə yağdırın.» Kessi belə etməzdi.
>
> Bir dəfə bir neçə ay bundan əvvəl biz söhbət edirdik və o, mənə dedi, «Bilirsən, mən artıq, hətta Allahı hiss etmirəm. Allah olduqca uzaq görünür. Mən irəliyə getməyə davam edirəm, amma hal-hazırda bu mənim üçün həqiqətən çətindir; sadəcə mən artıq onu hiss etmirəm.» O, saxtakarlıq edib «Mən sadəcə yaxşıyam.» deyənlərdən deyildi. Nadir hal olsa da, Kessi onu narahat edən şeylər və ya nədən keçdiyi haqda tamamilə səmimi olurdu. Mən bunu daha çox qiymətləndirməyi öyrəndim.
>
> Bir dəfə biz İsanın riyakarlara onların zahirən təmiz görünsələr də, bunun yalnız təmizə çıxarma olmasını dediyindən danışırdıq – daxildə onlar dəri və sümükdürlər. Biz ikiüzlülüyün nə olduğu, özünü qələmə vermək və bunu

> saxtalaşdırmağın nə qədər asan olduğu haqqında danışırdıq. Sən öz Müqəddəs Kitabını oxuyursan və müəyyən bir formada danışırsan və birdən... – sən avtomatik olaraq yaxşı bir Məsihçi kimi qəbul olunursan. Kessi bunu qəbul edə bilmirdi.
>
> İnsanlar Kessini şəhid adlandıra bilərlər, amma onlar əgər Kessinin saleh, müqəddəs şəxs və onun gördüyü işin yalnız Müqəddəs Kitab oxumaq olduğunu düşünürlərsə, yanılırlar. Çünki o, elə deyildi. O, sadəcə başqaları kimi idi. Qazandığı bütün reklam ilə – hekayələr, köynəklər, internet saytları, düymələr, sancaqlar – düşünürəm ki, o, dəli olardı. Bəlkə də indi, o, buna göylərdə gözlərini bərəldir və «aman Allah» deyir. Çünki ona heyran olanlara başqalarından həqiqətən fərqlənmədiyini demək istəyərdi.

Kessini şəhid kimi ucaltmaq artıq şeydir. Bu onun həyatındakı hadisələri dəyişməyəcək. Hər nə səbəb olsa da, Kessinin inandıqlarının arxasında durmasını bilmək Bred və mənim üçün kifayət idi. Xarici görkəmin ən vacib olduğu bir yaşda Kessinin sözünün üstündə durmaqdan utanmadığını və ya düşündüyünü deməkdən qorxmadığını bilmək kifayətdir.

Əlbəttə, həmişə suallar cavabdan çox olur. Əgər o, xeyr desəydi və ya heç nə deməsəydi nə olardı? Görəsən ona toxunardılarmı? Bu görünür ən çox verilən sualdır – mən onun yerinə olsaydım nə edərdim? Bu şeylərə görə narahat olmaq təbii olsa da, xüsusilə faydalı deyil. Silahın ucuna dirənmiş halda ölümü qarşılayan insan nadir insandır və qəhrəmancasına ölmək daha nadir haldır.

Kessinin ölümündə əsas məsələ onun qatillərə dediyi deyil, onun bunu etməsinə nəyin imkan yaratdığı idi. Mən demirəm ki, o, özünü şüurlu olaraq dəhşətli sona hazırlamışdı. Mən əminəm, onun ölüm arzusu yox idi və bunun əksini düşünmək yaxşı olmazdı. Buna baxmayaraq, faciə ona gözlənilməz olsa da, o, sakit və cəsarətli idi. O, getməyə hazır idi. Niyə?

Kolumbindəki atışmadan sonra, ilk Bazar günü xidmətlərinin birində Deyv dedi ki, Kessi yalnız Aprelin iyirmisi ölməyib, iki il əvvəldən bəri hər gün ölürdü. Əvvəl, bu fikir mənə xoşagəlməz, hətta qeyri-sağlam belə göründü. Lakin getdikcə mən bunun haqqında fikirləşərək daha çox belə qənaətə gəlirəm ki, bu onun son dəqiqələrini açmaq – və buna qədərki həyat yolunu anlamaq üçün vacib açardır.

> Kessi də hər kəs kimi çətinlik çəkirdi, amma o, Məsihin onda yaşamasına imkan vermək üçün nə etməli olduğunu bilirdi. Bu özü üçün ölmək adlandırılır və bu gündəlik edilməliydi. Bu xudbin həyatı sındırmağı öyrənmək deməkdir... Bu mənfi bir şey deyil, yalnız öz həyatını daha dolğun yaşamaq üçün azadlıq yoludur.
>
> Dünya Kessinin Aprelin iyirmisində dediyi «bəli» sözünə baxır, amma biz onun son dediyi «bəli» cavabına qədər günlərcə, aylarca dediyi «bəli» cavabına baxmalıyıq.

Bir neçə həftə sonra Deyv və mən Kessi haqqında danışırdıq və o, özümüz üçün ölməyin nə demək olduğunu mənə başa saldı:

> Bu, İsanın «kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim canını itirsə, onu qurtaracaqdır» dediyi söz ilə eynidir. Ölümündən çox-çox əvvəl Kessi qərara aldı ki, özünə fikir vermək əvəzinə – hər şeyi öz istədiyi kimi etmək əvəzinə və həyatın ona nə təklif etdiyini bilmək istəməyin əvəzinə – özünün həyatı üçün nə edə biləcəkdisə onu da etsin.
>
> Bu böyük işlər görmək məsələsi deyil, lakin kiçik şeylərdə fədakar olmaq məsələsidir. Kessi bizimlə şəhərin qaynar hissəsinə, kokainə aludə olanlar üçün xidmətə gedərdi. Biz oğlanlarla yemək yeyər, basketbol oynayar və ya sadəcə onlarla vaxt keçirərdik. Fədakarlıq da elə budur – bir insandan uzaq olmaq istəsən də eyni vaxtda ona salam verib əlini sıxırsan. Əl uzatmaq – sənin şəxsi xoşbəxtliyin və rahatlığından daha artıq olan bir şey üçün özünü qurban verməyə hazır olmaqdır.

Uest Boulesin üzvlərindən və gənclər qrupunun könüllülərindən olan tələbə yaşlı Cordan deyir ki, Kessi bu fədakarlığı bir çox kiçik yollarla göstərmişdi:

> Kolumbindəki hadisədən üç və ya dörd həftə əvvəl mən onu maşınla ad günü şənliyinə apardım. Qızlardan təxminən dördü orada ətrafda dayanmışdı və öz çəkiləri, görünüşləri haqqında danışırdılar. Kessi dedi ki, bu kiçik mənalı şeylər haqqında danışmaqdan olduqca yorulub. O, dedi ki, bunlara son qoyub – necə göründüklərinə görə kədərləndirməkdən savayı bu heç kimə heç nə vermir. O,

> bizim özümüz haqqında fikirləşməyə son qoymaq, başqaları və həyatda daha vacib olan şeylər haqqında fikirləşməyimizi istəyirdi.

Şauna da (Kessinin Uest Boulesə gəldiyi ilk axşam onu qarşılayan işçi) buna bənzər hadisələri xatırlayır:

> Bir gün o, ağlayaraq mənim yanıma gəldi. O, mənim arxamca etdiyi söhbətdən daxili əzab çəkirdi. Mən fikirləşmirəm ki, o, nəsə demişdi. O, sadəcə mənim haqqımda mənfi rəy və ya dedi-qodu eşitmiş, məni müdafiə etməmişdi və buna görə də, özünü təqsirkar hiss edirdi. Budur, iki gündən sonra o, göz yaşları içində mənim yanıma gəldi və «Mən demək istəyirəm ki, sənə xəyanət etdim, məni bağışla. Ümid edirəm ki, məni bağışlaya bilərsən.» dedi. Əvvəllər heç kim mənə qarşı belə olmamışdı.

Kessi təbiətən özünə əmin və ya xüsusilə tez dil tapan deyildi və onun özünü bu yolla alçaltmasının nə qədər çətin olduğunu təsəvvür edə bilmirəm. Amma o, düz bildiyindən möhkəm yapışmağa qətiyyətli, öz qorxu və zəiflikləri ilə mübarizə aparmağa hazır idi. Və sonda, hətta o, heç vaxt bunları tamamilə dəf edə bilmədisə də, onun kim olduğu haqqındakı əminliyi və nəyin arxasında durması o qədər güclü idi ki, heç kim bunu onun əlindən ala bilməzdi.

∗ ∗ ∗ ∗

Kessinin ölümündən təqribən bir həftə və ya daha əvvəl biz mətbəxdə oturub danışırdıq və gəlib ölüm mövzusuna çatdıq. Necə olduğunu xatırlamıram. O, dedi, «Ana, mən ölümdən qorxmuram, çünki Səmavi Səltənətdə olacağam.» Mən ona dedim ki, onun ölümünü təsəvvür edə bilmərəm – mən onsuz yaşamaq fikrinə dözə bilmərəm. O, cavab verdi, «Amma ana, sən bilərsən ki, mən daha yaxşı yerdəyəm. Sən mənə görə xoşbəxt olmazsan?»

Bəzən onun düşüncələri o qədər yetkin, cavab axtardığı suallar isə elə olurdu ki, bizi utandırırdı. Amma bu yalnız keçmişə baxanda belədir – onun dostlarından eşitdiyimiz lətifələri, onun ölümündən bəri qarşılaşdığımız qeydləri və məktubları vasitəsilə – onun ən dərin fikirlərini anlamağa başladıq. Bu qeydlərin birində, «1998-ci il» qeyd olunmuş kağız parçasında o yazır:

> Allah mənim nəyisə etməyimi istəməyəndə, bunu dəqiq bilirəm. Mənim nəyisə etməyimi istəyəndə də, hətta əgər bu mənim rahatlığımı tərk etməyim deməkdirsə belə, mən bunu da bilirəm. Mən özümü getməli olduğum istiqamətə məcbur edildiyimi hiss edirəm... Mən məktəbdə öz imanımın arxasında durmağa çalışıram. Bu ruhdan sala bilər, amma həmçinin, mükafatlar da gətirə bilər... Mən Allahım üçün öləcəyəm. Mən imanım üçün öləcəyəm. Bu mənə görə ölən Məsih üçün edə biləcəyim ən kiçik bir şeydir.

Həyatının son iki ayı ərzində onun başı gənclər qrupunun həftəlik müzakirə üçün seçdiyi *Sülhü axtarmaq* kitabına qarışmışdı. Bir və ya iki il əvvəl bizim kilsədə danışmış müəllif Yohan Kristof Arnold (o vaxtdan bəri Kessinin ən sevimli yazıçılarından birinə çevrilmişdi) tərəfindən yazılmış bu kitab elə bil ki, onun əvvəl oxuduğu kitablardan fərqli olaraq bərk sarsıtmışdı. Dostu Amandanın dediyinə görə Kessi bu haqda danışmaqdan bezmirdi: «Kessi bu kitaba məftun olmuşdu. O, həmişə mənə onun haqqında danışırdı. Məndə o kitabdan yox idi, amma o, öz kitablarını mənimlə bölüşərdi.» Adəti üzrə, o, ən sevimli hissələrini qeyd etmişdi. Onun gənclər qrupunun Aprelin iyirmisi axşamı müzakirə etməyə planlaşdırdığı, amma heç vaxt etmədiyi hissədən üçü bunlardır.

> Tapana qədər axtar və təslim olma. Həmçinin, inanmadığını fikirləşsən də belə, dua et, çünki Allah, hətta «imansız» da inildəyəndə eşidir. Allah sənə vəziyyətdən çıxmağa kömək edəcək. Təslim olma, hər şeydən əvvəl, həqiqətdə nə lazım olduğunu bilirsən və səni bu ehtiyaclardan yayındıran şövqlərdən uzaq dur. Əgər yıxılsan, yenidən özünü topla və yoluna qayıt.
>
> İnsanı əmin olduğu şeydə çaşdıran ən böyük çağırış bizim bəşəri ölüm qorxumuzdur. Hətta sülhə qarşı olan təhlükəyə imandan gələn əminlik və həvari Yəhyanın dediyi kimi qorxunu qovan məhəbbət vasitəsilə qalib gəlmək olar.
>
> Başqaları kimi, (Martin Lüter) Kinq də yəqin ki, ölümdən qorxurdu, buna baxmayaraq... o, dərin sükut və sülh əks etdirirdi. Tapşırığına qarşı heç bir şübhəsi olmayan və onu həyata keçirməyin dəyəri haqqında heç bir qorxusu olmayan

bir insan var idi. O, 1963-cü ildə vətəndaş hüquqları yürüşündə belə demişdi, «Əgər insanın qorxusu varsa, o, azad deyil.» «Amma sən ölüm qorxusu üzərində qələbə çaldığın dəqiqədən azadsan… Mən sizi inandırıram ki, əgər insan uğrunda öləcəyi bir şeyi aşkar etməyibsə, o, yaşamaq üçün yaramır.»



# Düşüncələr

İddiam budur ki, dünya fanidir,

Əzabları, ağrıları Labüddür.

Bəs nə olsun?

İddiam budur ki, ölüm labüddür

Ən güclü belə

Məhvə məhkumdur

Bəs nə olsun?

İddiam budur ki,

Hər cür bərabərlik mövcuddur.

Bəs nə olsun?

**Emili Dikinson**

# 8. Düşüncələr

Ölüm bizim hadisədə olduğu kimi adama yaxından zərbə vuranda, demək olar ki, sənin həyata baxışını dəyişmədən yoluna davam etmək qeyri-mümkündür. Şübhəsiz, biz bilirik ki, hamımız sabah ölə bilərik – bizi maşın vura bilər, qəfil ürəyimiz tuta bilər və ya hər hansı başqa bir hadisə. Biz bu mümkünlüyün reallığı bizə toxunanadək, çətin ki, bunun nə demək olduğu haqda düşünməyə nə vaxtsa həqiqətən son qoyaq. Bəlkə də ona görə, K. S. Luis həyat yoldaşını xərçəng xəstəliyinə görə itirəndən sonra belə yazmışdı, «İnsanı heç nə sarsıda bilməz, hər halda mənim kimi bir insanı... O, özünə gəlməmişdən əvvəl yaxşıca silkələnməlidir.» Əgər Kolumbindəki faciə nəsə etdisə, mən əminəm ki, ən azı bunu çatdırdı. Bu bizi yolumuzda dayandıran bir silkələnmə oldu və bizi gündəlik həyatımızın kiçik mənalı qayğılarından başımızı qaldırıb baxmağa vadar etdi.

Mən Kessinin öldüyü və ya sağ olduğu xəbərini gözlədiyimiz sonsuz saatlar ərzində öz-özümə əgər o sağ qalsa, onun Kembricə getməsinə imkan yaratmaq üçün əlimdən gələn imkanı yaradacağımı necə dediyimi heç vaxt unutmayacağam. Niyə mən onun həvəsini boğmağa tələsdim? Mən gördüm ki, həmçinin, başqa mübahisələr haqqında da düşünürəm və arzu edirəm ki, ona indi və o vaxt daha çox sərbəstlik vermiş olardım. Mübahisələr yanacağa görə ödənişlər, paltar almaq, xalçanın üstünə ləkə salmaq və bunun kimi digər başqa şeylərə görə idi.

Peşmançılıqlardan danışırıqsa, onda icazə verin mən qarajda olan bir şey haqqında deyim. Keçən yay, Kessi və Kris gənclər qrupu ilə Çikaqoda olarkən, mən özümə Ford Expedişn markalı maşın aldım. Kessi səyahət üçün özü pul toplamalı olduğuna görə gileylənirdi və əvvəlki illər boyu verdiyimiz bütün qurbanlardan sonra mən dilxor olmuşdum. Özüm üçün bir şey etməyin tam vaxtı idi. Hər halda, bunu sonra belə izah etdim. İndi bütün bunlar uşaqlıqdır və hər dəfə mən onu sürəndə bu avtomobilin ölçüsü ürəyimdəki boşluğu artırır.

Kessinin həyat sığortasını toplamaq daha çətin idi. Kimsə bizdən imtiyaz haqqında soruşana qədər mən, hətta unutmuşdum ki, bizim

sığorta polisimiz var. (Bu Bredin fikri idi, beləliklə, əgər uşaqlar kimi görünür birinin başına nəsə gələrsə, biz dəfn məsrəflərini ödəyə bilək.) Biz bu pulu götürərkən özümüzü olduqca dəhşətli hiss edirdik – guya ki, biz öz uşağımızın qətlindən mənfəət əldə edirik. İpoteka borcunu azaltmaqdan başqa bununla nə edə bilərdik? Kessinin ölümü bizi həddən artıq çox olan dərsləri başqalarına danışmaqdan qat-qat çox, bizi sonsuz ziddiyyətli emosiyalar cəngəlliyinə saldı. Bəzən biz irəliyə doğru hərəkət edir, bəzən isə dolaşığa düşür, yıxılırdıq. Hisslərimiz nifrət və qəzəblə dolurdu. Onlarla mübarizə apardığımı qəbul etməmək səmimiyyətdən kənar olardı. Bred daim təkrar edir ki, buna dözməyə vadar edən bir şey varsa, bu da Kessinin Səmavi Səltənətdə olması həqiqətidir. Əlbəttə, bu təsəllivericidir, amma onu itirməyin ağrısını azaltmır. Hələ də, hər dəfə gedib onun çarpayısında oturmaq və onun heç vaxt yenidən bu otağa girməyəcəyini dərk etmək təzə yara kimi məni incidir.

∗ ∗ ∗ ∗

Atışmadan sonra Klement parkında qurulmuş müvəqqəti abidənin bir hissəsi olaraq, on beş çarmıx düzülmüşdü: on üçü qurbanlar üçün, ikisi qatillər üçün. İnsanların çoxunun son iki çarmıxa görə məyus olması qəribə deyildi. Hətta gələnlərdən biri onlardan birinin üstünə «əclaf» sözü yazmışdı. Mən kiminsə belə bir şey edə biləcəyini başa düşürəm, amma digər tərəfdən, bu məni narahat edir. Bu cür qəzəb dağıdıcı hissdir. O, səndə olan sülhü getdikcə söndürür və sonda bu başlanğıcda yaranan ağrıdan daha böyük acı gətirir. Bu həmçinin, əgər sən daxilindəki kinin böyüməsinə imkan verirsənsə, başqalarının sənə təsəlli verməsini çətinləşdirir. Bu o demək deyil ki, guya məndə onun toxumları yoxdur – bilirəm ki, var – amma mən başqa insanların onları sulamasına imkan verə bilmərəm.

Burada həmçinin, intiqam məsələsi də var. Mən düşünürəm ki, məhkəmə prosesi qaldırmaq və ya başqa ölçülərlə cavab qaytarmağı arzulamaq normaldır. Amma Kessinin qatillərinə gəldikdə, biz heç vaxt onların ailələrinin dalınca qaça bilməzdik. Əgər biz onları məhkəməyə versəydik və məhkəməni qazansaydıq belə, heç bir pul məbləği bizim uşaqlarımızı geri qaytarmayacaqdı. Bundan başqa, onlar da uşaqlarını itiriblər və onların kədərinin də bizimkindən guya az olduğunu düşünərək bunu etmək qəddarlıq olardı.

Biz Harrisləri və Kliboldları əhatə edən mübahisələrdən

xəbərdar idik. Bəziləri deyir ki, onlar başısoyuq valideynlərdir; bəziləri isə deyir ki, onlar sadəcə uzaq və ya sadəlövhdürlər. Nə bilmək olar? Günahkar olsalar da, olmasalar da biz sadəcə onları silib ata bilməzdik. Xüsusən Kessinin ölümündən bir ay sonra poçt qutumuzda belə bir əllə yazılan açıqca tapandan sonra bunu edə bilməzdik:

Əziz Bernallar ailəsi,

Gözəl qızınız Kessini itirməyinizə görə öz dərin kədərimizi çətinlik və başıaşağılıqla yazaraq ifadə edirik. O, bu dünyaya sevinc və məhəbbət gətirmişdi və axmaqlıq nəticəsində bu dünyadan getdi. Kaş ki, onu tanımaq imkanımız olaydı və onun sevən ruhundan ruhlanardıq.

Biz heç vaxt bu faciənin niyə baş verdiyini və ya bunun qarşısını almaq üçün nə edə biləcəyimizi anlamayacağıq. Biz oğlumuzun sizin Kessinin ölümündə iştirakına görə üzr istəyirik. Bütün dünya ilə birgə televizordakı köməksiz dəhşətə baxdığımız vaxta qədər Dilanın həyatının son anlarınadək bu qədər hirs və nifrətini görməmişdik. Oğlumuzun bu faciənin məsuliyyətində şərik olması həqiqətini hələ də dərk etmək bizim üçün ağlasığmaz dərəcədə çətindir. Qoy Allah sizə və sizin sevdiklərinizə təsəlli versin. Qoy O, hamımızın yaralı ürəyinə sülh və anlayış gətirsin.

Səmimiyyətlə,<br>Syu və Tom Klibold

Bəziləri üçün Kliboldların məktubuna laqeyd qalmaq və ya orada daha çox şeyin deyilməsini arzu etmək şirnikləndirici ola bilərdi – biz edə bilmirik. Bir tərəfdən, bunu yazıb göndərmək onlardan böyük cəsarət tələb etmişdir. Digər tərəfdən, eyni anlaşılmaz bəlada uşaqlarımızı itirdiyimizə görə, biz yalnız onların əzablarını bölüşə bilərdik.

Hətta Kessi sağ olsaydı belə, biz onların ağrılarını və təvazökarlıqlarını anlaya bilərdik. O, istiqamətini dəyişməmişdən əvvəl biz necə ona görə əziyyət çəkirdiksə, şübhəsiz, qatilin də valideynləri ona görə eyni əziyyəti indi çəkirlər. Hətta biz başqa kədərlərimizin ağırlığını heç vaxt müqayisə edə bilməsək də, bizim heç olmazsa, bir təskinliyimiz var: bu, qızımızın mərdliklə öldüyünü bilməyimiz

idi. Onların hansı təskinliyi var?

Biz Kolumbində baş verənləri poza bilmərik, amma mən əminəm ki, biz eyni cür faciələrin baş verməsinin qarşısını ala bilərik. Mən əminəm ki, əllərimizi qaldırıb təslim olmamışdan və ən pis qorxularımızın həqiqətə çevrilməsinə baxmağa məcbur edilməmişdən qabaq cəmiyyətdən uzaqlaşmış və düşmənə çevrilmiş yeniyetmələrə gecikmədən yetişmək yolu olmalıdır. Kessinin qısa həyatından bir şey öyrəndim ki, yeniyetmə nə qədər üsyankar olsa belə, tale tərəfindən məhkum olunmur. İsti münasibətlə, özünü-qurban verməklə və səmimiyyətlə – tamamilə Allahdan gələn məhəbbətlə – hər bir uşaq tərbiyə və xilas oluna bilər. Mən heç vaxt ən azı bu ümidimi itirməyəcəyəm.

∗ ∗ ∗ ∗

Kessinin ölümündən sonra Bred və mənim tamamilə hazır olmadığımız vəziyyət o idi ki, bunun təsiri Litlton şəhərindən də uzaqlara gedib çıxmışdı. Hər bir ştatdan, həmçinin dünyanın bütün ölkələrindən məktublar axışırdı – İngiltərə, Yamayka, Fransa, Almaniya, Avstraliya və Peru. Bir anlığa poçt axını o qədər artdı ki, bütün qonaq otağımız hədiyyələr, məktublar və açıqcalarla dolmuşdu.

Foyeniksdən olan on yeddi yaşlı Skot yazırdı ki, Kessinin ölümü onun ürəyinin dərinliyinə toxundu və həyatını tamamilə dəyişdi. Hondurasda olan küçə uşaqları üçün uzun müddət evin əsasını qoymağı arzulayan Cənubi Karolinalı həkim, öz planlarında addım atdığını hiss etdi və bu məktub yazılan vaxt yetimlər evi tikilirdi. Pensilvaniyada gənc ailə Kessinin əhvalatından təsirlənərək yeni qız övladlarını onun şərəfinə adlandırmışdılar.

Televiziya şəbəkəsinin və internetin yardımı ilə Litltondan olan xəbərlər hətta Afrika kəndlərinə də çatmışdı. Bizim dostlarımız Sudanın təcrid olunmuş ərazisinə səyahət edəndə, onlar Kessi haqqında soruşan və onun üçün xatirə abidəsi qoymaq istəyən kəndlilərlə görüşmüşdülər.

Əlbəttə, Kessinin ölümündən ən çox təsirlənən insanlar onu yaxşı tanıyanlar idi – qardaşı, Uest Boulesdəki yaşıdları və Kolumbindəki sinif yoldaşları. Krisə gəldikdə, o, bacısını itirməsinə baxmayaraq, özünü yaxşı idarə edirdi. Əlbəttə, onun da öz çətin anları olub. Onunla Kessi öz yaşlarında olan bacı-qardaşlara görə qeyri-adi dərəcədə yaxın idilər və Aprelin iyirmisindən mətbuatın bizim ailəmiz ilə maraqlandığını, dostların, qohumların və başqalarının

gəlib getməsini nəzərə alsaq (Bred və mənim kimi) onun təklikdə kədərini çəkmək üçün demək olar ki, bir küncü belə yox idi. Biz hələ də onun bütün bu gərginliyə qarşı necə durduğunu görəndə yüngülləşmişdik. O, hətta öz şəxsi acılarından uzağa baxmağa başlamışdı və çalışırdı ki, Kessi ölümü vasitəsilə ona bir dərs və ya daha geniş mənada nə deyə bildiyini görə bilsin:

> Kessi ilə mənim orda-burda mübahisələrimiz olurdu – kiçik rəqabətlər – amma həqiqətdə heç vaxt böyük bir şey olmurdu. Biz həqiqətən bir-birimizin ən yaxın dostu idik. İndi o, yoxdur və mən başa düşürəm ki, onunla daha yaxşı rəftar edə bilərdim.
>
> Onu necə incitdiyimi görmək məni narahat edirdi. Bir gün, onun ölümündən təxminən bir ay sonra mən yuxarıda, onun otağında idim və köhnə bir dəftərdə yazdığı şerləri tapdım. Onlardan biri «Mənim Qardaşım» adlanırdı və bu şer Kessiyə görə dostlarımın qarşısında özümü utandırılmış kimi aparmağımın onu ruhdan salması haqqında idi. Məncə, o mənim öz dostlarımla gəzməyimi onunla olmaqdan daha çox xoşladığımı və dostlarımı ondan üstün tutduğumu görürdü. Bu şerə görə özümü elə bil ki, alçaq hiss etdim, çünki o, həmişə mənə qarşı yaxşı olmuşdu. Yəni, o, məni maşınla hər yerə – məni dostlarımın evinə, skeyt parklara və gənclər məşğələlərinə apardı. Lakin mən ona lazım olan bir zaman onunla deyildim.
>
> Beləliklə, o, öləndən bəri mən daha da ona oxşamağa çalışıram. Mən CD-disklərimə baxıb yaxşı sözləri olmayanlarından canımı qurtardım. Çalışmışam ki, pis adam olmayım və başqalarını görünüşlərinə və dediklərinə görə mühakimə etməyim. Mən həmçinin daha nəzakətli və səxavətli olmağa çalışıram. Güman edirəm, bu şer sadəcə göstərir ki, sən hətta bilmədən də kimisə incidə bilərsən.

Kessinin kitabxanada silahlı ilə söz güləşdirməsini eşidən ikinci kurs tələbəsi Coş deyir ki, Kessinin ölümü onun həyatına baxışını hər nöqteyi-nəzərdən dəyişdi:

> O günədək mən heç nəyə əhəmiyyət vermirdim. Mən məktəbdə beysbol komandasında topu oyuna daxil edən idim və mən oynamaqdan sui-istifadə edirdim. Hətta o

> gün partanın altına sığınanda «Əgər mən güllə yarası alsam haradan yaralanmaq istərdim ki, yenə də top oynaya bilim və ya gəzə bilim» deyə düşünürdüm. Çünki mən bu oyunlar üçün yaşayırdım. Amma indi mən buna tamamilə fərqli baxıram. Mən hələ də beysbol üçün yaşayıram, amma indi mən oynaya bilməyimi özümə şərəf bilirəm. İndi əvvəlkindən daha çox vacib olan başqa şeylər var: ailəm, kiçik qardaşım və dostlarım.
>
> Güman edirəm ki, yeniyetməliyə ölməzlik, ən azı uzun illər boyu heç vaxt pis yaralanmamaq və dəqiq heç vaxt ölməmək kimi baxırdım. Hal-hazırda mən belə fikirləşə bilmərəm. Mən bu günümü dolğunluğu ilə yaşamalıyam, çünki anladım ki, sən bu dünyanı həyatının istənilən anında tərk edə bilərsən. Sənin nə qədər yaşlı və ya gənc olmağının fərqi yoxdur. Əvvəllər mən həmişə belə düşünürdüm: həmişə səhər açılacaq, tələsmək lazım deyil.

Kitabxanada digər sağ qalan, əvvəl sitat gətirdiyim Kristal təzəlikcə mənə dedi ki, ölüm ona çox yaxınlaşdığına görə hələ də sarsılır, digərlərinin belə tez rahat yaşamağa davam edə bilən kimi görünmələri onu təəccübləndirir.

> Biz hələ də verilən hər bir an ölə bilərik. Mən düşünürdüm ki, hər şey dəyişəcək; düşünürdüm ki, insanlar bu şeydən keçəndən sonra daha yaxın olar və yaxın qalar. Amma bir çox şeylər olduğu kimi qalıb. Bütün bu həyəcandan sonra insanların çoxu yenə olduqları yerə, öz kiçik sığınacaqlarına qayıtdılar.

Kristalın şişirtdiyini demək asan olardı, amma bu belə deyildi. Hətta atışmadan sonrakı bir neçə həftə ərzində övladlarını itirən bizlər onların məktəb yaxınlığındakı xatirə abidələrini gündəlik yad edirdiksə də, «bütün təlaşı arxada qoymağ»a və irəliləməyə can atan başqaları da vardı. Təqribən, İyunun əvvəllərində, *Denver qəzeti* məlumat verdi ki, bir çox tələbələr «bütün bu xatirə abidələrindən və bunun kimi şeylərdən olduqca yorulublar.»

«Bu artıq yükə çevrilmişdir» deyərək bir yuxarı kurs tələbəsindən sitat gətirilmişdi. «Düşünürəm hamımız üçün həyatımıza davam etmək vaxtıdır.» Həmin məqalə bu sözlərlə davam edirdi: «Kolumbinin yeni məzunları qarşıda gələn yay tətilinə, dağ səyahətlərinə və ofisiantlıq işlərinə can atırlar… kollecə, karyera qurmağa və yetkinliyin gətirdiyi

istənilən şeyi gələcəkdən gözləyirlər... Onlar normal həyata, həmin yazı unutmağı üstün tutan həyata can atırlar.»

Bir mərhumun anası kimi mən bu etinasızlığa görə özümü dərindən incimiş hiss edirəm. Kim arzulamır ki, onlar həyatlarına davam etsin? Kim unutmağı «üstün tutmur» ki? Mən özüm hər şeyimi verərdim ki, kökündən qırılan, sarsıdılan və həmişəlik dəyişilən tarixdən, Aprelin iyirmisindən əvvəlki normal həyatıma qayıdım. Amma edə bilmirəm.

Şükür ki, anlamayanlara nisbətən, başa düşən insanlar – Kessinin ölümündən sonra «sadəcə hər şeyin yaxşı olduğuna əmin olmaq üçün» bizə bir neçə dəfə baş çəkən Cordan kimiləri daha çoxdur. Cordan deyir ki, Aprelin iyirmisi onun hər şeyə baxış tərzini dəyişdirdi:

> Mən insan həyatı da daxil olmaqla, hər şeyin nə qədər keçici olduğunu düşünməyə başladım. Dəfn mərasimində tabutun torpağa salındığını görmək və bütün bunların toza dönəcəyini bilmək – məni həqiqətən düşündürdü. Qəfildən mənim maşınım, mənzilim, pulum, mənim maddi şeylərim və hətta məktəbim artıq o qədər də vacib görünməməyə başladı. Mən kollecdən bir həftəlik icazə aldım, çünki dostlarımla və kilsədəki hər bir kəslə vaxt keçirmək mənim üçün daha vacib idi. Söhbət etmək vacib deyildi, məqsədim yalnız birlikdə olmaq və onların mənim üçün qiymətli olduğunu bildirmək idi.
>
> Məncə bu cür ölüm bizi sarsıtmalı və oyatmalıdır. Bu bizdə belə sual yaratmalıdır, «Həyatda mühüm olan nədir?» Kessinin o kitabxanada növbəti dərsini oxuması, bir gün iş tapa bilmək üçün təhsil alması vacib idimi? Mən elə düşünmürəm. Məncə, vacib olan şey onun istənilən anda getməyə hazır olması idi.
>
> Buna görə mən götür-qoy etmək üçün icazə aldım. Sən sadəcə o an normal gündəlik çərçivəyə salınmış qaydalarına qayıda bilməzsən. Mən, hətta həyat yoldaşımla münasibətimə fərqli baxıram. Hal-hazırda biz hər gecə birlikdə dua etməyə çalışırıq. Bu o demək deyil ki, mən sevdiyim insanlara bağlanmaqdan qorxuram. İnsan qorxu içində yaşaya bilməz. Amma sən hər vaxt onların getməsinə izn verməyə hazır olmalısan.
>
> Sevdiyin şəxsin həyatı sənin üçün bir hədiyyədir. Öz

həyatını rəhbər tutub davam etmək bir növ həmin şəxsə «Mənim yanımda olmağın yaxşıdır, amma mənim məşğul olmağa başqa işlərim var» demək həmin hədiyyəni onların başına çırpmağa bənzəyir. Mən düşünmürəm ki, bu kiminsə həyatına hörmət etmək yoludur. «Mən bunu udacaq və özümü möhkəm göstərəcəyəm» deyərək, sənin qaşqabaqlı və ciddi olmağına ehtiyac yoxdur. Amma mən düşünürəm ki, götür-qoy etməyə mənasız baxmamaq vacibdir.

Belə hadisə bizə təsir etməlidir. Bu bizi dəyişməlidir. Əgər belə olmasa, deməli, nəsə səhvdir. Əgər sən öz həyatının əvvəlki kimi davam etməsinə imkan verirsənsə, sənə verilmiş hədiyyəni basdırırsan. Sən vacib bir anı itirirsən.

Cordan kimi mən də hiss edirəm ki, sevdiyin bir kəsi itirdikdən sonra öz əvvəlki adi həyatını yaşamağa davam etmək mərhuma qarşı hörmətsizlikdir. Bu ölümün biz yaşayanlara göstərmək istədiklərindən imtina etmək deməkdir. Bu əbədiliyin reallığı ilə qarşılaşanda biz sakit və sükut içərisində olmalıyıq.

Götür-qoy etmək heç vaxt asan deyil. Alaqaranlıq vaxtlarda yuxuya gedə bilməyəndə ağlamaq; üzümü yastıqda gizlətmək və nəfəsim kəsilənədək ağlamaq daha asandır. Axı niyə? *Nə üçün?* Onlar onu necə öldürə bildilər? Onların etdiyini kimsə necə edə bilərdi, onlar insanla necə belə rəftar edə bildilər? Onlar Kessinin şirin, gənc üzünə, mavi gözlərinə necə baxa bildilər? Kimsə nə dərəcədə hissiyyatsız ola bilərdi ki, mənim qızımın başına silahı dayaya bilsin?

Eləcə də hirslənmək, barmaqla göstərmək və ya mətbuatın «geniş» məsələlər adlandırdığında özünü itirmək asandır. Kolumbindəki hadisənin ardınca odlu silaha nəzarət və video oyunlar, məktəbdə təhlükəsizlik və Hollivud zorakı filmləri, bunun qarşısını almaq üçün təhsil və kilsənin hökumətdən ayrılması meydana çıxdı. Bütün bu məsələlər vacibdir, amma günün sonunda bu şeylərin əhəmiyyəti olmaya bilər. Yoxsa, var?

Niyə valideynlər və qanun yaradanlar silaha nəzarəti həyata keçirmək və televiziya zorakılığına son qoymağa çağıranda bizim gənclər ünsiyyət üçün hayqırırlar? Niyə biz onlara psixoloqlar, məsləhətçilər və konflikt həlli üzrə ekspertlər təklif edəndə, onlar gənclər qrupuna gedir və

dost axtarırlar? Niyə hər bir kəs təqsirini bölüşəndə və yeni müdafiə qaydaları yaradanda uşaqlar ürəklərinin dəyişilməsi haqqında danışırlar?

Nə qədər çox bu haqda fikirləşirəmsə, bir o qədər çox əmin oluram ki, siyasi və ictimai müzakirənin nə qədər geniş olmasına baxmayaraq, Kessinin həyatına son qoyan kimi faciələrin qarşısını almaq üçün biz öz şəxsi səylərimizin eyni dərəcədə həyati mühüm rolunu unutmamalıyıq. Mənə görə, bu ən azı, ehtiyat məni geri çəkəndə belə, səxavətli və biixtiyar davranmaqla nəticələnir. Bu mühakimə edib geri çəkilməkdən daha çox kömək əlini uzatmaq; (Kessinin dediyi kimi) «rahatlıq dairəsin»dən kənara çıxarıb, müəyyən qurban tələb etsə belə, hisslərinin ardınca getmək deməkdir. Nəhayət, bu Sevgi uğrunda hər şeyi – əlbəttə, qəhrəman və ya şəhid kimi yox – amma ardıcıl olaraq və əminliklə, həyatı təşkil edən kiçik, gündəlik şeyləri qurban verməyə cəsarət deməkdir.

Qızımın itkisini məğlubiyyətdən daha çox qələbə kimi görə bilməyimin səbəbi budur. Ağrı-acı azalmayıb. Bu həmişə dərin kök salacaq və dəyişməyəcək. Buna baxmayaraq, mən bilirəm ki, onun ölümü mənasız deyildi, əksinə düzlüyün və cəsarətin zəfəridir. Məncə, Kessinin həyatı deyir ki, inandığın şeyə görə ölmək yalanla yaşamaqdan yaxşıdır.

∗ ∗ ∗ ∗

Qızımın ölümündən bir neçə gün sonra, mən öyrəndim ki, Aprelin iyirmisi, güllələr Kolumbin orta məktəbinin dəhlizlərini xaraba qoyanda İzrailə səyahət edən dostlarımız həlak olan əsgərləri xatırlamaq üçün xidmətdə iştirak edirdilər. Xor İbrani dilində oxuduğuna görə tərcüməçi izah edirdi. Bu ölkənin şəhidlər qarşısındakı borcu idi və tərcümə hardasa belə davam edirdi: «Mənim ölümüm yalnız mənim deyil, sizinkidir və bunun əhəmiyyəti sizin bununla necə rəftar etmənizdən asılıdır.»

Sizə, oxuculara çatdırmaq istədiyim bir şey vardırsa, bu da eyni fikirdir: Kessinin hekayəsi yalnız mənim və Bredinki deyil. Bu sizindir və bununla necə davranmağınız onun ölümünə məna verəcək.

# Minnətdarlıqlar

Kolumbindəki faciədə və bunun nəticəsindən meydana çıxan kitabı yaradanadək, bizə əvvəldən axıradək dayaq olan və qayğımızı çəkən çox insanlar var. Biz heç olmazsa, onlardan bir neçəsinə təşəkkür etmək istəyirik: bütün cəlb olunmuş qanun keşikçiləri, yanğınsöndürənlər, həm könüllü, həm də peşəkar köməkçilər və təcili yardım işçiləri; bizim pastorlarımız Corc Kristen və Deyv Makferson; Uest Boules cəmiyyəti kilsəsinin sevən və əliaçıq üzvlərinə; qardaşlarımız, bacılarımız, ana-atalarımıza və bizim Məsihdə genişlənmiş ailəmizə (sən kim olduğunu bilirsən); bizə dost olmuş Plau nəşriyyat evindən olan insanlara; qonşularımıza; Litlton cəmiyyəti və bütün dünya boyunca bizimlə sevgi və səxavətlə əlaqə saxlayan bir çox digər insanlara; ən vacibi isə Atamız Allaha. O, özü də öz övladını itirib – oğlu İsa Məsihi – və bizə itkimizə dözməyə güc verən Odur.



# Mündəricat


Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9
1. Çərşənbə axşamı. . . . . . . . . . . . . . . . . . . . . . . 13
2. Atasının qızı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
3. O qatil haqqında yazdı . . . . . . . . . . . . . . . . . . 37
4. Ailə daxilində baş verənlər . . . . . . . . . . . . . . . . 51
5. Geriyə dönüş . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
6. Məhəbbətin sınaqları. . . . . . . . . . . . . . . . . . . . 71
7. Ölərək biz yaşayırıq . . . . . . . . . . . . . . . . . . . . 89
8. Düşüncələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 99




1999-cu il aprelin iyirmisi, Hitlerin anadan olduğu gün iki silahlı məktəbli məktəbə girib nə qədər bacardılarsa, o qədər adam öldürdülər. Onlar 17 yaşlı Kessi Bernalla yaxınlaşaraq, silahı onun başına dirədilər və soruşdular: «Sən Allaha inanırsanmı?» O, «bəli» dedi. O zaman qatil istehza ilə gülüb tətiyi çəkdi.

Bütün dünya Kessini müasir şəhid adlandırırdı, lakin ən əsas hissə nəql olunmamış qalırdı. Həmin hadisədən üç il əvvəl Kessi özü müəllimini öldürmək üçün plan hazırlayır və sui-qəsd ilə təhdid edirdi. Kitabda onun anası qızını bu son qəhrəmanlıq qarşıdurmasına gətirən təsirli dəyişilmə prossesi haqqında danışmaq qərarına gəlib.



«Kessi Bernallın hekayəsinin təsiri ondadır ki, o özü az qala narkomaniyaya, cadu və qəddar fantazilayara qoşulmuşdu, lakin bunların hamısından imtina edə bildi.»

*Hardnan*